YAZILMAYAN MƏKTUBLAR

Birinci fəsil Hamı susurdu. Bəs nə eləsinlər? Əməlli-başlı dincəlmək üçün insana ancaq sakitlik lazımdır. Ara qapısının o üzündən gələn uğultu – kondisionerin hərdən xışıltıya, mışıltıya, bəzən də az qala marçıltıya dönən səsi olmasaydı, mən deyərdim ki, bizim dincəldiyimiz bu otaqda "qu" deyəndə qulaq batırdı.

Mən də susurdum, amma anlaşılmaz bir duyğu ilə hiss eləyirdim ki, damarlarımdan axan qanım da yavaş-yavaş uyumağa başlayır:

kondisionerin az qala marçıltıya dönən uğultusu arabir fitqarışıq zəhlətökən xorultuya çevrildikcə, mən bunu açıq-aşkar hiss eləyirdim.

Uşaqlar bir-birinə sarı boylandılar, amma heç kəs yerindən tərpənmək fikrində deyildi. Axı niyə də tərpənməli idilər – hərə istədiyi yerdə yatıb dincələ bilərdi. Yatıb dincələn orkestrin rəhbəri idisə, özü də, "Yekəpər" ləqəbini royalda çalmağı bacarmadığına görə "qazanmışdısa", demək, onun heç bir haqqını, burda yatıb dincəlmək haqqını əlindən almaq olmazdı.

Qəribədir, harada olursa olsun, bircə anda gözünə yuxu gedir.

Bir dəfə Seymurun eskalatorda yatdığını öz gözümlə görmüşəm.

Özü də, axıra çatmağa ikicə pillə qalmış yuxudan oyandı...

Mən kiminsə ayaqlarının üstündən adlayıb Seymura yaxınlaşdım.

Başını kreslonun söykənəcəyinə dayayıb, daha doğrusu, az qala söykənəcəkdən aşırıb yatmışdı. Qalstuku üzüaşağı sallanmışdı, taybatay açılmış ağzı və nəhəng xirtdəyi uzaqdan gözə dəyirdi.

Xorultu idimi, mələrti, zingilti idimi – baş açmaq olmur; hər nə idisə, mən ona yaxınlaşıb əlimi çiyninə qoyan kimi əcaib səslər birdənbirə kəsildi.

– Bu gün uşaqlara nə olmuşdu belə? – deyə mehriban-mehriban soruşuram. – Bıy, bağışla, deyəsən yatırdın.

O, qızarmış gözlərini mənə zillədi.

– Deyəsən, xoruldayırdım, eləmi? – səsində bir nigaranlıq, narahatlıq vardı.

– Sən? Şişirtmə görək! – Adil kresloya söykənəcəkli halda cavab verdi. – Şişirtmə, qadası! Bir balerina tanıyırdım, ona elə gəlirdi yatanda xoruldayır, həkimə yalvarıb-yaxarırdı ki, qlandasını kəssinlər. O qədər utancaq idi, demək olar, heç yatmırdı...

– Necə yatmırdı?

Hə, yaman yerdə axşamladıq, demək, Seymurun yuxusu tamamkamal dağıldı. Məqam düşən kimi məzələnməsə, atmaca atmasa, bağrı çatlayar. Ax, nə yaman yumor dağarcığıdı! Deyirəm, imkanım olaydı, onun yumorunu xüsusi sisternlərə doldurub aparaydım şəhərdən uzaqlara – bağların, bostanların məhsuldarlığını artırmağa.

– Sən nə istəyirdin? – bunu məndən soruşur.

– Deyirəm, bu gün uşaqlara nə olmuşdu belə? Elə sən də bir o qədər yaxşı çalmırdın.

Düz deyirdim, çalğımız alınmırdı. Heç cür yadıma sala bilmirəm ki, biz sonuncu dəfə harda, nə zaman bu kökə düşmüşdük.

Səhnədə doqquz adam yan-yana əyləşmişdi, bütün qüvvələrini işə salmışdılar, amma... nə olsun, heç nə alınmırdı.

– Hə... düz deyirsən, səviyyəmiz – o məsələ... – Seymur deyəsən mənimlə razılaşdı. – O biri tərəfdən, axı bizə nə verirlər ki, nə alsınlar? Yenə də birinci hissədə korladıq... Elə deyilmi?

Qapı aram-aram döyüldü, astanada drujinaçı göründü. Üzünü Seymura tutub:

– Sizi görmək istəyən var, – dedi.

– O kimdir elə? – Seymur heyrətlə dilləndi. – Hardan gəlib çıxdı bura? – O, bizim üzümüzə baxdı, biz də ona təbəssümlə “cavab” verdik, təkcə Adildən başqa – dünya onun vecinə deyil. – Bəlkə bizim dinləyicimizdi, cavan, gözəl-göyçək?..

Deyəsən, axırıncı söz heç yerinə düşmədi; axı bu könüllü drujinaçılar qapıların ağzında məhz ona görə dayanırlar ki, incəsənət həvəskarları bizə mane olmasınlar. Hər dəqiqə kimsə otağa başını soxmağa can atır, drujinaçılar da öz işlərini yaxşı bilirlər, kimini dilə tutur, qılıqlayıb geri qaytarırlar, başa düşməyənləri də o söz – necə lazımdı, eləcə “yola salırlar”...

Drujinaçı:

– Yox, yox... Yaşlı adamdı. Özü də, deyəsən, vəzifəli yoldaşlardandı, – dedi.

– Burax gəlsin! – deyə Seymur yerindən qalxdı, güzgüyə yaxınlaşdı, arxası qapıya dayanıb ehmal-ehmal qalstukunu bağlamağa başladı.

Yox, deyəsən, heç “vəzifəli yoldaşlara” oxşamır. O, şlyapasını çıxarmadı, amma adama elə gəlirdi ki, başının dazlığının işıltısı boz, həsir şlyapanı da deşib keçir. Doğrudan da, elə adamlar var ki, başında papağı, şlyapası ola-ola, dazlığını yüz addımlıqdan görürsən.

Tünd-boz pencək geyinib, ilk baxışdan bomboz görünür, amma fikir verəndə görürsən ki, şalvarı, bir də pencəyinin ətəyi qaramtıl rəngə çalır. Elə bil bu kostyum hər səhər xaş yemək üçün tikdirilib.

Nə isə, görkəmi, hətta gözü, bığı və tuflisi də öz yerində, amma açığını deyim ki, onun portfeli mənim daha çox xoşuma gəldi.

Yupyumru, qəhvəyi itə oxşayır – sahibi hara gedir, o da onun dalınca yellənir. İndi sahibinin böyrünə, daha doğrusu, ayaqlarına qısılıb, nə üzü görünür, nə də quyruğu...

– Salam. Sizin yanınıza vacib bir iş üçün gəlmişəm. Mənim sizə bir təklifim var, – o, portfeli açdı, bir kağız çıxartdı, sonra da ikincisinə əlini uzatdı.

Seymur hamımızın əvəzindən dilləndi:

– Gəlin əvvəlcədən şərt kəsək: biz matəm yerində, bayram təntənələrində çalmırıq.

Biz də razılıqla başımızı tərpətdik.

– Bax, varam belə zarafata. Bir yanda həssas, zərif musiqi dünyası, bir yanda da işgüzar şərtlər...

Başını qaldırıb Seymura baxdı. Əvvəlcə çox ciddi görkəm almışdı, sözünü də elə ciddi görkəmlə demişdi: sonra, Seymura baxa-baxa, özünün də xəbəri olmadan gülümsündü. Özü də necə gülümsündü...

İrişdikcə dodaqları aralandı, uzanıb getdi düz qulağının dibinə, dodaqlarının arasından da qızılca dişləri, metal və plastik dişləri göründü. Beləcə dayanıb gülümsündü, gülümsündü, qaradinməzqaradinməz bizə baxdı.

Seymur soruşdu:

– Buyurun görək, mənə nə sözünüz var?

– Filarmoniyanın tapşırığını sizə çatdırmağa gəlmişəm. Özü də, sizin ürəyinizdən olacaq, lap ürəyinizdən, – qonağın səsində arxayınlıq vardı.

Elə Seymur da arxayınlıqla dilləndi:

– Eh... filarmoniyalar da ancaq zərərlə işləyirlər.

Qonağın səsi bomba kimi partladı:

– Sizin nəyinizə gərəkdir, canım?! Filarmoniya zərərlə işləyir, xeyir verir, ya vermir – sizə bir isti-soyuğu varmı? Filarmoniya canlı insan deyil ki, ondan da... Siz öz dərdinizi çəkin. Amma dediyim, doğrudan, sizin ürəyinizdən olacaq. Mənə elə gəlir ki, bəxtiniz gətirib, vəssalam...

Birdən... onun hiyləgər gözlərini gördüm. Gör necə oyur-oyur oynayır!

– Sizin kollektiv, daha doğrusu, bədii özfəaliyyət kollektivi, yayda Krımda, Qara dəniz sahilləri kurortlarında qastrolda olacaq.

Hər gün iki-üç konsert verəcəksiniz. Yalta, Simeiz, Qaqra, Sevastopol...

Ən yaxşı mehmanxanalarda qalacaqsınız...

Qonaq bu sözləri birnəfəsə deyib susdu; amma yox, susana oxşamırdı – sən demə, o, bir-iki saniyə sonra üçüncü zəngin çalınacağını gözəlcə bilirmiş.

– Yaxşı, sonra danışarıq...

Necə yəni sonra danışarıq? Heç bu yerdə fikirləşərlər? Belə şirin sözləri heç yuxuda da eşitməzsən. Bütün yayı Krımda olmaq!..

Eh... Seymur da minnət qoymağa vaxt tapdı. Əlbəttə, "bədii özfəaliyyət deyəndə o da korladı. Axtarsan, Bakıda ikinci belə orkestr tapmazsan. Uşaqlara da söz yoxdur, istəyirsən notla çalsınlar, istəyirsən notsuz. Götürək Seymuru – kişi əsl pianoçudu.

– Eyibi yox, mən tələsmirəm, – portfelin sahibi yenə də gülümsündü, hamımıza bir yerdə gülümsündü, tək-tək üzümüzə baxıb gülümsündü, yenə də hərəmizin payına neçə karatlıq qiymətli-qiymətli metal düşdü. – İcazə verin, mən də sizin konsertə qulaq asım. Elə belə, pərdə arxasından...

Hamımız otaqdan çıxdıq. Adil astanada mənim qolumdan tutdu:

– Tanımadın? Ay sənin!.. Bizim keçmiş qonşumuzdu! Üzbəüz binada yaşayırdılar.

Nədənsə, uşaqlığım az-az yadıma düşür. Bəlkə yada salmaq istəmirəm, bəlkə yada salınası günlərim olmayıb? Fikirləşdim, səhnəyə çathaçatda qonşumuz yadıma düşdü.

– Ola bilməz?!

Adil başını tərpətdi.

– Özüdü ki var...

İlahi, adam bu qədər də dəyişə bilər? Bu, tamam başqa adamdı.

Yəqin biz özümüz də elə “başqa-başqa adamlara” dönmüşük. Gərək ki, o bizdən on beş yaş böyük olar. Violonçelçalan qonşu... Evdə royalda çalırdı, orkestrdə – violonçeldə.

Otaqdan çıxıb səhnənin arxasına çatana kimi hər şeyi bütün aydınlığı ilə xatırladım...

Onun çalğısı küçəni başına götürürdü, xüsusən yay aylarında.

Amma... tez-tez çaldığı təkcə bir melodiya səslənəndə, mən əlüstü uşaqlardan aralanıb bir dalda yerə çəkilərdim, çünki heç özümün də xəbərim olmadan həmişə gözlərim yaşarardı. Melodiya çalınana kimi mən uşaqlarla şirin-şirin söhbət eləyərdim, o çalmağa başlayanda isə, səkkizinci sinifəcən çarpayıda qapılıb qalan dəlicinli Məmməd Həsənovsayaq, durduğum yerdəcə gözümdən yaş axırdı.

Sonralar bildim ki, Şopenin “İnqilabi etüd”ü imiş...

Onun evinə tez-tez qonaqlar yığışardı, gecə yarıya kimi səs-küy kəsilməzdi. Evində heç bir dəfə də olmamışdım, amma o axşamların biri ömürlük mənim yaddaşımda həkk olunub qaldı. Elə indinin özündə də o axşamı xatırladım, elə bil o əhvalat dünən olmuşdu, elə bil üstündən on beş il keçməmişdi...

Mən evimizin küçəyə baxan eyvanına çıxdım, qarşıdakı binanın bütün pəncərələrinə zülmət çökmüşdü, təkcə eyvanların birində siqaretlər közərirdi, elə bil işıldaquşlar ara-sıra uçub havada dövrə vurur, sonra harasa qonurdu. Bir qadın o zülmət gecədə şeir oxuyurdu. O qadından gələn ətri indi də xatırlayıram; tək bircə anda burnuma dəydi, amma aradan neçə illər keçsə də, onu heç bir ətirlə qarışıq salmıram. Şeirləri necə gözəl oxuyurdu, ilahi! Yəqin ki, mən o gecə əməlli-başlı yuxulu idim, çünki onun dilindən çıxan sözləri qaranlıqda açıq-aşkar görürdüm. Niyə desəniz and içim – mən o sözləri görürdüm! Mən hələ də qorxuram ki, nə zamansa, o sözləri necə gördüyümü unudacağam, qorxuram ki, özüm də özümə inanmayacağam, “Yox, sənə elə gəlib” – deyə düşünəcəyəm...

Əvvəllər o gecəni tez-tez xatırlayırdım, amma axır illər heç bir dəfə də olsun, yadıma düşmür. Mənə elə gəlirdi ki, qadının dilindən çıxan o sözlər qanadlanıb uçmazdan qabaq, itiuclu piramidasayaq, pillə-pillə düzülürdü, özü də o sözlərdən yolka qozalarının, bir də sərin suyun ətri vururdu...

O gecə şeir oxuyan qadının üzünü görmürdüm, təkcə səsini eşidirdim, amma fəhmlə hiss eləyirdim ki, o, son dərəcə gözəldi, mən sonra, həmin gecə o gözəl qadını yuxuda da gördüm...

Qonaq, daha doğrusu, bizim qonşu o gecəni bəlkə də tamam unudub. Evi həmişə qonaq-qaralı olardı, elə qonaqlı-qaralı gecələrin hamısını necə yadda saxlayasan?..

Zalda iynə atsan, yerə düşməz; hələ ayaq üstə dayananlar...

hələ bir rəqs eləmək fikrinə də düşmüşdülər. Bizim uşaqlar səhnəyə çıxan kimi hamı əl çaldı, üstəlik bir fit də çaldılar – amma bu fit o fitdən deyildi. Hə, başladıq, nə başladıq. Aha, deyəsən, yaxşı alındı, hər halda, birinci hissəyə baxanda buna söz ola bilməzdi. Cəmi doqquzca adam... amma elə bir nəhəng bir orkestr çalır. Bax, buna görə Adilə sağ ol demək lazımdır. Böyük orkestrlərdə olduğu kimi, akkordları ayrıca qeyd eləyib, odur ki, hamısı yerli-yerində səslənir. Elə bil bircə musiqi aləti səslənir. Bəs necə, "bədii özfəaliyyətdi" də!.. Amma mənim aləmimdə bizim orkestrə ən yaxşı çalğıçılar toplaşıb, nota gözucu baxan kimi öz işlərini bilirlər; hələ mən Adili, Seymuru demirəm, bəlkə də bütün ölkədə belələrini barmaqla saymaq olar. Doğrusu, mən hələ onlar kimi improvizə eləyən görməmişəm, özü də hər dəfə təzə donda, təzə biçimdə, istənilən harmoniyanı ver – eşidəndə heyran qalarsan. Eh, hələ Adilin kefi yaxşı olanda görəydiniz, musiqinin ritmik quruluşunu bir kənara qoyub nə aləm yaradır; inandırıram sizi, onu duyan, başa düşən adam konsertdən sonra iki saat da gözləməyə razı olar – təki, Adilə yaxınlaşıb əlini sıxa bilsin. Özü də səssiz-səmirsiz, gurultulu sözlər demədən... Gözləyənlər də tapılır.

Orasını da deyim ki, əslində biz hamımız həvəskarıq, təkcə onillik musiqi məktəbini bitirmişik, vəssalam...

...Beş-altı dəqiqədən sonra səhnəyə çıxmalıyam. Özümə min dəfə söz vermişəm ki, konsert günü gərək evdə əməlli-başlı hazırlaşam, gərək səhnəyə oxumağa çıxmazdan əvvəl bir saat uzanıb dincələm.

Hiss eləyirəm ki, dişlərimdən, səs tellərimdən tutmuş ağzımda nə varsa, hamısı buz bağlayıb, şişirtmək olmasın, "sürüşməyə" bircə xizək çatışmır. Heç olmasa indi boğazı yaxşı-yaxşı "arıtlamaq" lazım idi. Aha, bayaq dediyim köhnə qonşum da burdadı. Çəkildi qırağa.

Yaxşı, mən niyə belə həyəcanlanmalıyam, bəyəm müsabiqə keçirilir?

Necə bacarıram elə də oxuyacağam! O məndən nə istəyir axı?.. Gör nə yaxşı termosu var, görəsən hardan alıb? Bayaq qapağını burub ağzını açdı, çayı süzüb... mənə verdi. Sən Allah, telepatiyaya bir bax!

Ah... nə gözəldi, adicə isticə çay adamın bütün sinirlərini dincəldir.

Stəkanı axıra kimi boşaltmağa macal tapmadım.

Bu nədir belə başı batmış işıq texniki projektoru düz gözümə tuşlayıb, heç bir dəfə də yayındırmır; birtəhər, ehmal-ehmal addımlayıb mikrofonun boğazından yapışıram. Hə, mikrofonun qabağında deyəsən özümə gəldim. Şükür yaxşı qurtardım.

Orkestrin, üstəlik, həm də solistin adını "aləmə yaymaq", necə deyim, nüfuzunu qaldırmaq üçün Boris zərb alətlərinin başına bir oyun açır ki, gəl görəsən; zərbləri üstünə şabaş kimi tökür. Zalı da özündən çıxarıb, elə hey, aramsız əl çalırlar, mənə aman vermirlər ki, başlayım. Neft institutunun ənənəvi gecəsinə heç iki həftə əvvəl də bilet tapılmırdı. Bu gün tibb institutunun tələbələri onların qonağıdı, amma burda bütün institutların tələbələrinə rast gələrsən. Baxmağa məndə halmı var? Öz başımın hayına qalmışam...

Mən Seymura sarı dönüb işarə verdim ki, başlamaq olar; o, ayı pəncəsinə oxşayan iri əllərini fortepianonun dillərinin üstünə qoydu, elə ehmal qoydu ki, səsi güclə eşitdim, əlüstü zala sakitlik çökdü. Sevindim, bax, tamaşaçı, dinləyici buna deyərəm!

Biz heç vaxt əvvəldən razılığa gəlmirik ki, nə oxuyacağam, Seymur bu məsələni elə birbaşa səhnədəcə həll eləyir. Qəribə burasıdır ki, o, həmişə də həmin məqamda mənim ürəyimdən olanı seçir, heç bir dəfə də olsun "səhvə" yol vermir.

Axı bu gün Seymura heç kəs deməmişdi ki, mən yaxşı hazır deyiləm, amma o, fəhmlə hiss elədiyindən sakit bir mahnı – "Xeyirxahlıq çiçəkləri"ni seçdi. Beləcə, sakitcə başlayaq... Mahnının ilk sözləri lap yavaşdan, pıçıltı ilə səslənir, sonra axıra kimi reçitativ gəlir. Aha, Adil sevimli çalğısını yaman dindirdi, gör necə aydın, dumduru səslər çıxarır... Çay qırağı, aylı gecə... Sözlər də adicə isti sözlərdi, hətta bir az sentimentallıq qoxusu da var onlarda; yazda əkilən, bircə baxışdan göyərən, yayda boya-başa çatan məhəbbət çiçəklərindən deyir. Sözlər də ürəyəyatandı, melodiya da, amma deyəsən, heç bu mahnını eşidən yoxdu; elə bil orkestr "özü üçün" çalır, mən də "özüm

üçün” oxuyuram; zalda musiqiyə uyar astaca-astaca rəqs eləyirlər, ancaq mənim oxuduğum mahnıya yox, öz maqnitofonlarına qulaq asırlar. Nə isə, mənə belə gəlirdi...

Elə nəqərat də sən deyən yaxşı alınmır. Bu mahnının hər sözünün altına qol qoymaq olar, özüm də pis oxumuram, hətta, musiqiçilər demişkən, əsas tona rəng verən yarımtonları belə çatdırıram, ancaq hiss eləyirəm ki, yox, alınmır, səsimdəki – nəfəsimdəki saxtakarlıq baş alıb gedir, dayana da bilmirəm. Yəqin zalda hər şeyi gözəlcə başa düşürlər, məndən də yaxşı, yəqin bir-birinə göz vurub pıqqıldaşanlar da var. “Son hissə – koda çatdı? Şükür Allaha, nə yaxşı oldu! Əl çalırlar, alqışlayırlar? Necə, necə? Ağıllarını itiriblər ki...” Düzdür, nə fıştırıq çalan, nə ayağını yerə döyüb qışqıran var, amma laqeydlikdən də əsər-əlamət yoxdu.

Mən royala tərəf çəkildim, aha, yenə Seymurun ağzı qulağının dibinə uzanıb, sevincindən gözləri də qıyılıb.

– Görürsən də, zəhmətkeşləri sevindirə bilirik, balam!

Konsert vaxtı biz bir-birimizi sözsüz də başa düşürük...

– Neyləyim, özüm də bilirəm ki, alınmır. Sən, durma, uzunuzadı bir giriş ver, nə qədər bacarırsan uzat, mən də qaçım bir qurtum çay içim...

– Yerindən tərpənmə! Çaysız da keçinərsən! – Heç mənə sarı baxmadan üzünü zala tutub gülümsünür, kiminləsə salamlaşır. – Bir ora bax, – deyir, – gör solda, ikinci pəncərənin yanında kim dayanıb.

Gördün? “Sarı geyimli qız” bizə təşrif gətirib...

Alanı deyir, Adil başa düşməsin deyə Seymur qəliz dillə danışır. Qız universitetdə, üçüncü kursda oxuyur. Görəsən nə olub, Seymur yenə zəhərli ilan kimi fışqırır; amma yox, onun köhnə xasiyyətidi, bir də görürsən, xəstə nənəsindən danışır, gözündən də əcinnələr boylanır...

– Onun qulaqlarına bax, – deyir.

– Kimin? – bilmədim kimdən danışır.

– Bizim saksafonçunun. Birinci dəfə görürəm ki, adam sevdiyi qadına baxanda qulaqları şeşələnir. Ay, ay, bu dünyanın nə qədər sirri var?!

– Bəsdir, Seymur, xahiş eləyirəm! Sən ona tərəf baxma... İndi burda adam kimi oxu görüm, necə oxuyursan. Xoşuna gələrmi – deyirəm – o yaxınlaşsın sənə, saksafonu qaldırıb çırpsın royala?!

Həə, deyəsən bu sözlər Seymura kar elədi. Eh, o az qalır bu royalın başına and içsin, qarşısında diz çöküb dua eləsin, tozunu da öz əllərilə silir, heç kökləyici ustanı da təkbaşına royala buraxmır.

Dənizçilər klubunun direktorluğuna iki il yalvarandan sonra köhnə, "əlil" royalın yerinə bunu almışıq. Özü də təsadüfən! "Beker" almaq zarafat deyil. Klub təmir olunanacan royalı neft institutunun akt zalına qoymağa icazə verdilər – açmamaq şərtilə...

Seymur qaşqabağını salladı.

– Sən nə danışırsan? Saksafonu royalın qapağına çırpmaq?!

Nəyə görə?.. Sən niyə durmusan? Başla görək!

Uşaqlar bir-birinə baxır, heç kəs dinib-danışmır, gözlərini püpitrdən çəkmirlər – əlbəttə, təkcə Borisdən başqa.

O, elə ilk taktdan başlamış dəf çubuqlarını götürüb qırağa qoydu...

Bəs mənim fikrim hardaydı, niyə belə gec hiss elədim? "De, məni sevdiyini de". Aha, bu da mənim sevdiyim mahnı... Əvvəlcə Adil, onun dalınca saksafon, bir də baritonlar, sonra da trubalar ən yüksək not götürməyə başladılar. Yaxşıdı, lap yaxşıdı. Bax belə!

Litavrlar necə də yerində səsləndi. Bu nədir belə? Niyə? Niyə hamı birdən-birə yoxa çıxdı, özü də növbə ilə, elə bil sözləşmişdilər.

Heç kəs yoxdu... Səhnədə təkcə mənəm, bir də orkestr. Bir səslə, bir nəfəslə dillənən orkestr...

...De, məni sevdiyini de! Məni sevdiyini de!..

* * * – Siz yaxşı oxuyursunuz!.. – Səsində heyranlıqdan heç bir əsərəlamət yoxdur, təkcə heyrət var səsində. Diqqətlə baxır, daha doğrusu, məni təpədən dırnağa gözdən keçirir. – Mənə demişdilər sizin haqqınızda, amma, düzü, o qədər də inanmamışdım.

“Bilirsən nə var? Rədd ol! Sənin inanıb-inanmamağının mənə heç bir isti-soyuğu yoxdur!..” Ona baxa-baxa elə belə, başımı tərpətdim, məhrəbanı və köynəyimi götürüb duşxanaya getdim. Elə tərləmişdim ki, bütün paltarlarım canıma yapışmışdı. Yenə də isti su yoxdur. Yuyunub, paltarımı dəyişdim, özümə gəldim – sən demə, rahatlanıb özünə gəlməsi üçün insana çox şey lazım deyilmiş. Adil duşxananın qapısını açıb məni çağırdı:

P ü p i t r – üzərinə not və kitab qoymaq üçün ştativ – Nə oldu, yatıbsan? Bizim keçmiş qonşumuz, deyəsən, yaxşı adam imiş... Tez gedək, Seymur işləri korlamasa yaxşıdır.

– Yox, Seymur işləri korlamaz; elə bil min kilometrlik məsafədən iy çəkir, nəyin sərfəli olub-olmamasını həssaslıqla duyur. Həm öz xeyrinə, həm də bizim hamımızın xeyrinə; guya qonağa könülsüz qulaq asır, amma əslində bircə kəlməni, bircə sözü belə ötürməz...

– Mən sizi başa düşmürəm, uşaqlar? Məncə, dediklərim ürəyinizdən olmalıdı. Sizin üçün hər cür şərait yaradacaqlar, özünüz də professional kimi bizim filarmoniyanın adından çıxış edəcəksiniz.

İki ay qazancınız da pis olmaz. Hər gün iki-üç konsert verəcəksiniz?

Kim istəməz bunu?..

– Gündə iki dəfə? Əldən düşərik, yoldaş Tağıyev!

Seymur bu sözləri elə səmimi dedi ki, mən də inandım.

– Mümkün olsa çalışarıq ki, bunu nəzərə alıb sizin haqqınızı ştat yarımdan ödəsinlər.

– Qanun buna yol verirmi? – Əgər Seymur qanuna keçdisə, demək, bu işin yönünə düşəcəyinə şübhə eləmir.

– Soçi, Qaqra, Yalta.. Ən yaxşı konsert-estrada meydançaları!

Bundan artıq nə olsun? Hələ Pitsunda!.. Hələ təbiət!

– Təbiət? – Seymur elə təəccübləndi ki, guya bu sözü birinci dəfə eşidirdi. – Hə-ə, aydındı... Bizim hamilik konsertlərimiz də olacaq?

– Seymur narahatlıqla soruşdu.

– Əşi, heç dəxli var?! Həddini aşır, lap ağ eləyir bu Seymur...

Yoldaş Tağıyev isə, onun dediyinə məhəl qoymadan, öz işindədi – təmkinlə, ağır-ağır öz sözünü deyir:

– Əlbəttə... Bir neçə belə konsert verməlisiniz. Zavodlarda, ya da başqa müəssisələrdə... Gərək ki, bunun elə bir çətinliyi olmasın, – o, sözünə ara verib bizi bir-bir gözdən keçirtdi, gözlərini mənə zilləyəndə razılıqla başımı tərpətdim. – Klubun rəhbərliyi ilə bağlı hər nə sözünüz olsa, bizə xəbər verin, filarmoniya onlarla dil tapmağa çalışar.

– Lazım deyil, – Seymur bu dəfə tələm-tələsik dilləndi. – Özümüz dil taparıq. Yayda biz boş oluruq.

Yayda da, payızda da, ilin qalan vaxtlarında da!.. “Yoldaş Tağıyev, əgər siz bu məsələ ilə bağlı klubun rəhbərliyinə müraciət etsəniz, onlar ürəkdən razılıq verər, hətta sizə təşəkkür də eləyərlər”.

– Lap yaxşı! – Demək belə, razılığa gəldik, heç bir qarışıq məsələmiz qalmadı.

O, nədənsə, üzünü mənə tutub son sözlərini dedi. Cibindən dəsmalını çıxarıb tərini sildi. Kişi qan-tərə batmışdı. – Seymurla söhbət eləmək o qədər də asan deyildi. Mamır rənginə çalan dəsmalın yekəliyinə bax! Bataqlıq zonasında bu dəsmala bürünüb gizlənsən, heç bir uzaqgörən snayper də sənin itiyini tapa bilməz.

Seymur kişini qapıya qədər ötürdü, dəhlizin o başına çatmasını gözlədi, sonra qapını möhkəm örtüb bizə sarı döndü, amiranə səslə:

– Düzlənin! Bax, belə! – dedi – Mən bu günü çoxdan gözləyirdim, axır ki, gəlib çatdı! Bu günün şərəfinə boğazımızı yaşlamalıyıq.

Gətirin görək! – Özü bir onluq çıxarıb stolun üstünə atdı...

Hamı çıxıb getmişdi, amma binanın girəcəyində qızlar gözə dəyirdi. Seymur mənim böyrümü dümsüklədi – elədir ki, var, bayaqkı "sarı geyimli qız", əlində bir dəstə çiçək vurnuxa-vurnuxa qalmışdı. Deyəsən, qız mənə baxırdı; amma mən özümü o yerə qoymadım, Seymurun qoluna girib guya şirin-şirin söhbət eləyirdim, guya heç nə görmürdüm, heç nə eşitmirdim – elə beləcə yanından keçib getdik. Adil əlüstü qulaqlarını şəklədi, heyrətlə, ağzının suyu axa-axa qıza sarı boylandı.

Seymur ayaq s axlamadan ona dedi:

– Yolunu azma, hə, "Göy göl"də səni gözləyirik.

İkicə kvartaldan sonra o, bizim dalımızca gəlib çatdı.

Səssiz-səmirsiz yanımızca gedirdi. Qorxurdum ki, Seymur yenə başlayacaq onu ələ salmağa, şükür Allaha, gözlədiyim kimi olmadı.

Adil nə üçünsə kədərli idi; ümumiyyətlə, onun ağlamağını təsəvvürümə gətirə bilməsəm də, bir anlığa mənə elə gəldi ki, indicə ağlayacaq.

Düzünə qalsa, kədərdən daha çox onun üzündən inciklik yağırdı... Birdən yadıma düşdü ki, neçə il bundan əvvəl, dördüncü sinifdə oxuyanda Adili bu sifətdə görmüşdüm.

Yay tətili başlayan günü biz bərbərxanada başımızı dibindən qırxdırıb əvvəlcədən danışdığımız kimi, hamımız "Rote fane" parkına yığışdıq. Tramvay yolundan parka doğru piyada getdik. Qarşıdan üç bığlı cavan oğlan gəlirdi; yanımızdan keçəndə gözlənilmədən dayandılar, bizi çağırdılar. O dəqiqə hiss elədim ki, nə isə, xoşagəlməz bir şey olacaq, dayandığım yerdən tərpənmədim. Adilə dedim ki, getməsin, o, heyrətlə mənim üzümə baxdı – necə yəni getməyim,

axı çağırırlar... Onlardan biri siqaretini sümürüb dərindən nəfəs aldı, tüstünü Adikin üzünə püflədi, sonra heç özüm də bilmədim o nə eləmək istəyir; bir də onu gördüm ki, siqaret kötüyünü Adikin tərdən və odekolondan işım-işım işıldayan təpəsinin ortasına dayadı, baş barmağı ilə necə basdısa, hətta beş addımlıqdan sönən siqaretin cızıltısını eşitdim. Bizə baxa-baxa üçü də birdən uğunub getdi. Hətta biri o qədər güldü ki, yıxılacağından qorxub çöməldi.

Biz qaçdıq.

Adik gözünün yaşını silə-silə dedi ki, böyüyəndə, necə olursa olsun, bir gün bu xuliqanların dərsini verəcək. Başının ortasında ağ ləkə ömürlük qaldı, indi də ordan tük bitmir.

Mən bunu biz əsgərlikdə olanda, başımız qırxılandan sonra bildim...

“Sarı geyimli qız” da bu yandan. Eh, rəqs meydançalarında belə qızlar çoxdur.

Mən ayaq saxladım, Adilin qoluna girib:

– Doğrudanmı, Tağıyev yoldaş bizi aldatmır, hə? – deyə soruşdum.

– Adama yuxu kimi gəlir!

– Hə... Bu gün bəxtimiz gətirdi, – Adil gümrah səslə cavab verdi.

Saat on ikiyə az qalmışdı, gec olduğundan bizi restorana buraxmadılar.

Seymur qapıçıdan xahiş elədi ki, bircə dəqiqəliyə içəri keçməyə ona icazə versin. Keçib getdi, restoran orkestrinin pianoçusu Məmməd Əliyevlə bərabər tezcə də qayıtdı. O, bizim hamımızı, içəri ötürdü, hələ üstəlik, qapıçını məzəmmət elədi: – “Ay yoldaş, yaxşı adamları görən kimi gərək tanıyasan...” Bizə yer tapdı, ofisiantı çağırdı, sonra da səhnəyə çıxıb royal arxasında əyləşdi, elan elədi ki, “musiqiçi-həmkarlarının şərəfinə” Emin Sabitoğlunun “Kəpənək” mahnısı oxunacaq. Bu, bizə qarşı laqeydlik göstərən qapıçının bostanına daş atmaq idi. Vitka Vladimirov çıxıb oxumağa başladı. Elə əsl restoran müğənnisi idi... Mən Vitkanı çox görmüşdüm. Aramızda yaş fərqi olduğundan indiyə kimi tanış deyildik; o, “Vətən” kinoteatrında seanslar başlamazdan əvvəl çıxıb oxuyardı. O zaman Vitka ad qazanmışdı, hamı bir ağızdan deyirdi ki, onun böyük gələcəyi var. Məmməd Əliyev də həmin kinoteatrda ksilofon çalardı, onun ifasında Montinin “Çardaş”ı çox

sevilərdi. Birdən ağlıma gəldi ki, gör neçə ildir heç yerdə ksilofon çalan görmürəm, bəlkə də moddan düşüb...

Mahnı oxunub qurtaranda Məmməd Əliyev də elan elədi ki, orkestrin çıxışı sona çatdı. Zaldakılarla birlikdə biz hamımız əl çaldıq, alqışların arası kəsilmək bilmirdi, xüsusən, baş tərəfinə kiçik bayraq sancılmış uzun stol arxasındakı turistlər əl çalmaqdan doymurdular; o kiçik bayraq olmasa belə, onların ADR-dən gəldiyini əlüstü güman eləyirdim, çünki alman turistlərini hər yerdə beləcə ürəkdən əl çalan görmüşdüm. Musiqiçilər səhnədən düşüb paltarlarını dəyişdilər, sonra bizim yanımıza gəldilər, bir stol da çəkib gətirdilər, hamısı yerbəyer oldu. Onlar dedilər ki, bizim gəlişimiz lap yerinə düşüb, hamısının ürəyindən olub, odur ki, bizim şərəfimizə qonaqlığın haqq-hesabını da öz boyunlarına götürdülər.

O qədər danışdıq, o qədər oturduq ki, zalda bizdən savayı heç kəs qalmadı, ofisiantlar bütün süfrələri, qab-qacaqları yığışdırıb qurtardılar.

Mən, bir qayda olaraq, az içdiyimdən birdən elə bil boğazım tutulur, bir damcını belə uda bilmirəm... Eşidəndə ki, Vitka bu yay hər şeyin başını buraxıb vokalla ciddi məşğul olacaq, nədənsə kədərləndim. Yetər, deyir, əsl sənətlə məşğul olmaq vaxtı çatıb.

Yəqin ona elə gəlir ki, nə zamansa bu səslə, bu oxumaqla bir yana çıxacaq...

Sonra məclisin söz-söhbətini tamam unutdum, heç kəsə qulaq asmadım, çünki keçmiş qonşumuzun bugünkü gəlişini xatırlamağa başladım... İstədim özümü ələ alam, məclisdə deyilənlərə qulaq asam – heç nə çıxmadı. Fikir-xəyal məni sadəlövh uşaq kimi yaman alıb aparmışdı. “Görəsən nə çıxacaq bu qastrol söhbətindən? Birdən baş tutmadı? Nə olsun ki?.. Axı mən uşaq deyiləm, uşaqlığım çoxdan arxada qalıb; yaxşı dərk eləyirəm ki, biz nə ilə məşğul oluruq, nə iş görürük, özü də hansı səviyyədə – özfəaliyyət, yoxsa professional səviyyəsində. Bu gün institutların birində çalırıq, sabah hər hansı bir müəssisədə çıxış eləyirik... Keçən həftə bizi politexnik institutuna dəvət etdilər, istirahət gecəsinə, alətlərimizi təzəcə çıxarıb nizamlayırdıq ki, klub müdiri gəlib çıxdı, bəs, gərək bağışlayasınız, bizə belə musiqi, yəni estrada, nə bilim nə, lazım deyil... Əlbəttə, rektorun istədiyi musiqiyə qulaq asmağa haqqı var, çünki o rektordu, amma biz pis vəziyyətdə qaldıq; axı, foyedən keçib getmək konsertin baş tutmaması ilə bağlı tələbələrin sorğu- suallarına cavab vermək, sonra da, axşamdan yola saldığımız avtobusumuzun əvəzinə, yağış altında münasib minik axtarmaq – kontrabası, akkordeonu taksiyə necə yerləşdirəsən – o qədər də asan deyil... Doğrudanmı, Tağıyev yoldaş bizi aldatmır? “Yoldaş Tağıyev, bizi aldatmaq yaxşı deyil, sizə nə verəcək bizi aldatmaq?!” Axırıncı sözü uğurlarımızın şərəfinə dedilər özü də hamısı əlini stola vura-vura; hətta Seymur əlini stolun altına uzadıb laklanmayan yeri elə ustalıqla döyəclədi ki...

Biz küçəyə çıxanda saat ikinin yarısı idi.

Gecə yarısı olsa da, yanımızdan elə hey minik maşınları ötüb keçirdi. Sən demə, bayaqdan yağış yağırmış, havada qəribə bir ətir var idi, – akasiya ətri, yamyaşıl ot ətri... Qız qalasının yanında Adillə mən uşaqlardan ayrıldıq, çox təkid eləsələr də, sahil gəzintisinə çıxmağa razılıq vermədik, on dəqiqədən sonra bizim həyətin astanasına çatdıq.

Həyətə girəndə Adil məndən soruşdu:

– Yorğun deyilsən ki?.. Sizdə bir az oturub söhbət eləyək. Nə isə, heç evə getmək istəmirəm.

– Lap yaxşı olar! – Doğrudan da, mən hələ yatmaq istəmirdim.

Pilləkənin qurtaracağındakı balaca meydança qaranlıq idi, evin girəcəyində, bir də mətbəxdə işıq yanırdı. Elə astanadaca hiss elədim ki, necə deyərlər, bu evdə hələ də həyat qaynayır. Mənim qonşumun – şəfqət bacısı Aidanın otağından gur musiqi səsi gəlirdi – Müslüm Maqomayevin oxuduğu populyar mahnılar, vanna otağından suyun şırıltısı, bir də anlaşılmaz səslər eşidilirdi, o yanda gurhagurla qaynayan, lüləyindən fit verən çaydanın qaraqışqırığı mətbəxi başına götürmüşdü.

İkicə otaqdan səs gəlirdi, bir mənimkindən, bir də üçüncü qonşumuz, “suda-quruda yaşayan” – on gün Neft daşlarında, on gün şəhərdə – neftçi-mühəndis Elmar Səmədovun otağından.

Bizim gəlişimizlə səs-küy bir az azaldı; Adil vanna otağının yanından mətbəxə keçdi, qaraqışqırıqçı çaydanın səsi kəsdi, vanna otağına da birdən-birə sükut çökdü, Müslüm də lap astadan, pıçıltı ilə “Toy” mahnısını bitirdi...

Bir-iki dəqiqədən sonra Aidanın bayıra çıxacağını gözləmək olardı; bu bir-iki dəqiqə əynini geymək, bir balaca pudralanmaq üçün ona bəs eləyərdi. Biz asanca ondan qaçıb gizlənə bilərdik, əgər... Birdən, gözlənilmədən vanna otağının qapısı ağzında bir adam peyda oldu; yuyulmuş başını nədənsə, mənim məhrəbamla silirdi. Bizimlə çox səmimi salamlaşdı, kefimizi-əhvalımızı soruşdu, sonra da təkidlə bizi evə dəvət elədi.

– Sağ olun, – dedi Adik. – Gecdi, öz evimizə...

– Bu nə sözdü? – cavan oğlan heyrətlə dilləndi; amma onu da deyim ki, mehribanlığı, özünü qonaqpərvər kimi göstərməsi təbii çıxırdı. Yaxın gəlib dedi ki, onun adı Səməddir, biz də adımızı dedik. O, əl çəkmək istəmirdi, bizi yenidən evə çağıranda Adik də yenidən etiraz elədi.

– Neyləmək olar – təzə qonşumuzun səsində məyusluq vardı, – belə çıxır ki, məni özünüzə tay saymırsınız, elə deyilmi?

Adik ikicə-üçcə kəlmə ilə Səmədi bu fikrindən ustalıqla yayındırdı.

Səmədin üzü yenidən işıqlandı; gülümsəyə-gülümsəyə dedi ki, taksidə işləyir, ikinci parkda, özü də təkcə işləyir – "naparniki" – elə beləcə də dedi – yoxdur, köməksiz-arxasız olduğundan hər şeyi öz əlləri ilə qazanıb.

Əmim Bakıdan Tbilisiyə köçəndən bəri bu evdə altı il ərzində məni cəmi üçcə adamla tanış eləmişdilər – iki həkimlə, bir "medbratla"...

Birinci dəfə idi ki, taksiçi görürdüm.

– Sənə məktub, bir də pul kağızı gəlib. – Aida üzünü mənə sarı çevirib könülsüz-könülsüz dilləndi. – Sən də otağa keç, – bunu da Səmədə dedi, özü də yumşaq səslə dedi.

Aida, həmişə olduğu kimi, təmkinli idi. O, "Karmen" pudrası ilə, bir də iyinə çoxdan alışdığımız ətirlə sığallanardı, amma bu dəfə ondan anlaşılmaz, sərt bir ətir də gəlirdi. Mən hiss elətdirmədən azca geri çəkildim, amma deyəsən başa düşdü.

– Bunlar mənim dostlarımdır! – Səməd bizi göstərdi. – Uşaqlar, – dedi, – sizin xətrinizə dəyən olsa, kim olur-olsun, mənə xəbər verin. Mən sizin hayıfınızı...

– Gedək! – dedi Aida.

– Mən onlarsız heç yana gedən deyiləm. İstəyirəm onlar bizlə otursunlar.

– Onlarsız da keçinərsən, – Aida hirslə dilləndi.

– Onlar bizimlə getməsələr, mən, bax, bura, döşəməyə uzanıb yatacağam. Sənsə... hara istəyirsən get!

– Yaxşı, bir dəqiqəliyə keçək sizin evə, – tez-tələsik dedim ki, Aida cavab verməyə macal tapmasın. – Sən ki, görürsən, – deyəsən, səsimdə bir az yaltaqlıq da vardı, həm də Səmədin ürəkaçıqlığından xoşum gəlmişdi. – Bizim dostumuzun... bir az o məsələ... kefi kökdü. Olan işdi, kimin başına gəlmir ki?..

Biz onun qolundan tutub otağa apardıq, altına stul çəkdik.

– Əyləşin, – dedi Aida, – gəlibsiniz, heç olmasa, bir stəkan çay için.

Üçlükdə əyləşib çay içməyə başladıq. Səməd getdikcə xumarlanırdı, onu ehmalca yataq otağına apardıq, çarpayıya uzatdıq. Əgər dünyada dördadamlıq deyilən bir çarpayı vardısa, burda, mənim əmimin keçmiş iş otağında olmalı idi. Səmədi rahatlayan kimi birdənbirə ağlıma gəldi ki, əmim öləndən sonra birinci dəfədi bu otağa baş çəkirəm. Oboyları, pərdələri, mebelləri dəyişiblər... Köhnələrdən bəzi şeylər qalıb – nənəmin sandığı, Holland sobası... Yadıma düşdü ki, Aidanın keçmiş əri – bu otağı ona vermişdilər – sandığı aparmağı mənə təklif eləmişdi, mən, doğrudan da, nənəmin yadigarını istəyirdim, sonra, necə oldusa, unutdum, sonra da əsgərliyə getdim.

Aida, tanımadığımız bir baş həkimin kobudluğundan, savadsızlığından, geriliyindən, belə həkimlə işləməyin ziyalıdan ötrü necə böyük müsibət olmasından danışırdı, mən də Adillə ona qulaq asaasa, gözümü sandıqdan çəkə bilmirdim. İndi sandığın ağzı açıq idi, amma o zamanlar heç vaxt üstündən mis qıfıl əskik olmazdı, nənəm o qıfılın açarını heç kəsə etibar eləməzdi. Üstü kvadrat şəkilli, naxışlı döymə ilə bəzədilmişdi, hər kvadratı iri mis zolaqlar doğrayıb keçirdi, qara-qəhvəyi ağac bəzəmələri də ona xüsusi yaraşıq verirdi.

Əvvəllər sandığın üstünə qiymətli ulduz naxışlar vurulubmuş. Mən onları görməmişdim, nənəm mənə danışırdı, deyərdi ki, müharibə vaxtı hər ay iki ulduz qoparırmış sandıqdan, birini kiçik oğlunun – mənim babamın – ailəsinə verərmiş, o birini isə cəbhəyə, mənim atama göndərmək üçün yemək şeylərinə dəyişərmiş.

Mən, ağlım kəsəndən nənəmi qocalmış, əldən düşmüş görmüşdüm, gərək ki, məni çox istəyirmiş. Nənəm deyərdi ki, mən ildənilə babama daha çox oxşayıram, əmimin arvadı Mənzər xanım ona etiraz edərdi; gülümsünüb deyərdi ki, nənən səhv eləyir, babanla sənin heç bir oxşarlığın yoxdur, həm də ona görə ki, baban çox qüdrətli, halal adam olub...

Direktorun bizim sinfimizə girdiyi günü mən yaxşı xatırlayıram, bəlkə də ona görə ki, Validə Gerasimovnanın dediyi kimi, həmin anda lövhə qabağında dayanıb solfeciodan cavab vermək istəyir- dim. Əslində, o gün ikinci rübdə ikinci "iki"ni almağa hazır idim; Vitka Blankfeldin cavab verib qurtarmasını gözləyirdim ki, bilmədiyimi boynuma alam, elə həmin andaca direktor gəlib çıxdı. Onun gəlişinə yaman sevindim, amma sonra pərt oldum: direktor məni dəhlizə çıxardı, dedi ki, tez evə getməliyəm, çünki babam zəng vurub, nənəmin vəziyyətinin xarablaşdığını xəbər verib...

Həyətdə Adilə rast gəldim, o, ikinci növbədə oxuyurdu, nə üçünsə yamanca qorxmuşdu. Biz otağa keçdik, indi oturduğumuza yox, mənim yaşadığıma yox, sonradan üçüncü qonşuya verilmiş otağa.

Nənəm səssiz-səmirsiz çarpayıda uzanmışdı, əmimlə arvadı, bir də Adilin anası yan-yanaşı oturmuşdular, ondan gözlərini çəkmirdilər.

– Şükür Allaha, gəlib çıxdı, – mən otağa girəndə əmim belə dedi.

Əmim məni nənəmin yanına apardı, o da gözucu işarə elədi ki, yanında əyləşim. Güclə üzümə gülümsündü, beləcə, sakitcə gülümsünə- gülümsünə başladı mənə baxmağa. Mən heyrətimdən yerimdə donub qaldım; axı, o, səhər yaxşı idi, məni yuxudan oyadıb çay-çörək vermişdi. O, mənə baxa-baxa hey gülümsünürdü, sonra lap yavaşdan danışdı; otaqda elə sakitlik idi ki, pıçıltı ilə dediyi söz aydınca eşidilirdi.

– Qorxdum ki, sən gəlib çatmayasan...

Əmim bircə söz deyə bildi:

– Ana!..

Nənəm hələ də mənə baxmaqda idi.

– Mən səni elə görmək istəyirdim... Səndən yaman nigaranam.

Ona görə də nigaranlıq içində ölürəm. – Mən əyilib onun yanağından öpdüm. – Səni əminə tapşırıb gedirəm, hər ikinizi – Allaha.

O, gözlərini yumub susdu, uzun-uzadı susdu, mənə elə gəldi ki, nənəm yuxuya getdi, sonra gözlərini açıb fikirli-fikirli, öz-özünə danışırmış kimi dedi:

– Sən babana yaman oxşayırsan...

Nənəm sakitcə uzanıb mənə baxmaqda idi. Sonra Adilin anası məni otaqdan çıxartdı. Gecə onların evində qaldım. Adilin otağında mənim üçün özüaçılan çarpayı qoydular. Biz uzun-uzadı söhbət elədik. Gecə gözlənilmədən yuxudan oyandım, başladım nənəm haqda fikirləşməyə. Ancaq gecə başa düşdüm ki, niyə nənəm mənə elə baxırmış. O gecə mənə aydın oldu ki, nənəm məni hamıdan çox sevirmiş. Adilin anasının otağa nə vaxt gəldiyini heç bilmədim, aramsız, hönkür-hönkür ağladığıma görə yaman utandım. O, məni sakitləşdirmək istədi, başımı sığalladı, boynumu qucaqladı, sonra özü də ağladı...

Yuxudan oyananda utandığımdan heç kəsin üzünə baxmaq istəmirdim...

Sandığı açdılar, içindən, demək olar ki, heç nə çıxmadı. Bir qutu, içində iki nişan üzüyü, rəngarəng daşlarla bəzədilmiş iki üzük, bir də mirvari sapı... O qutu indi də xalamgildə qalır; sən demə, nənəm bütün bunları mənim gələcək həyat yoldaşım üçün qoruyub saxlayırmış.

Onları əmidostuma bağışlamaq istəyəndə, “sarsaqlama! – deyib yaman acıqlandı. Sandıqda bir də not kağızları, naftalin vurulmuş köhnə donlar, babamın paltarları və onun “konsert frakı” vardı...

– Nə olub? – deyə Aida soruşdu.

– Heç nə,– dedim, – hər şey öz qaydasındadı. Gözəl gecədi.

Çaya görə də sağ olun.

Biz ayağa qalxıb sağollaşdıq.

– Dayanın, – deyə Aida yataq otağının qapısına üsulluca işarə elədi, – bilmirəm, nə fikirləşəcəksiniz. Bu mənim lap yaxın qohumumdu, əmim oğludu...

– Bu nə sözdü? – dedi Adil. – Biz onu görən kimi başa düşdük, siz qardaşınıza yaman oxşayırsınız.

– Yox... o haranın qardaşıdı...

Mən başımı buladım.

– Heyif!.. – dedi, yarımtəəssüf, yarımincik.

– Əşi, sizi tanımaq olmur ki? – arxamızca deyilən bu sözdə azca şübhə yeri də var idi. – Yaxşı uşaqlarsınız, amma bircə artistliyiniz olmaya...

İkinci adam idi ki, bu gün bizə artist deyirdi, hardasa ürəyimizdən idi bu söz... Tağıyev yoldaş, bir də Aida. Görək sabah nə olacaq...

* * * Məktubla pulu əmim göndərmişdi. Pul, həmişə olduğu kimi, lap vaxtında gəlmişdi. Ayın axırına, daha doğrusu, doqquz günə cəmi iki manat neçə qəpiyim qalmışdı; bütün ehtiyaclarımı ödəmək, hətta yemək, telefon pulu, çox vacib olan bir cüt corab almaq – mənim yaşımda olan adamın cürbəcür əyləncələri üçün bu qəpik-quruşdan heç danışmağa dəyməzdi... İllər keçsə də, onun xətti heç dəyişilmirdi.

İri rəqəmlərlə, aydın, səliqəli hərflərlə – sözlə yazılmışdı:

“otuz manat”... Bu, o qədər də varlı olmayan yaşlı bir qohumun, əlindən heç nə gəlməyən, cavan, enerjili qardaşı oğluna köməyi idi.

Vicdan əzabı deyilən daxili narahatlığı əlüstü, çətinlik çəkmədən aradan qaldıra bildim – Adilin süzdüyü məxməri çaya baxa-baxa xəyala dalmaq, mənim parlaq gələcəyimi göz önündə canlandırmaq kifayət idi; – orda iki adam görünürdü – mənim taleyimdə əvəzsiz rol oynamış, indi, ömrün qürub çağında hər cür hörmətəizzətə layiq olan, amma məndən əllərini çoxdan üzmüş iki adam – əmim və onun həyat yoldaşı...

Biz, onların dəmlədiyi çayı sakitcə oturub içdiyimiz yerdə telefon zəng çaldı. Bəs niyə mənə? Axı orkestrdə məndən savayı altı adam var, bəs nə üçün Adilin çox xoşladığı o səfeh qız məhz məni dəng eləməli idi? Özümü tamam itirdim; təsəvvür edin ki, dəstəyi mənim yerimə Adil götürmüş olsaydı... Mən dəstəyi bütün gücümlə qulağıma sıxmışdım, amma elə bilirdim ki, onun səsi otağın

hər küncündə eşidilir; özümü ələ alıb Adilin üzünə baxdım, o, fikirli-fikirli rəngli jurnalın üz qabığını gözdən keçirirdi.

Dəstəkdən boş, mənasız sözlər eşidilirdi. Sayıqlama idi, sayıqlama!

“Mən sizə pərəstiş eləyirəm...”, “...günləri sayıram... ”, “...görəcəyimə ümidliyəm...” Ay axmaq qız, bircə təsəvvür edəydin ki, sənin ucbatından bir yaxşı insan necə pərt ola bilərdi.

Özü də elə əsəbi adam!..

– Necə ola bilər, – sərt, qəzəbli səslə soruşuram. – Bəyəm sizin tərbiyəçiniz başa salmır ki, gecə saat 3-də tanımadığınız adamın evinə zəng vurmaq yaxşı deyil?

– Nə? Tərbiyəçi kimdir?

– Uşaq evində – sizin böyüdüyünüz evdəki tərbiyəçini deyirəm, – susdu, deyəsən çaşbaş qalmışdı, söhbətin belə dəyişməsindən özünü itirdi.

– Bu nə sözdür? Mən heç vaxt uşaq evində olmamışam!

– Olmamısınız daha yaxşı! – Nifrətlə qışqırdım.

– Necə yəni “daha yaxşı?” – Hırıldayır.

Amma, qıza söz ola bilməz. Zərif, biçimli... heyif ki, hədsiz məğrur, həm də əlçatmazdı... Belə qız Adilə necə xoş gələ bilərdi?

– ...Əvvəla, konsert qurtaran kimi sizə zəng vurmuşam, siz dəstəyi götürmürsünüzsə, günahkar mənəm? İkincisi, biz tanışıq, özü də bilirsiniz kim...

Axı mən bilirəm, kim bizi tanış eləyib. Adil başını qaldırıb mənə baxdı. İlahi, bəlkə Adil doğrudan da hiss elədi ki, söhbət “sarı geyimli kadr”dan gedir?

– Bir də zəng vurmayın, bildiniz? Nə gündüz, nə gecə!

Dəstəyi yerə qoyandan sonra nə qədər çalışdımsa, Adilin üzünə baxa bilmədim. Belə zəngdən sonra... Zəngə bir bax...

– Kim idi? – Adil sakit, həyəcansız, bir az yuxulu səslə soruşur.

Şükür, heç nə başa düşmədi...

– Arxeoloqdu, – deyirəm, – elmlər doktorudur. Zəng vurub öyrənmək istəyir ki, mən ikinci, dördüncü günlər universitetdə mühazirə oxumağa razıyam, ya yox. Əl çəkmək istəmirdi. Sonrasını özün eşitdin.

Yenə Adilin ağzı qulağının dibinə getdi; mən nə eləsəm, nə desəm, onun ürəyindən olur...

Adil yarım saat da oturub söhbət elədi, sonra çıxıb getdi.

Mən açıq pəncərənin qabağında dayanıb onun arxasınca baxırdım; həyəti keçdi, pillələrlə qalxdı ikinci mərtəbəyə. Biz əsgərlikdə olandan bəri, həyətdə elə bir dəyişiklik gözə dəymir. Bir az ağacların boyu uzanıb, bir az da adamların. Təptəzə qonşular peyda olub, mən öz doğmaca həyətimdə heç də hamını tanımıram. Adil qapılarının astanasından mənə əl elədi. O da həmin mənzildə çoxdan yaşayır. Biz həmişə dost olmuşuq, lap uşaqlıqdan, özü də, indiyədək bir dəfə də olsun küsməmişik. Bu, heç şübhəsiz, Adilin hünəridir. Pəncərə önündə dayanıb fikirləşirəm, onu ilk dəfə gördüyümü yadıma salmaq istəyirəm; birdən mənə elə gəlir ki, aha, yadıma düşdü, sonra görürəm, yox, hər şey duman kimi çəkilib getdi... Gör üstündən neçə illər keçib. Adilin yaddaşı möhkəmdi, sabah ondan xəbər alaram. Yerimə uzandım, amma yuxum gəlmirdi.

Tağıyev yoldaş yenə gəlib durdu gözümün qabağında; fikirləşirdim, nə yaxşı olardı bütün bunlar bizdən yan keçsəydi... Düzünə qalsa, hər şeydən bezmişəm, belə yaşamaq yordu məni. Yenə Adillə ilk tanışlığımızı yada salmaq istədim, yenə bir şey çıxmadı.

Gözümə yuxu gedə-gedə düşünürdüm ki, insanın öz ömrünün müəyyən mərhələlərini unutması heç də insafdan deyil, həm də ona görə insafdan deyil ki, ömür o qədər də uzun olmur...

İkinci fəsil O, demək olar ki, hər axşam bizə gələrdi. Evimizdə qonaq olanda, nə qədər təkid eləsələr də, qonaq otağına girməzdi, mətbəxdəcə yeniliklərdən tələm-tələsik danışar, çıxıb gedərdi.

– Təbrik eləyirəm, – içəri girib üşümüş əllərini ovuşdura-ovuşdura dedi Validə, onun arıq sifəti elə bil işıqlanmışdı. – Alıbsan, yoxsa özün tikibsən? Gör necə yaraşır sənə! Dünya gözəlinə dönürsən!

– Sən nə danışırsan, Validə? – əmidostu gülümsündü. – Mən bunu dörd ildi geyinirəm.

– Demək, sənin bədəninin quruluşu gözəldi. Əsl qadın bədəni istənilən paltarda özünü göstərir. Yoxsa... mənə bax – eh... Nə arxadan, nə qabaqdan... Bədbəxtliyim burasındadı. – Əmidostum gözləri ilə məni göstərəndə Validə bunun da cavabını tapdı:

– Heç narahat olma! İndiki uşaqların hər şeydən başı çıxır, özü də, səndən, məndən yaxşı! Görürəm, həyətdə nə oyunlar çıxarırlar.

Lazım gəlsə – bizi öyrədə bilərlər.

– Sən öz otağına keçsən yaxşıdır, – əmidostum mənə deyirdi.

– Otaq soyuqdu, – əslində getmək istəmirdim, özümü elə göstərdim ki, guya musiqi dərsimlə məşğulam.

– Elə bura da isti deyil, – o, köksünü ötürdü. – Yaz gəlib, amma havalar qızmır ki, qızmır. Bəlkə çay içəsən?

– Sən narahat olma, – dedi Validə, – özüm dəmləyərəm. – O, bufetə yaxınlaşdı. – Mən hamıya deyirəm ki, əsl çay içməli yeganə bir ev varsa sənin evindi. Sən bilmirsən, camaat necə çay içir. Təzə xəbəri eşidibsən?

– Yox, nədir ki?..

– Təzə qonşular gəlib, Quliyevlərin evinə.

– Kimdilər?

– Ər-arvad, bir də oğlan uşağı. Uşaq, – məni göstərdi. – Mikayılla yaşıddı. Düzü, onlar mənim xoşuma gəlmir.

– Söhbətin olub onlarla?

– Elə belə, qarasına söz deyənəm mən? Gəldim, qapılarını döydüm, qadın açdı. Deyirəm: “Salam, mən sizin qonşunuzam” – “Salam, çox gözəl!” – amma özü qapının ağzını kəsdirib. “Elə qapının astanasından danışacağıq?” – deyirəm. Belə deyən kimi məni içəri buraxdı. Qadın kimi gözəgəlimlidi, amma sən hara, o hara?! Sonra kişisi göründü, qaraqabaq adama oxşayır. Neftçidir. Soruşdum, “qabaqca neçə otaqları olub?” – Bu yerdə arvadın dərdi açıldı.

“Dörd otağımız olub” – dedi. Əlüstü ər-arvad gizli-gizli baxışdılar, arvadın artıq-əskik danışmağı onları pərt elədi.

– Nəyə görə? Nə dedi ki?..

– Sənin də dünyadan xəbərin yoxdu. Heç dörd otağı üç otağa dəyişərlər?

– Yəqin onlara üstündə pul veriblər.

– Quliyevlər? – Validə güldü. – Analları ölmüşdü, onlar soymağa adam axtarırlar.

– Bəlkə bu rayon onların xoşuna gəlir?

– Onu da öyrənmişəm, – dedi Validə. – Onların rayonu bizimkindən də yaxşıdır – evləri düz Azneftlə üz-üzə olub. Ürəyimə damıb, burda nə isə var... Yenə deyirəm, onlar mənim xoşuma gəlmədilər.

Evi nəyə görə dəyişmələrinin səbəbini öyrənərəm, gözlə bir az.

– A Validə, de görüm, niyə başını ağrıdırsan?..

– Mən sizdən ötrü çalışıram. Yaxşı adamlardısa – qoy yaşasınlar, Allah onlara kömək olsun, birdən yaxşı adamlar olmadı, bəs onda?.. Eh, mən ölüb gedəndən sonra mənim yerimi çəkəcəksiniz.

Birinci dəfə Sənubəri görəndə nə dedim? Heç kəs də mənə inanmadı.

Bəs sonra? Tərbiyəsiz çıxdı? – Çıxdı!

– Mikayıl, – əmidostumun səsi gəldi, – keç öz otağına, yatmaq vaxtıdı.

– Hələ çayımı içməmişəm.

– Öz otağında içərsən.

Mən onlara “gecəniz xeyrə qalsın” dedim, əmidostunu öpdüm – hərdən bunsuz da keçinirdim, amma bu dəfə olmadı.

Validə də mənə “gecən xeyrə qalsın” – dedi, özü də köks ötürdü.

O məni görəndə həmişə içini çəkir. Bilirdim ki, otağıma keçəndən sonra mənim anamdan danışacaqdılar.

Qapını örtən kimi onlardan aralanmağıma sevindim. Onsuz da təkliyi çox xoşlayıram. Əvvəllər bu, atamın otağı idi. Atam öz qardaşına – əmimə yaman oxşayır. Onun da portreti mənim otağımdadı; kostyumlarının və fraklarının saxlandığı böyük sandıq tərəfdə divara vurulub. Mənim babam tanınmış bəstəkar olub. Oxuduğum məktəb də onun adını daşıyır. İndi iş elə gətirib ki, mən öz adımı daşıyan musiqi məktəbində təhsil alıram – hamısı uyğun gəlir, Famil də, ad da. Əvvəllər müəllimlər mənim adımı çəkəndə səksənirdilər, sonra yavaş-yavaş alışdılar. Bilmirəm, niyə məni bu məktəbə qoydular.

Nə olsun ki, babam bəstəkar olub. Musiqiçi olmaq istəmirəmsə, bu, mənim günahımdı? Ən çox xoşuma gələn bir fənn varsa – o da rəsmxətdir. Hələ üçüncüdə oxuyanda sinif divar qəzetini yazıb hazırlamağı mənə tapşırdılar, sonra da dördüncü sinifdə məktəb divar qəzetini... Rəsmxətdən həmişə “beş” alıram. Amma fortepianodan, yaxud solfeciodan bir “üç” qoparmaq üçün əldən düşürəm.

Xüsusən Baxdan xoşum gəlmir. Min dəfə demişəm ki, məni normal – hamının oxuduğu məktəbə keçirin, sözümü eşitmirlər. Əmim dedi ki, bu, atanın arzusu idi, o istəyib ki, babamın xatirinə mən də bəstəkar olum. Atam sağ olsaydı, hər şeyi ona başa salardım, əmimlə danışmağa dəyməz. Öz uşağı olsaydı, belə zülm çəkməyə razılıq verməzdi, kim bilir, bəlkə mənə də yazığı gəlir, o biri yandan da qardaşının arzusu...

Özgənin hesabına söz verməyə nə var ki... Özləri – nə atam, nə əmim musiqiçi olmaq istəməyiblər, amma məni məcbur eləyirlər.

Babamın şərəfinə! Babamın bura nə dəxli var?! Axı mən canlı adamam, niyə soruşmurlar ki, nə olmaq istəyirəm?

Əgər babam bəstəkar yox, dalğıc, ya da heyvan təlimçisi olsaydı, belə çıxır ki, məcbur eləyərdilər – günüm sularda keçərdi, məcbur eləyərdilər – itlərlə məşğul olardım. Düzünə qalsa, bunlar ürəyimdən olardı, nəinki o məktəbə ayaq döymək... Bir də, o yerdə bəxtim gətirmədi ki, imtahan verəndə dedilər: musiqi yaddaşıma söz ola bilməz!.. Bu il, üçüncü sinfə keçəndən sonra mənə "repetitor" da ayırdılar – konservatoriyanın üçüncü kursunda oxuyan Elmira xanımı.

Həftədə üç dəfə bizə gəlir. Belə deyib-güləndi! Şəkillərimi ona göstərirəm – çox bəyənir. Hərdən ikilikdə çalırıq, məncə, yaxşı alınır. O deyir ki, mənim az-çox qabiliyyətim var, amma dəhşətli tənbələm, yalançıyam; ilk günlər notları gizlədirdim, deyirdim yoxdu, itib, ona görə mən "tənbələm", "yalançıyam".

Əvvəllər də belə eləyərdim, bibim həmişə axtarardı, amma heyif ki, Elmiradan bu "nömrəm" keçmədi; elə ilk gündən dedi ki, əgər notları gətirməsən, həmişə aldatmaq yolunu tutsan, onda...

dilinə yara çıxacaq...

Mən yazı stolunun siyirtməsini çəkib piston qutusunu götürdüm.

Qutu ağzınacan xırda-xırda, yumru toxumlarla dolu idi, əmim onu pay vermişdi. Payız gətirib dedi ki, bunlar barama qurdunun toxumlarıdır, yazda bu toxumlardan balaca-balaca qurdlar törəyəcək, o qurdları ölməyə qoymasaq, axırda gözəl-göyçək kəpənəyə dönəcəklər. Payızda toxumlar sarımtıl rəngə çalırdı, indi isə bir az qaralmışdı. Hərdən fikirləşəndə ki, bu toxumlardan bir şey çıxmaz, yadıma bir əhvalat düşür. Ötən il əmim on beş yumru, baş soğana oxşar şeylər gətirdi, dedi ki, əgər bunları dayaz boşqaba qoyub üstünə də su töksən, zəfəran kimi çiçəkləyəcək.

Əvvəllər belələrini suya qoymuşdum, amma gül-çiçək əvəzinə yaşıl-yaşıl zoğlar göyərmişdi. Bir həftədən sonra yaşıl zoğlar baş qaldırdı, həmişə olduğu kimi, yavaş-yavaş böyüdü, sonra, günlərin bir günü...

Mən yuxulu-yuxulu hiss elədim ki, otaqda nə isə, zərif bir ətir var, düşündüm ki, bu ətir günəş şəfəqləri qarışıq, pəncərədən süzüb gəlir.

Stola sarı qaçdım, dumduru suda qıpqırmızı və narıncı örpəkcikləri işıq saçan solğun-qızılı çiçəklər gördüm. Hətta mənə elə gəldi ki, zəfəran çiçəkləri boşqabda asta-asta fırlanır... Yəqin gözüm alacalanmışdı. Amma hər halda, bu qəribə mənzərəni uzun müddət unuda bilmədim. Tez-tez yaxınlaşıb o çiçəkləri iyləyirdim, ancaq əvvəlki kimi heyrətlənmirdim.

Mən yuxumu əmidostuma danışanda inanmadı. Hələ indiyədək heç kəsin rəngli yuxu görmədiyini söylədi. Əmim də gülümsündü, dedi ki, mübahisənin yeri deyil, rəngli yuxuları ağıldan kəm adamlar görürlər...

Hər bazar səhər radionu açıram, doqquza on beş dəqiqə işləmiş yaxşı konsert verilir. Bir gün bir az gecikmişdim, konsert təzəcə başlamışdı. Kimsə Hersoqun ariyasını oxuyurdu. Bu yerdə Elmiranın içəri girməsindən heç xəbərim olmadı. Salamlaşdıq. Mən dedim:

– Gözəl oxuyur!

– Bilirsən kimdi oxuyan?

– Yox... Amma hər kimdisə, yaxşı müğənnidi.

“Yaxşı müğənnidi... Savadsız! Bu ki, Lemeşevdi! Hanı sənin musiqi yaddaşın?” Eh, “qulaq!” O, mənimlə məşğul olduğu ilk günlərdə dedim ki, mənim musiqi yaddaşım çox yaxşıdı, düz də demişdim, bunu çoxdan, qəbul imtahanlarından bilirdim; o isə hırıldayıb istehzalı-istehzalı baxdı:

“yaxşı qulaqların var”. Əmidostum Mənzərxanım lap məəttəl qaldı bu sözə, Elmiranın isə vecinə deyildi, elə gülümsünə-gülümsünə baxırdı. Mənim qulaqlarım doğrudan iridi... O vaxtdan bəri bir şey olan kimi ya danlayanda, ya da tərifləyəndə, fərqi yoxdur, elə hey “qulaq, qulaq” deyir.

Mən Leşqornun iki etüdünü çaldım, dördüncü gün mənə tapşırıq vermişdi, bircə dəfə çaşdım. Vay, vay, necə darıxdırıcıdı bu etüdlər, adamın ürəyi sıxılır. Deyəsən o da darıxdı, yoxsa gözlənilmədən deməzdi:

– Bəri bax, sən heç öz-özünə çalmısanmı? Yadında qalan melodiyanı...

Məktəbdə bunu bizə qadağan eləyiblər.

– Yox, – dedim, – heç çalmamışam. Nəyə görə!..

– Necə "nəyə görə?" Axı sən məşhur bəstəkar olmaq fikrindəsən...

Bu yerdə hirsləndim, dedim ki, istəmirəm, heç musiqiçi olmaq da istəmirəm.

– Birdən nənənin ad günündə qonaqlar bir şey çalmağı xahiş elədilər, onda necə?..

– Mənim nənəm yoxdur, ikisi də ölüb.

– Sənlə danışmaq mümkün deyil. Axı az-maz musiqi sənin xoşuna gəlir – mahnı, nə bilim nə...

– Əlbəttə...

– Baxdan başqa, eləmi? – bunu sözgəlişi dedi. – Axır vaxtlar təzə nəyə qulaq asıbsan?

– Bir vals çox xoşuma gəldi, – dedim, – "Siciliyanın göyləri altında" filmindən. Evdə də çaldım, çox sadə melodiyası var.

– Yox əşi?! Mənsiz? Gələn dəfə çalarsan. İndi də keçək Qedikeyə, onun əsərlərini çoxdandı çalmırıq.

Bu, Leşqorndan da maraqsızdı.

– Üz-gözünü elə turşudursan ki, elə bil zəhər içəcəksən...

Dərsdən sonra o mənə mandarin verdi, ikisini mənə verdi, birini özünə götürdü.

– Üçünü də sənə gətirmişdim, – dedi, – sonra... tamah güc gəldi.

Mandarini yeyib qurtarandan sonra içində barama qurdunun qara toxumları olan qutunu gətirib ona göstərmək istədim. Qutunu açdım, toxumların yerində qara, tüklü qurdlar gördüm, özü də, qutu açılan kimi hamısı başını yuxarı qaldırdı.

– Aha! Peyda olublar!..

– Nə deyirsən?

– Bir bax! – Mən qutunu ona uzatdım. Elmira cəld geri çəkildi.

– Rədd elə bunları!

– Bunlar barama qurdlarıdı!

– Nə olsun?! Mənə yaxın gətirmə. İndi sən onları yemləməlisən?

– Hə, tut yarpağı lazımdı.

– Hardan alacaqsan yarpağı, axı, hələ ağaclar yarpaqlamayıb.

Bunu eşidəndə özümü itirdim. Üstəlik, bu yerdə Mənzər xanım bizə yaxınlaşdı, yanında – tanımadığım qadın, onun da yanında – arıq bir oğlan uşağı...

– Tanış olun, – dedi, – təzə qonşumuzdu.

Mən Adili birinci dəfə belə görmüşəm.

Biz raysovetə tərəf qaçdıq, mən bilirdim ki, orda ağ, qara tut ağacları var. Bəlkə də poliklinikaya sarı qaçmaq daha əlverişli olardı – evimizə lap yaxın idi, amma ora, girəcəkdəki iri tut ağacına yaxınlaşmağa heç kəs cürət eləməzdi, çünki saqqallı, qorxunc bir kişi hər gün o ağaca söykənib dayanır. Bilmirəm bu kişi tut ağacını nəyə görə belə xoşlayır. Özü də səssizcə dayanıb durur. Bir sanitar onu hər gün ora gətirir, axşam da aparır. Düzdür, kişi dinib-danışmır, susur, amma sifətində vahiməli bir qəzəb var. Bəziləri kişini dilənçi sayır, güclə ovcuna pul qoyurdular, amma onlar uzaqlaşan kimi qəpiklər ovcundan asfaltın üstünə diyirlənirdi. Onun burda necə peyda olmasını heç kəs bilmirdi; kimi dəli sayırdı, kimi – "kontuj", hər nə isə, hamı ondan ehtiyat eləyirdi – böyüklər də, uşaqlar da...

Ağacda heç bir yarpaq da yox idi. Batdı qurdlar...

Bir də gördüm Adil ağaca dırmaşdı, mən də onun dalınca. O çıxırsa mənə nə olub, hər halda, qurdlara mən cavabdehəm.

Gördüm, o, yupyumru tumurcuqları qoparır.

– Bunları bıçaqla xırda-xırda doğrasaq, – deyir, – bəlkə də bir şey alınar.

Ağacdan təzəcə düşmüşdük ki, milisioner bizi yaxaladı.

– Utanmırsınız? Məktəbliyə bax, ağacı korlayır!..

– İpək qurdları üçün!.. – Adil onu başa salmaq istədi. – Çox lazımdı.

Deyəsən, bu milisioner "ipək qurdu" sözünü birinci dəfə eşidirdi, çünki bizi əlüstü buraxdı, üzündə də anlaşılmaz bir heyrət vardı...

– Axırıncı dəfə olsun! Bir də sizi burda görsəm, tutub aparacağam.

Mən elə bilirdim ki, qurdlar tumurcuğu yeməyəcək. Bıçaqla xırda-xırda doğradıq. Görən kimi bir cummaq cumdular!..

Əmim işdən qayıdandan sonra qurdlara baxmaq üçün mənim otağıma baş çəkdi.

– Görürsən, bilməməzlik hara gətirib çıxarır? İndi yadıma düşür; mənim dostum dedi ki, vaxtından qabaq qurdlar peyda olmasın deyə qutunu soyuq yerdə saxlamaq lazımdır.

– Eyibi yoxdu, – dedi Adil, – çətini bir neçə gün saxlamaqdı, sonra tut ağacları yarpaqlayacaq. – Adil bizi sakitləşdirmək istəyirdi, əmimlə elə danışırdı ki, elə bil çoxdan tanışdılar. Deyəsən o, əmimin xoşuna gəldi; cavab verməzdən əvvəl ona diqqətlə baxdı.

Elə bayaq, milisionerlərlə danışanda da hiss eləyirdim ki, Adil böyüklərlə tez dil tapır.

Adilgil bizim həyətimizə köçənə kimi mənim, demək olar ki, dostum yox idi. Deyəsən, günah not qovluğunda idi...

Axı bu adi qovluqlardandı; kartondan hazırlanmışdı, ipdən dəstəyi vardı, hər böyründə bir lira şəkli, toxunma bant, vəssalam... Hələ bir adam görməmişdim ki, bu qovluq əlimdə olanda yanımda ayaq saxlamasın. Nəyə görə? Bizim küçədə, əslində bütün rayonda yeganə adamam ki, əlimdə belə bir qovluq gəzdirirəm. Bir vaxt evdən çıxmamış notu qəzetə bükməyə başladım, gördüm yox, yaxşı nəticə vermir: məktəbə çatmamış kağızlar tamam əzilir, sonra da hamarlamaq üçün gərək onları püpitrə yapışdırasan. Bu qovluğun ucbatından, heç kəsə rast gəlməyim deyə evdən yarım saat tez çıxırdım.

Evdə bu haqda kəlmə də kəsmirdim. Adilə də lap tezdən, kəpənək qurdu üçün tumurcuq yığmağa gedəndə dedim. O mənim üzümə baxdı, baxdı, fikrə getdi, sonra da dedi ki, bütün bunlar boş şeydi...

Kəpənək qurdunu yemləyib məktəbə getdik. Onun anası bizi evimizin tininə kimi ötürdü – ordan o yana Adil anasına icazə vermirdi. Mən Adilin anasına söz verdim ki, küçəni ehtiyatla keçəcəyik.

Düzü, heyrətləndim; Adil uşaq deyil, dördüncü sinfə keçir, amma anası hələ də Adilin üstündə körpə kimi əsir. Mənə görə heç kəs, heç vaxt narahat olmur. Ata-anası evdə də onun qayğısına qalır, mehriban-mehriban danışdırırlar; bizim məhəllədə heç kəs uşağı bu dillə dindirməyib... Bütün bunlara baxmayaraq, Adil özünü asılı kimi aparmır, bir sözlə, ana uşağı deyil...

Adillə yanaşı gedirik, çox vaxt o danışır, mən də ora-bura boylana-boylana qulaq asıram, bilirəm ki, yenə kimsə gözünü qovluğa zilləyəcək. 18 nömrəli məktəbin qızlarından ikisi bizimlə üz-üzə gəldi, biri o birini dürtmələyib məni göstərdi...

İki kvartal da keçdik, tindən qarşımıza üç uşaq çıxdı, gərək ki, Adillə bir məktəbdə oxuyurlar, dördüncü sinifdə. Bir ay bundan əvvəl, onlar bax, buradaca mənim qabağımı kəsib qovluğumu əlimdən aldılar. Qovluqdan əl çəkmək istəmirdim, mən onların üstünə cumduqca, bir-birinə ötürürdülər, sonra dayandım, lap özümdən də, qovluqdan da zəhləm getdi. Dayanmağım onların xoşuna gəlmədi, yaxınlaşıb növbə ilə hərəsi bir dəfə boynumun ardına ilişdirdilər, sonra da qovluğu açıb not kağızlarını asfaltın üstünə səpələdilər, mən kağızları qovluğun arasına yığdıqca uğunub getdilər...

...Onlar da bizi gördülər, gülümsündülər. Adilə deyəndə ki, gəl, onlar bizə çatmamış əkilək burdan, o, əməlli-başlı heyrətləndi...

Mən də heç bilmədim ona nə cavab verim, heç cavab verməyə də vaxt yox idi. Bizə yaxınlaşdılar, elə yeriyirdilər ki, guya yanımızdan ötüb keçəcəkdilər. Birdən... onlardan ən uzununun yerindən götürülməyi ilə qovluğu mənim əlimdən almağı bir oldu, yaxşı ki, tez buraxdım, yoxsa dəstəyi üzüləcəkdi.

Adil arxayın-arxayın dilləndi:

– Kötək yemək istəyirsən?

Uzun – adı Aslandı, özü də başçılarıdı deyəsən – qovluğu açırdı, əl saxlayıb başını qaldırdı.

– Kimdən? Səndən?

Adil ona yaxınlaşdı, qovluğu əlindən alıb mənə verdi.

– Gedək, – dedi.

Elə bu yerdə üçü birdən onun üstünə cumdu. Düzünü deyim ki, mən əlüstü aradan çıxmaq istədim, amma Adili tək qoymaq olmazdı.

Mən yüyürdüm Aslanın üstünə, gücüm çatdıqca kurtkasından geri dartdım. Qorxum-hürküm tamam keçdi – elə bil buna bənd imiş.

Mən indiyədək heç vaxt dalaşmamışdım, yoxsa, əlbəttə, belə hərəkətə yol verməzdim... Birdən-birə dəli kimi qışqırıb Aslanın qulağını elə dişlədim ki, əlüstü dayandılar, aralanıb heyrətlə mənə baxdılar... Qulağını sığallaya-sığallaya o da susurdu, yamanca qorxmuşdu deyəsən. Barmağında qan görəndə rəngi ağappaq ağardı.

Adil əyilib qovluğu yerdən götürdü, mənə uzatdı, biz dinməzsöyləməz yolumuza düzəldik. Sakitcə durub arxamızca baxırdılar.

O gün məktəbə getmədim. Mənim iki, Adilin üç manatı var idi, kinoya iki bilet almağa bəs eləyirdi. Azı bir saat şəhəri gəzib dolaşdıq, çünki "Bakı kommunası"nda birinci seans saat onda başlayırdı.

Qorxurdum ki, it kimi adam dişləməyimi Adil üzümə çəksin, amma bu haqda kəlmə də kəsmədi. Dedi ki, atası bizi bazar günü fransız güləşinə aparacaq. Bu güləş, boks qədər olmasa da, hər halda, maraqlıdı. Pavel Perekrestlə Frenk Qud güləşəcək. Elə o anda biz qırmızıyanaq, maykalı nəhəng bir kişinin şəkli vurulmuş dəmir qurğunun yanından keçirdik. Çiynindən üstü medallarla bəzədilmiş lent aşırılmışdı. Dəmir qurğunun altında yazılmışdı: "Pavel Perekrest şəhərimizə gəlib". Belə şəkillər şəhərin hər yerinə vurulmuşdu. Adil dedi ki, Pavel Perekrest Quddan hayıfını çıxmaq istəyir. Onun rəqibi zəncidi, özü də güləşçi-boksçudu. Sevindim ki, birinci dəfə öz gözümlə zənci görəcəyəm... Evimizə çathaçatda Adil gözlənilməz bir sual verdi; Aslanı dişləmək hardan ağlıma gəlib? Ona baxdım, gördüm gülümsünür, mən də qəhqəhə çəkdim. Qəribədir, qovluğun qoltuğumda olmağı bayaqdan heç ağlıma gəlməmişdi, halbuki həmişə yola çıxanda fikrim-zikrim onun yanında qalırdı...

Adilgilə getdik, anası elə sevindi ki, elə bildim Adil məktəbdən yox, hardansa, çox qorxulu bir səfərdən qayıdıb gəlir. Yalan olmasın, beş dəfə öpdü üzündən, sonra özündən aralayıb bir də baxdı, bir də öpdü. Məni də mehribanlıqla qarşıladı, çay-çörək təklif elədi. Mən razılığımı bildirib çıxdım, çünki Elmira indicə gəlməli idi, gecikəndə acıqlanırdı. Ürəyimə dammışdı, içəri girən kimi vals çalmağı öyrənib-öyrənmədiyimi soruşacaqdı. Elə də oldu. Valsı çalanda dedi ki, sinkoplu musiqinin sənin xoşuna gəldiyinə şübhəm yox idi... Mən də əlavə elədim ki, bu valsı sinkopla Pevznerin kvarteti ifa eləyir, hətta onların çalğısı kinodakından daha çox xoşuma gəlir... Sonra Leşqornın əsərini, bir də Bramsın iki pyesini çaldım.

Elmira razı qaldı. Xahiş elədi ki, gələn dəfəyə özüm bir şey fikirləşim, bir şey yazım. Soruşdum, nə yazmaq olar?

– Etüddən simfoniyaya kimi – nə istəyirsən yaz! – Bilmirəm nə demək istəyir: Leşqorna qulaq asmaq onu da yorub...

O biri otaqda məndən əmidostuma razılıq elədiyini də eşitdim.

Sinkop – musiqidə vəzinin müntəzəm gedişini pozan ritmik fiqur Adil gəlib çıxdı, biz yarpaq dərməyə getməli idik. “Siciliya göyləri altında” filmindən valsı çalanda, onun gözləri heyrətdən böyümüşdü. Qurtaran kimi bir də çalmağı xahiş elədi. Çaldım. Çox xoşuna gəldi mənim çalğım; sən demə, Adil musiqini çox sevirmiş.

Fikirləşdim: axı bu sən deyən elə bir musiqi deyil, amma heç nə demədim, xoşuna gəlirsə gəlsin... Düzü, Adil indiyədək mənim çalğımı bəyənən yeganə adamdı. Mən çalanda əmidostumla əmim həmişə üz-gözünü turşudur, Elmira – göstəriş, düzəliş verir, amma Adil... Onu sevindirməkdən ötrü yenə də nə isə çalmaq istəyirdim, yadıma düşdü ki, acdı yazıq qurdlar...

Raysovetin yanından bizi yenə qovladı milisioner, 2-ci Paralel küçəsinədək gedib çıxdıq, ağacların əl-ətəyini yoluşdurduq.

Qurdlar elə bil yuxulu idilər, yeşiyin dibində hərəkətsiz qalmışdılar, bizi görən kimi tərpənişdilər, sanki yarpaq iyini almışdılar.

Hərdən başlarını yuxarı qaldırırdılar – bilmək istəyirdilər ki, hardan axıb gəlir bu yarpaqlar...

* * * Bazar günü Adilin atası bizi sirkə apardı. Mən sirkə arabir gedirəm, amma burda klassik güləşi ilk dəfə görürdüm. Birinci cərgədə oturmuşduq. Adilin atası bizə dondurma aldı, sonra da klassik güləşin qaydalarını başa saldı. Soruşdum, bəs niyə fransız güləşi adlandırırlar, elə afişalarda da belə yazılıb, o dedi ki, dəqiq bilmir, bəlkə də bu güləş ilk dəfə Fransada meydana gəlib... Bəlkə də təsadüfdən doğub bu ad? Necə ki, deyirlər: alman “ovçarkası” – qoyun iti, ya da Holland pendiri... Yerimizin rahat olub-olmadığını, üşüyüb-üşümədiyimizi soruşdu, yeldöyəndə oturmağımızdan narahat oldu. Başa düşürdüm – o, Adilə görə sorğu-suala tuturdu bizi... Ay Allah, ata-ana övladdan ötrü necə əldən-ayaqdan gedərmiş!

Adil bu sorğu-suallara çoxdan alışıb, heç cavab da vermir, amma mən... Görəsən, mənə belə qayğı göstərilsə, neyləyərdim, ömrümdə bircə dəfəsə olsa?.. Yəqin utanardım. O biri tərəfdən, doğma adamların narahatlığından axı, niyə utanmalısan? Gərək Adildən soruşam.

Güləşçilər iki-iki səhnəyə çıxır, itələşir, bir-birinin çiynindən yapışır, boynunun ardını şapalaqlayır, hakim də onların dövrəsində hərlənə-hərlənə fransızca nə isə deyirdi. Güləşçilərdən necə səslər çıxırdı, – fırnıxırdılar, böyürürdülər, nıqqıldayırdılar... Adillə atası, eləcə də dövrəmizdəkilər səhnədən bir anlığa belə gözlərini çəkmirdilər, mənsə... dözə bilmirdim, sonra tamam üzülüb əldən düşdüm. O qədər zəhləm getdi ki, altıncı görüşdən sonra Adilə dedim, bəsdir, çıxaq gedək kinoya, ya da bulvara. O, əvvəlcə başa düşmədi nə deyirəm, sonra bir heyrətlənmək heyrətləndi! Sən nə danışırsan, deyir, üç görüşdən sonra ən əsası başlayır! Adilin atası da eşidib axıracan baxmaq üçün məni dilə tutmağa çalışdı. Onların baxışdıqlarını da hiss elədim, bu da xoşuma gəlmədi. Fikirləşdim, nahaq Adilə dedim, gör səhnəyə necə maraqla baxırlar, mənsə... mane oluram.

Nahaq gəldim onlarla. Mənsiz daha yaxşı olarmış... Birdən gördüm, Adilin atası qalxdı, Adilə dedi ki, onun yerinə çəkilsin, özü ikimizin aramızda oturdu. Başladı səhnədəki gedişatı mənə başa salmağa.

Görürsən, deyir, narıncı trikolu pəhləvan gözəl bir fənd işlətdi, buna deyirlər – ikiqat nelson! Bu fəndi tərifləməsə də olardı, özüm başa düşdüm; mavi geyimli pəhləvan əlüstü nıqqıldadı. Bax, indi də, deyir, mavi geyimli parterdədi, bu “körpü” isə xalçadan qıraqda olduğuna görə sayılmır...

Adil də bir yandan bildiklərindən bala-bala deyirdi...

Yaxşı ki, hərdənbir kloun çıxırdı ortaya – məni ancaq o maraqlandırırdı, hiss eləyirdim ki, klounun da güləşdən zəhləsi gedir – güləşçilərə əyri-əyri baxanda üz-gözündən oxunurdu.

Yeddinci görüşdən sonra orkestr daha təntənəli səsləndi, sirkin qübbəsi altında rəngbərəng işıqlar yandı, aparıcı çıxıb uzaqdan dedi ki, bütün dünyanın səbirsizliklə gözlədiyi hayıflama yarışı başlanır.

Pavel Perekrest keçən il Kiyevdə Frenk Quda uduzmağının əvəzini çıxmaq istəyir. Yerlərdən bir hay-küy qalxdı ki, gəl görəsən. Aparıcı əlavə dedi ki, əgər bu gün Pavel Perekrest hayıf ala bilsə, gələn bazar Frenk Qud onu yarışa çağıracaq. O yerdə mən özümü saxlaya bilməyib Adilə dedim ki, Pavel Perekrest qalib gələcək.

Güləşçilər manejin ortasına çıxdılar, azı iyirmi dəfə baş əydilər ki, camaat əl çalmağını saxlasın. Başladılar.

Adil pıçıltı ilə soruşur:

– Sən hardan bilirsən?

– Görərsən...

Frenk Qud Perekrestdən hündür, həm də qədd-qamətliydi, Pavel Perekrest isə hədsiz enlikürək, alçaqboylu, pota kimidi. Çox əlləşdilər, axır ki, mən deyən oldu: Perekrest qalib gəldi. Hamı bir ağızdan dedi ki, bu uduşa söz ola bilməz – kürəyini yerə vurdu...

Adil yolboyu elə hey soruşurdu ki, Perekrestin udacağını hardan bilirdim, mən də hər dəfə sualın üstündən keçirdim.

Adilin atasının fikrincə, alışdığımız əsl güləşə baxanda bu maraqsızdır.

Sən demə, kimin udacağı əvvəldən danışılırmış, axı, sirk – tamaşadı, həmişə eyni adam udsa, sirkə gələn olmaz. Mən soruşdum, bəs elədirsə, niyə camaat belə həyəcan keçirir? O gülümsündü:

– Adamlar bəzən bilə-bilə aldanmağa sevinirlər, – dedi.

Adil bilir – boks əsl idman olduğuna görə mənim daha çox xoşuma gəlir. Atasına dedi ki, bizi bir həftədən sonra boks üzrə respublika çempionatına aparsın. Xahiş eləmədi – dedi! O da başını tərpətdi, sözsüz razılaşdı, vəssalam!

Onlarla yanaşı yerisəm də, fikrim-zikrim uzaqlarda idi, həm də özümü, Adili düşünürdüm.

Başqa yoldaşlarıma nisbətən Adili təzə-təzə tanısam da, ona tez alışdım. Yaşıdıq, boyca azca balacadı, amma məndən yaşlı görünür.

Bəlkə də bu, təmkinli olmasından irəli gəlir. Srağagün, görün, nə oldu: biz küçədə futbol oynayırdıq – bizim həyətlə 151 №-li evin komandası. Komandaya düşməyənlər səkidə dayanıb “azarkeşlik” eləyirdilər – Yaşka Brauman yanğınsöndürən Ağasəfin pəncərəsini sındırana kimi! Ağasəfin qorxusundan hamı qaçıb dağıldı; kimin sındırmasının dəxli yoxdu ona, kim ələ keçdi qanı getdi! Təkcə Adil yerində mıxlanıb qaldı. Ağasəf onun üstünə yüyürdü, Adil yerindən tərpənmədi.

– Salam, sizin pəncərənizi qırıblar? – dedi.

Ağasəf də quruyub qaldı, heç nə anlamadı, bilmədi nə desin.

– Salam. Sən kimsən?

– Mən sizin təzə qonşunuzam.

– Bəs özgənin pəncərəsini sındırmağı sənə kim öyrədib?

– Mən futbol oynamıram, – dedi Adil. – Heç futboldan xoşum da gəlmir.

Ağasəf başını bulayıb geri döndü...

O, ağır çəkili boksçu olmaq arzusundadı, olacaq da, xasiyyətinə bələdəm. Mənimsə heç bir arzum yoxdu, bu da yaxşı deyil... Fikirxəyal məni apardı, bir də gördüm ki, neçə addım dalda qalmışam.

Atası balaca uşaq kimi onun əlindən tutub aparırdı. Ata-anası yanında olanda heç kəs inanmaz ki, o, öz işini bilən, toxtaq adamdı.

Həyətə girəndə gördüm ki, Şura dayının – Aleksandr kişinin qapısı açıqdı, mən onlarla sağollaşıb Şura dayının evinə getdim.

Ondan yaman xoşum gəlir. Neçə illərdi val toplayır. Məncə, Bakıda ən böyük kolleksiyaçıdı. Bütün divarlar val düzülmüş dolablarla doludur. Valları da patefonda yox, elektrik gücləndiricisi olan radio aparatı ilə çaldırır. Bu radio aparatı əlüzyuyana oxşayır: altındakı çanaq əvəzinə disk fırlanır, kranı da adapter əvəz edir. Vallarının çoxusu çalğısız-filansız da, təkcə adlarına görə xoşuma gəlir:

“Quşsatan”, “Qaraçı baron”, ya da “Tarantella”... hərdən, musiqi adını doğrultmayanda qulaq asmağıma peşman oluram, sanki kimsə məni aldadır... Birinci dəfə “İnciaxtaranlara” qulaq asanda belə hiss keçirdim. Daha alışmışam, o qədər də fikir vermirəm adlara. Şura dayı arvadı Firəngiz xala ilə bir yerdə valları tez-tez çaldırırlar. Deyəsən, mənim gəlişimə də sevinirlər. Şura dayı hərdən mənim babamdan, atamdan söz salır. Bir şəkil var atamda, bir yerdə o zaman bulvardakı

çimərlikdə çəkdiriblər, on beş yaşında. Şura dayı montyordur, arvadı Firəngiz xala Semaşko xəstəxanasında şəfqət bacısıdır.

Biz söhbət eləyə-eləyə təzə vala da qulaq asdıq – kimsə royalda qiyamət çalırdı. Baxıb gördüm ki, pianoçunun famili də bu musiqiyə uyardı: Sfasman. “Kinofilm mahnılarına fantaziya”.

Mən bir də qulaq asmaq istəyəndə Firəngiz xala dedi:

– Sabah qulaq asarsan. “İlan” evdədi.

Validə xalanı deyir. Onların dəhlizləri birdir. Yuxa faner arakəsmə ilə ayrılır. Odur ki, bütün söz-söhbətlər eşidilir. Üstəlik, Validə xalanın musiqidən zəhləsi gedir. Eşidən kimi döyəcləyir arakəsməni. Bir vaxt onların acığına xoruz aldı, dəhlizə, arakəsmənin yanına bağladı; səhər saat beşdə xoruz bir banlamaq banlayırdı ki, ikinci mərtəbədə, pəncərəsi həyətə yox, küçəyə açılan otağımda belə qulaq tutulurdu. Bütün həyət yalvarırdı ki, xoruzu kəssin; Firəngiz xala musiqiyə ancaq axşam saat onacan, bazar günləri ancaq gündüz – günortayacan qulaq asacağına söz verəndən sonra Validə xala razılaşdı.

Adapter -patefon valının səsini elektrik vasitəsilə reproduktora verən elektromaqnitli mexanizm Validə xalanın qapısı şaqqıltı ilə örtüldü, deyəsən harasa çıxıb getdi. Biz valı təzəcə qoymuşduq ki, məni nahar eləməyə çağırdılar.

Əmidostum heç üzümə baxmadan işarə elədi ki, əlimi yuyum...

Deməli, əmim evdə yoxdur. Əmim evdə olanda Mənzər xanım mənimlə heç olmasa danışır. Əslində, üzümə baxıb-baxmamağının elə bir isti-soyuğu yoxdu... Əlimi yumamışdan gedib barama qurdlarına baş çəkdim. Yemək̇ləri hələ var idi. Necə də tez boy atdılar az vaxtda! Rəngləri də dəyişib, əvvəl qapqara idilər, indi elə bil ağarıblar.

Mətbəxə keçəndə gördüm ki, Validə xala orda ədəb-ərkanla əyləşib. Məni görən kimi söhbətinə ara verdi. Əmidostum mənim qarşıma bir boşqab şorba qoydu, Validəni içəri çağırdı.

Mətbəxdə əyləşsəm də, otaqda danışıqlarının hamısını gözəlcə eşidirəm, mənim yerimdə bir başqası olsaydı, bəlkə də sözləri belə aydınca tuta bilməzdi – axı, mənim gözəl musiqi yaddaşım var!

Validə xala Adilin ata-anasından danışırdı, mən də xörəyimi yeyəyeyə qulağımı şəkləmişdim. Birdən... qaşığı-boşqabı bir yana itələdim, qulaqlarıma inanmadım! Validə xala sözünü bitirib əmidostuma dönə-dönə tapşırdı ki, bu sirri heç kəsə açmasın.

Doğrudan da, bu, dəhşətli sirr idi...

Səhər bibim mənə dedi:

– Odu ey, sənin dostun alatorandan pilləkəndə oturub.

Qapını aralayıb baxdım, Adil həqiqətən pilləkəndə oturmuşdu.

Onu evə çağırdım, saatı göstərdim – iyirmicə dəqiqə işləmişdi səkkizə!

İşarə vurdum ki, mən gecikmişəm; biz səkkizin yarısında görüşüb məktəbə getməmiş yarpaq dərməli idik.

Anası, həmişə olduğu kimi, eyvandan bizə əl elədi.

Biz 2-ci Paralel küçəsinə çatanda heyrətləndik: evlər idarəsinin qabağında, tutun altında heç kəs yox idi. Demək, saqqallı dəlini gətirməyiblər hələ... Adil dedi:

– Gəl elə bu ağacdan dərək!

Ağaca dırmaşsaq da, gözüm yerdə qalmışdı: saqqallı gələn kimi əkilmək lazım idi... Adil mənə gülür – guya özü qorxmur, amma mən bilirəm ki, əməlli-başlı qorxur.

– Sən belə qorxursansa, – deyir, – düş aşağı, düş, özüm dərərəm.

Tez ol, düş!

Niyə düşməliyəm, axı? İstədiyimiz qədər – indi buna tumurcuq yox, yarpaq demək olardı – yığıb evə yollandıq.

Evdən çıxanda ondan heç nə soruşmaq fikrində deyildim, indi, necə oldusa dilim dinc durmadı:

– Sən öz ata-ananı yaxşı xatırlayırsanmı?

O, heyrətlə üzümə baxıb gülümsündü.

– Niyə qımışırsan? – Soruşuram. – Bunlar sənin valideynlərin deyil...

– Bəs kimindir? – o yenə gülümsünür.

– Heç kimin... Onların uşaqları yoxdu.

– Necə yoxdu? Bəs mən?..

– Onlar səni uşaq evindən götürüblər, müharibə başlayanda...

Yadına düşür, yoxsa?..

– Bu nə sözdür danışırsan? – Acıqlanmadan, gülümsəmədən, ciddi soruşur.

– Vallah, düz sözümdü...

– Yalandı, yalan! Müharibə başlayanda mənim, demək olar, iki yaşım vardı. Bildin?! Hər şey yadımda qalardı! Sən cəfəngiyat danışırsan – anam da mənimdi, atam da!

– Olsun, nə deyirəm. Mənə nə var?!

Bu haqda başqa bir söz demədik, barama qurdlarını yemləyib məktəbə yollandıq.

Məktəbdən qayıdanda gördüm ki, darvazanın yanında durub məni gözləyir.

– Sən düz deyirsən... hamısı yadıma düşdü...

– Nə düşdü yadına?

– Yaxşı xatırlaya bilmirəm, bircə onu bilirəm ki, məni uşaq evindən götürdülər. Uşaq evi yadıma düşür...

Mən dedim:

– Bunu da özünə dərd eləyəcəksən?

O, başını buladı...

– Heç mənim də valideynlərim yoxdu, – dedim, – atam müharibədə həlak olub, anam da yoxdu. Görürsən, mən vecimə almıram.

Ata-anan ögey olsa da, doğmalardan yaxşı baxırlar sənə.

O, ehmalca başını tərpədib getdi... O gün daha görüşmədik.

Gecə gözlərimi güclə açdım, kimsə məni yuxudan oyadırdı.

Gözümü açsam da, heç nə başa düşmədim, əvvəl elə bildim ki, yuxu görürəm. Adilin atası-anası, əmidostum, bir də əmim başım üstə dayanmışdılar.

Adilin anası göz yaşını saxlaya bilmirdi.

Əmim məndən soruşdu:

– Gündüz Adil sənə bir söz demədi ki?

– Necə? Nə barədə?

Əmim Adilin anasının üzünə baxıb yenə soruşdu:

– Evdən qaçmaq istədiyini demədi sənə?

Başımda bircə fikir dolanır: görəsən mənim dediyimdən xəbərləri varmı?

– Yox, mənə heç nə demədi.

– Axı doğrudan da, o mənə bir söz açıb deməmişdi.

Bu dəfə Adilin atası soruşur:

– Sən hiss eləmədin ki, bəlkə o, nəyə görəsə pərt olmuşdu, ya da kimsə onun xətrinə dəymişdi?

Bu yerdə mənə aydın oldu ki, Adil onlara heç nə deməyib.

– Yox... mənə heç nə deməmişdi...Onlar çıxıb getdilər.

Əmidostumla əmim bir-birinə baxa-baxa başlarını buladılar:

– Dünyada gör necə əclaf adamlar var!

Əmidostum dedi:

– Mən inanmıram ki, Validə ona bir söz deyə... İnanmıram...

– Validə yox, bir başqası deyib! Ax... bu əllərimlə boğardım onu!

Səhərdən bəri həyətdə hamı Adildən danışırdı.

Məncə, həmin günü bütün qonşularımız işə gecikdilər.

Mən özüm də gecikdim, ikinci dərsə getdim. Validə xala alatorandan bizə qaçıb gəlmişdi. Deyir, Adilin atası milisə zəng vurub, xahiş eləyib ki, Bakıdan çıxan bütün qatarları yoxlasınlar, yollara gözətçi qoysunlar. Sən demə, Adilin atası neft sənayesində "böyük adamlardandı", "nəçənnikdi"... Bunu da Validə xaladan eşitdik.

Bütün qonşular bir-birinə dəymişdi: Adilin ögey olmasını kim xəbər verə bilərdi ona?.. Atası uşağı axtarmaq üçün səhər çıxandı, qayıtmayıb indiyə kimi.

Anası evdə təkcə qalmışdı. Qonşu qadınlar bir-bir, iki-bir ona baş çəkib, ürək-dirək versələr də, o, sakitcə oturub deyilənlərə qulaq assa da, deyəsən, heç nə eşitmirdi. Səhər mən çay içəndə bizə gəldi, mənimlə üz-üzə əyləşdi.

– Yalvarıram sənə, bir fikirləş yaxşı-yaxşı, bəlkə o, sənə hara getmək istədiyini deyib, fikirləş, bəlkə o deyib, sənin yadından çıxıb, hə?..

O mənə heç nə deməmişdi. Anasına deməyə söz tapmadım...

O da sakitcə çıxıb getdi.

Bilsəydim ki, Adil evdən çıxıb gedə bilər, ona heç bir söz deməzdim. Ondan çıxmayan iş: sakit, təmkinli, birdən-birə belə hərəkət... heç səbəbi də aydın deyil. Onda gərək mən çoxdan qaçıb gedəydim. Yəqin bu sözü ömrü boyu gözləməzdi. Görəsən hara qaçıb gedib? Onsuz da tapacaqlar.

Mən küçədə gəzə-gəzə bütün bunlar haqda fikirləşirdim. Bir də onu fikirləşirdim ki, Adil qayıdandan sonra hamı biləcək ki, günahkar mənəm... Bəs onda neyləyəcəm?

Elmiranı görəndə sevindim.

– Bəlkə yadından çıxıb, axı, sən mənə söz vermişdin musiqi bəstələməyə?..

– Yox, yadımdan çıxmamışdı, nə qədər əlləşdimsə, bir şey alınmadı; fikirləşib bir şey tapırsan, çalan kimi görürsən ki, tanış melodiyadı...

Heç nə bəstələyə bilməmişəm.

– Niyə?

– Alınmır. Heç bundan sonra da bəstələmək fikrində deyiləm.

Zəhləm gedir...

O, gözümün içinə baxa-baxa soruşdu:

– Sən musiqi ilə heç məşğul olmaq istəmirsən?

– Yox, istəmirəm! Əmim nahaq fikirləşib ki, məndən bəstəkar çıxar. Mən istəmirəm! Musiqini sevirəm, amma musiqiçi olmaq fikrim yoxdu. Qoy məni adi məktəblərin birinə keçirsinlər.

– Əzizim, bilirsən nə var, mən hələ indiyədək elə adam görməmişəm ki, musiqi təhsili almaq, ya da solfecio dərsi xoşuna gəlsin.

Nə bilirsən, bəlkə bir vaxt musiqiçi olmaq fikrinə düşəcəksən...

Bax, onda bu məşğələlər sənin köməyinə gələcək.

– İstəmirəm, əmimə də deyəcəyəm. Lap günü bu gün! Qoy nə eləyir-eləsin.

– Nə olub sənə?

Cavab verə bilmədim, qəhər məni boğurdu. Püpitrə baxa-baxa qalmışdım. O mənim başımı sığalladı, sonra da köks ötürüb sağ əlilə məni qucaqladı.

– Nə olub sənə? Səndən soruşuram!

Əmidostum qapının astanasından görünən kimi yerindəcə donub qaldı. Elmira ilə yanaşı oturmuşuq royalın qarşısında, mən başımı onun çiyninə söykəmişəm, ikimiz də susuruq.

Elmira əmidostuma deyir:

– Bu gün məşğələmiz olmadı.

O, bircə söz deyə bildi:

– Hə?

Demək, o, möhkəmcə heyrətlənib...

Adilin atası saat beşdə evə gəlib çıxdı. Üzü bomboz bozarmışdı; zarafat deyil, dünəndən yuxusuzdu.

O, bayırda baş-başa verib susan qonşuların yanından keçib pillələri qalxdı. Şura dayı Adil sarıdan bir şey öyrənib-öyrənmədiyini soruşanda, o, sakitcə başını buladı.

Adillə aramızdakı o söhbətə görə necə peşman olmuşdum!.. İki saat otaqda aramsız var-gəl elədim, bir fikir elə hey beynimi döyəclədi: “Axırı necə olacaq?” Birdən barama qurdlarının qutusu gözümə dəydi, yaxınlaşan kimi hamısı başını qaldırıb mənə baxdı.

Yazıqlar səhərdən ac idilər. Heç bir çimdik yarpaq da qalmamışdı, tumurcuqların yupyuxa çəhrayı qabıqlarını da yemişdilər. Tez-tələsik evdən çıxıb yarpaq dalınca yüyürdüm. Raysovetin yanında milisioner məni görən kimi qışqırdı:

– Ehey, itil burdan, sənə dedim axı, bir də görsəm, tutub aparacağam, – o mənim üstümə gələndə götürüldüm, tinə qədər qaçıb dayandım. O, həmin yerdəcə dayanıb qalmışdı. Tindən başımı çıxarıb başladım, nə başladım:

– Görüm səni o dünyalıq olasan! Nə istəyirsən məndən? Eşşək!

Qanmaz heyvan! Sənin, – qışqırıram, – başın işləmir. – Söyürəm, ürəyim soyumur...

Düz iki tin dalımca qaçdı, amma bir şey çıxmadı; ayağında ağır çəkmələr, əynində şinel... əli də koburun üstündə... Mən tramvay xəttini keçib onu yenə də yamanladım. O, acıqlı-acıqlı məni yanıdı:

– Onsuz da səni tapacağam, bu rayonda yaşayırsan, baxarıq!..

Yenə ağzıma gələni deyib 2-ci Paralel küçəsinə sarı götürüldüm.

Gedə-gedə fikirləşirəm, yəqin qurdlar qırılacaq, bütün günü ac qalıblar... sonra da milisioneri yamanlamağıma görə özümözümə məəttəl qaldım. Evlər idarəsinə kimi qaçdım, gördüm tutun yanında heç kəs yoxdu. Dörd yanıma boylandım, o zəhmli kişi gözümə dəymədi, tez-tez dırmaşdım ağaca, başladım tumurcuq yığmağa.

Aşağıdakı budaqlarda əlimə bir şey keçmədi – hamısını Adillə yığmışdıq – yuxarı dırmaşdım. Onca dəqiqəyə cibimi doldurdum.

Aşağı düşmək istəyəndə... gördüm, ağacın altında dayanıb mənə baxır. Üz-gözündən zəhrimar yağır, qapqara saqqal basıb, gözünü mənə zilləyib hər addımımı izləyir. Ağaca söykənib dodaqaltı nə isə deyinir, mənim düşməyimi gözləyir. Baxdım, küçədə heç kəs yox idi. Bir adam olsaydı belə, inanmıram köməyə gələ – bizim məhəllədə hamı ondan qorxur. Ayaqlarım titrəyirdi. İri budaqların birindən əllərimlə tutub, ayaqlarımla yapışıb üzüaşağı sürüşməklə təkan versəydim, aralı düşərdim, onda məni tutsun görüm necə tutur.

Elə də elədim... sürüşə-sürüşə bircə onun üzünü görürdüm.

Tappıltı ilə nəyəsə dəyib yerə düşdüyümü bildim, vəssalam...

Evimizdə, dəhlizdə gözümü açanda başımın üstündə həmin dəlini gördüm. Qorxudan necə qışqırdımsa, özümdən getdim. Asfalta tappıltı ilə düşəndə beynim yerindən oynamışdı... O məni yerimdən qaldırıb, birbaşa aparıb evimizə. Xəstəxanadan gəldilər, onun qoluna girib ehmal-ehmal apardılar. Yolboyu elə hey qışqırırdı.

Ukrayna dilində, nə isə anlaşılmaz sözlər deyirdi. Dediyi nə imiş – uşaqları öldürmək olmaz, öldürmək olmaz uşaqları! Sanitarlar gələndə evdə mənim yanımdan aralanmaq istəmirmiş...

Dedilər ki, ağlını itirsə də, ziyansız adamdı. Lvovda, gözünün qabağında bomba partlayışından bütün ailəsi məhv olandan sonra bu kökə düşüb. Sən demə, bu günə kimi susurmuş, heç bir söz də demirmiş...

İki gün başım hərləndi, azca səndələyirdim, sonra keçib getdi.

Həkim, sonra da əmimin gətirdiyi professor – o, babamın dostu imiş – qətiyyətlə tapşırdılar ki, yerindən tərpənmək olmaz, hətta uzananda belə... Oxumağı da qadağan elədilər. Darıxırdım, bağrım çatlayırdı.

Yaxşı ki, bir həftədən sonra kreslonu eyvana çıxardılar, əyləşib başladım həyətə tamaşa eləməyə.

Elmira hər gün mənə baş çəkirdi, məktəbdən, sonra da konservatoriyada işlərindən danışırdı. O, məndən söz aldı ki, ayağa duranda musiqi pyesi yazım. Bilmirəm, pyes onun nəyinə lazım idi. Mən xəstə olanda yarpaq dərməyə əmim gedirdi. Görəsən necə yığırdı, hardan yığırdı, axı o, çıxa bilməzdi ağaca! Adildən xəbər-ətər yox idi, amma atası axtarışından qalmırdı, özü də günlərlə evə baş çəkmirdi.

Gözlənilmədən Adil gəlib çıxanda anası evdə idi. Validə onu görəndə dəli kimi qışqırdı: “Adil gəldi!..” Gündüz, bir də onu gördüm ki, Adil pillələrlə qalxır yuxarı. Anası balkona çıxdı, elə baxa-baxa qaldı. Adil ona yaxınlaşdı, anası onu qucaqlayıb ağlaya-ağlaya deyirdi:

“Sən niyə belə elədin, oğul? Niyə belə elədin sən?!” O, sakitcə mızıldandı: “Bağışla məni, bağışla...” Yarım saatdan sonra anası mənim yanıma gəldi – anası onsuz da əvvəllər Adili gözdən qoymurdu, indi isə addımbaaddım izləyirdi.

Başıma gələnlərin hamısını danışdım ona, elə mən sözümü qurtaranda atası gəlib çıxdı. Adili görən kimi çöküb pilləkəndə oturdu, bir kəlmə də demədi ona. Güclə qalxdı yerindən, Adilin əlindən tutub apardı, anası da dallarınca...

Onu görəndə çox sevindim. Həm də ona görə sevindim ki, anasına məndən heç nə deməmişdi. Elə bilirdim ki, mənimlə dostluğu kəsəcək, heç inciməzdim də; axı mənim üstümdə gör nələr olmuşdu, aləm bir-birinə dəymişdi...

Axır ki, ayağa qalxmağa mənə icazə verdilər. Babamın dostu gəldi, dizimə balaca çəkiclə döyəclədi, çubuğu gözümün qabağına tutub ora-bura hərlədi...

* * * Qurdlar yeməkdən kəsildilər, hamısı da birdən... Otağa sükut çökdü.

İrilənmiş, çeçələ barmağa dönmüş qurdlar yeşiyin dibində elə bil nə isə axtarırdılar. Axır günlər onların rəngi də dəyişmişdi; elə bil üfürülüb doldurulmuşdu onlar, elə bil qonur yağ çəkilmişdi bədənlərinə.

Başlarını ora-bura döndərdikcə son dərəcə zərif qızılı, ağımtıl saplar düzülürdü havaya. Əmim məsləhət gördü ki, süpürgədən bir çəngə qoparıb yeşiyə atım. Bir neçə saatdan sonra yeşiyin yuxarısı və süpürgə çəngəsi par-par yanan ipək sapla örtülmüşdü.

Qurdlar, ara vermədən, başlarını sağa-sola tərpədə-tərpədə öz dövrəsində zərif bir duvaq toxuyurdular...

Elektrik işığında da, gecə qaranlığında da qurdlar öz işində idi; aramsız tərpənən başlar barama pərdəsi arxasında yavaş-yavaş görünməz olurdu...

Təkcə bir qurd yeşiyin içində ora-bura veyllənməkdə idi, arxasınca qızılı cığır salıb gedirdi. O da başqaları kimi, iri-iri ləkələrlə örtülmüş başını ehmal-ehmal sağa-sola tərpədirdi, o da iplik toxu-yurdu, amma bir yerdə dayanmırdı, yoluna çıxan hər nə vardısa, hətta qurdların özünü belə, zərif ipliyə qərq eləyirdi.

– Yəqin bunu qəsdən, başlı-başına buraxıblar ki, onlar üçün yeşiyi bəzəyib-düzəsin, – Adil pıçıltı ilə dilləndi. Biz yarım saat olardı, beləcə yeşiyin yanını kəsdirib tamaşa eləyirdik. – Bəzəyibdüzəsin ki, baramadan çıxan kəpənəklər yeşiyin içində bu zərif tellərin arasında yaşasın.

– Onların beyni var ki, fikirləşələr?..

– Bəs o birilər kimi, niyə özünə barama toxumur. Bəlkə özünə yaxşı yer axtarır, sonra başlayacaq toxumağa?

– Bəlkə bu, qurdların xüsusi növüdü, – dedim, – öz ipəyini hamısının yolunda səpməlidi?

– Görünür, bu qurdun əsəb sistemi pozulub, – başımın üstündə dayanan əmimin səsi gəldi.

Başımız elə qarışmışdı ki, əmimlə Mənzər xanımın nə vaxt yaxınlaşdığını hiss eləməmişdik.

– Bu qurd avaranın biridi, – əmidostum əmimi başa salmaq istədi, – hədər yerə gör nə qədər iplik buraxıb, bu başdan o başa çatardı...

– Adamın ona yazığı gəlir, – dedi Adil, – hamısı kəpənəyə dönəcək, amma bu bədbəxt elə qurd kimi də öləcək.

Əmidostum özündən razılıqla dilləndi:

– Yaxşı deyiblər: səadət hər kəsin öz əlindədi...

Bilirdim ki, bu sözü bədbəxt qurda demir, mənə deyir, ona yox, mənə baxır... Bezmişdim bu atmacalardan!

– Gedək, yeməyin vaxtıdı, – əmim yaxşı yerdə sözünü dedi...

Gecə yuxudan oyanıb mətbəxə getdim.

Elə bil yeşiyə qızılı ipək örtük çəkmişdilər. Onun da üstündən, lampa işığında işım-işım işıldayan saplardan rəngbərəng baramalar asılmışdı. Necə gözəl idi, ilahi! Elə bil zala xalça döşənmişdi, üstündən də qızıl, gümüş, büllur çilçıraqlar asılmışdı.

Tək-tənha barama qurdu çilçırağın altında hələ də başını tərpədətərpədə öz işində idi...

Üşüdüm. Odeyalı gətirib büründüm, balaca kətili çəkib yeşiyin yanında oturdum. Gözümü o qurddan çəkə bilmirdim; yazıq arıqlayıb, nazilib-üzülmüşdü. Ağlıma qəribə fikirlər gəlirdi... Elə o gecə qərara aldım ki, anamın yanına gedim. O zaman mənim oğulluğa götürülməyimə anam bəlkə də heç razı olmayıb...

* * * Gözümü açdım, gördüm tamam işıqlanıb, başımın üstündə əmim dayanmışdı. O mənə heç nə demədi, təkcə başını buladı. Mənzər xanım əynində xalat yüyürüb gəldi, əlini alnıma qoydu.

– Deyəsən istiliyi yoxdu, – səsində pərtlik vardı əmidostumun.

– Keç yatağına uzan, – dedi əmim.

– Mən yatmaq istəmirəm, – doğrudan da yuxum gəlmirdi. – Burda doyunca yatmışam.

– Mən sənlə necə danışım indi?

Əmim bunu deyib köksünü ötürdü, yanımda əyləşib çiyinlərimi qucaqladı.

Barama qurdu daha yerindən tərpənmirdi. İndi o, qurda oxşamırdı.

Qapqara qaralmışdı, fasol boyda qalmışdı, elə bil üstünə kömür atmışdılar...

– Sən gərək yatıb yuxunu alasan...

– Bəs məktəb?

– Eyibi yox, gecikərsən. Direktora zəng vuraram, icazə verər.

Əlbəttə, icazə verər, məktəb mənim babamın adını, əmimin atasının adını daşıyır. Elə buna görə də məktəbdə nəfəsim kəsilir.

Mənə heç bir xeyri yoxdu, amma birinci sinifdən başlamış elə hey beynimə döyəcləyirlər: “Sən ona layiq olmalısan! Sən ona layiq olmalısan!” Saat onun yarısında yuxudan oyanan kimi əmidostumun “medosmotr” ından keçdim, bir stəkan süd içib qaçdım məktəbə. Gördüm Adil tində dayanıb.

– Bir manatın var?.. Gedək kinoya. Məndə üç manatdı, düz iki biletin pulu düzəlir. İki dəfə sənə zəng vurdum, əmidostun cavab verəndə dəstəyi asdım.

“Nizami” kinoteatrına çatdıq.

– “Toska”, – dedi Adil.

Mən əvvəlcə başa düşmədim.

– Nə olub ki?.. – Sonra afişanı gördüm. – Qəribə addı: “Toska”!..

– “Toska” yox, “Toska!”, bu, qadın adıdı, uşaqlar! – Yanımızda dayanan xala izahat verdi, yəqin o da bizi kimi bir fikrə gələ bilmirdi – kinoya girsin, yoxsa girməsin...

– Kassanın qabağında heç bir adam yoxdu, – dedi Adil, – yəqin... o söz...

Hər nə idisə, bilet aldıq.

– Doğrudan da “Toska” yox, “Toska!” imiş, – bir neçə dəqiqədən sonra Adil köksünü ötürüb dedi: – Elə hey oxuyurlar. Niyə oxuyurlar? Bəlkə çıxıb gedək?

Mən cavab vermədim, çiyinlərimi çəkdim. İndiyə kimi heç ağlıma gəlməzdi ki, adamlar bu cür oxuya bilsinlər...

Adil bir az donquldandı, sonra deyəsən, səsini tamam kəsdi, ya da mən onu eşitmək hayında deyildim. Kavardossi ariyanın birinci sözlərini deyəndə tüküm ürpəşdi. Qabaqkı stuldan bərk-bərk yapışıb oturmuşdum, nə elədiyini heç özü də bilməyən Toskaya qarşı içimdə nifrət qaynayırdı.

Sonra, bizim gözümüz qabağında, sallaqxananın dalında öldürülən adamın cənazəsi qarşısında diz çökəndə, ona yazığım gəldi.

Hiss elədim ki, Toska qaladan özünü atanda, aşağıda, həbsxananın divarları dibincə döşənmiş daşların üstündə parça-parça olanda, Adik də qorxudan diksindi.

– Fikir vermə, – dedi Adik, – teatrdı, demək, hamısı yalandı...

Kinoteatrdan çıxıb yekə afişanın yanında ayaq saxladıq.

– Yan Kipura. Gör nə gözəl addı...

– O kimdir? – Soruşdu Adik.

– Kavardossini oynayan... Toskanı oynayan – İvan Kontidi, Milan operasının solisti.

Evə qayıdanda Adilə dedim ki, anamın yanına qayıtmağı qəti qərara almışam. O da mənimlə getmək istəyirdi, razılıq vermədim.

Düzü, qorxurdum ki, anam məni tanımaz, elə bilər oğlu mən yox – Adildi; sonuncu dəfə məni görəndə cəmi ikicə yaşım vardı... Mən onu şəkillərinə görə əlüstü tanıyardım, axı, böyüklər o qədər də dəyişilmir. Amma bu barədə Adilə bir söz demədim.

Barama yeşiyini Mənzər xanım trelyaja qoydu; özü də elə elədi ki, qızılı-gümüşü ipək ipliklər trelyajın üz qatında bərq vursun.

Hamıya deyirdi ki, bu yeşiyə baxanda əsəbləri sakitləşir. Amma onun əsəbləri axıra kimi sakitləşmədi; bir neçə vaxtdan sonra baramalar uc tərəfdən qaralmağa başladı, sonra da deşildi, o deşiklərdən bədənin güclə çəkib aparan qaramtıl həşəratlar çıxdı. Yarım saat keçməmiş onlar işım-işım işıldayan ağ kəpənəklərə döndülər. Heç kəsin ağlına gəlməzdi ki, onlar baramaya yerləşə bilərdilər, özləri də nə zamansa qurd olublar. Kəpənəklər zərif tozla örtülmüş qanadlarını astaca-astaca çırpa-çırpa tək-tənha barama qurdunun toxuduğu ipək tül üstündə atılıb düşdülər, sonra, yeşikdə uçmağın qeyrimümkünlüyünü hiss eləyib, hamısı birdən tərpəndilər, qoşalaşıb bir-birindən sallaşdılar, qanadlarını aram-aram yellədilər... Bu, Mənzər xanımın heç xoşuna gəlmədi; onun yanaqları allandı, elə bil kimsə onu aldatmışdı, təhqir eləmişdi. Karton götürdü, yeşiyin

ağzını örtüb trelyajdan çıxartdı, Adillə mənə də tapşırdı ki, gedib dərsimizlə məşğul olaq... Əmidostum evdə olmayanda biz kartonu qaldırıb baxırdıq. Kəpənəklər bir gün də eləcə, bir-birinə sarmaşmış halda qaldılar, sonra tənbəl-tənbəl aralanıb harasa çəkildilər...

Axşam bütün kəpənəklər ölmüşdü. Yeşiyin dibində, ipək tellərin üstündə onlardan yadigar xırdaca ağımtıl toxumcuqlar qalmışdı.

Əmim dedi ki, qurdlar yazda vaxtından əvvəl baş qaldırmasın deyə bunları götürüb qaranlıq yerdə gizlətmək lazımdır.

Mən ölü kəpənəklərə, onların qəbrinə oxşar baramalara baxanda, nədənsə, ötən yay Pirşağıya, əmimin dostlarıgilə qonaq getməyimiz yadıma düşdü. Axşam təkbaşına sahilə yollandım, sahilə çatar-çatmaz qaranlıq düşdü. Gecə qaranlığına bürünmüş dənizin qırağında dayanmışdım, nə ay görünürdü, nə ulduz, elə əslində dənizin özü də görünmürdü. Qaranlığın içindən təkcə dalğaların səsi eşidilirdi. Onda mənə elə gəldi ki, bu vahiməli qaranlıqdan və məndən başqa sahildə, bu ətrafda heç kəs yoxdur, heç vaxt da olmayacaq. Bir az da dayandım, ona görə dayandım ki, yerimdən tərpənməyə taqətim yox idi, sonra geri dönüb, yerimdən güllə kimi götürüldüm, bir də düz qapıda ayaq saxladım. Yeşiyə baxa-baxa mən o axşamı yox, təkcə qaranlıq sahilin vahiməsini xatırladım. Bu anlaşılmaz qorxu elə bil gözəgörünməz bir dəhşətdən xəbər verirdi...

– Sən niyə susursan? – Əmim mənə zəndlə baxıb soruşdu.

– Yazda peyda olacaq qurdlar da kəpənəyə dönüb öləcək, eləmi?

Onda bütün bunlar nəyə gərəkdi?..

Özüm də hiss elədim ki, istədiyimi soruşa bilmədim, amma istədiyimi soruşmaq üçün lazım olan sözlər mənə tanış deyildi...

– Necə nəyə gərəkdi? – Əmim gülümsündü. – Onlar öz işlərini gördülər – nəsil qoyub getdilər. Adamlara da xeyir oldu – ipəyi bu yolla alırlar.

– Mən onu demirdim...

Çıxıb getmək istəyirdim, əmimin sorğusu qabağımı kəsdi.

– Bəs nə deyirdin?

– Adamlara xeyrini soruşmuram, – dedim. – Bəs kəpənəklərin nəyinə gərəkdi bu? Bircə günlüyə baramanın içindən çıxasan, toxum qoyub əlüstü öləsən... Bunun nə mənası var!..

– Onlardan soruşan yoxdu – gərəkdi, gərək deyil... Təbiət özü belə qurulub.

– Adamlar da elə? Bilirlər ki, gec-tez, onsuz da öləcəklər, amma yenə yaşayırlar. Niyə? – Yenə hiss elədim ki, soruşmaq istədiyim bu deyil, amma başqa söz tapmaqda çətinlik çəkirdim. Elə onu demişdim ki, əmidostum mətbəxə gəldi, gözümün içinə zəndlə baxa-baxa dedi:

– Sən əvvəlcə bir insan kimi yaşa...

– Dayan-dayan, – əmim onun sözünü kəsdi. – Sən də söz danışdın, adamları müqayisə eləməyə başqa şey tapmadın? – Əmim gülümsündü, amma mənə aydın oldu ki, bu müqayisə onun ürəyindən olmadı. – Kim istəyir ki, onu qurdlarla müqayisə eləsinlər – lap kənd təsərrüfatına xeyri olsa belə?!

– Mən başqa söz demək istəyirdim, – söhbəti dəyişməyə çalışırdım, – sadəcə, özünə barama toxuya bilməyən qurda yazığım gəldi. O fağır yeşiyi necə gözəl bəzəmişdi!

– Yaxşı, – əmim yenə gülümsündü. – Mən də o qurdun halına acıyıram. Bəsindi? Get bir gəz, hava al, necə olsa, bu gün bazardı...

Mən çıxanda Mənzər xanım əmimlə susmuşdular, görməsəm də, hiss eləyirdim ki, fikirli-fikirli hələ də bir-birinin üzünə baxabaxa qalıblar, əmidostum isə yenə köksünü ötürür... Bircə şey mənə aydın deyildi: əmidostumun kimə daha çox yazığı gəlirdi, belə axmaq və zəhlətökən olduğuma görə mənə, yoxsa, bütün bunlara dözdüyünə görə özünə və əmimə?

Evin damına qalxdım, Adil orda məni gözləyirdi. Çərpələng buraxdıq. Özümü saxlaya bilməyib ipək qurdlarından ona da dedim.

– Eh... hamısı birdi, – dedi Adil, – qadınlarla kişilər də...

Elə bu vaxt Adilin atası da dama çıxdı. Böyüklərin belə həvəslə çərpələng buraxmasını birinci dəfə görürdüm. Biz heç kəsə demirdik ki, “ilanı” – çərpələngi yapışqanlayan odur. Xüsusi qalın, suburaxmayan kağızdan hazırlayırdı. Adillə mənə bircə iş qalırdı: kağızı rəngləmək, “quyruq” düzəltmək... hamı bizə qibtə eləyirdi; heç kəsin – nə məktəbdə, nə də bizim küçədə belə nəhəng çərpələngi olmazdı.

Gözlənilmədən soruşdu:

– Sən niyə mısmırığını sallamısan?

– Yoox... nə danışırsız... Mənim kefim yaxşıdı...

– Dayan, daha da yaxşı olacaq, – o, Adildən “ilanı” aldı, yelləyəyelləyə damın üstü ilə qaçdı və küləyin əksinə tərəf buraxdı.

– İpi tez yığ! – Qışqırdı, mən onsuz da ipi bütün gücümlə çarxa yığırdım. Çərpələng getdikcə daha yuxarılara qalxırdı, iki çarx ipi çəkib apardı. İp əvvəlcə dalğalana-dalğalana yellənirdi, sonra havadaca donub qaldı. Elə bildim çərpələngimiz bulvara kimi süzüb getdi, indi dənizin üstündədi, amma, Adilin atası dedi ki, yox, gözün alacalanır, ikiçarxlıq ip bulvara çatmaz. Evin damının lap qırağında dayanmışdıq, sanki bütün şəhər ayağımızın altında idi. İpin ucunu əlimdə mən tutmuşdum. Kefim yamanca durulmuşdu. Amma nə üçünsə mənə elə gəldi ki, Adil də, onun yanında dayanıb çiynindən yapışan atası da daha çox sevinir...

Üçüncü fəsil Biz küləyin altında, aeroporta çıxış nöqtəsində dayanıb ordanburdan, daha çox ürəkaçan şeylərdən danışırdıq. Rast gələn tanışlarımızla, dostlarımızla nəzakətlə, mehribanlıqla salamlaşır, gözlədiyimiz suallarına – aeroporta nə üçün belə dəstə ilə gəlib çıxmağımıza – laqeydliklə, üçaylıq yay tətilinə çıxmağımızın sevincini ört-basdır eləyə-eləyə cavab verirdik.

Bir saatdan sonra söz-söhbətimizə ara verdik, tanışlarımızla da elə belə, dilucu, xalaxətrin qalmasın deyə salamlaşdıq ki, sorğusualın arası kəsilsin.

Qalaq-qalağa vurulmuş musiqi alətlərinin və çamadanlarımızın yanında sakitcə dayanmışdıq; aeroportdakı gedişatı maraqla, diqqətlə izləyirdik. Burda, bircə bizim qrupdan başqa, hamı, hər şey hərəkətdə idi...

Vaxtımız çox olduğundan hər şeyi dönə-dönə, necə lazımdı götür-qoy elədik. Üçüncü piştaxtanın yanında, uçuşuna əllicə dəqiqə qalmış "Bakı-Simferopol" reysinə biletlərin və baqajın qeydiyyatdan keçirildiyi yerdə də canlanma vardı; biletlərimiz və pasportlarımız yanımızda olmadığından təkcə biz qeydiyyatdan kənarda qalmışdıq; üç gün əvvəl, konsert proqramının məşqindən sonra, Tağıyev yoldaş pasportlarımızı almışdı, dünən axşam da hamımıza bir-bir zəng vurub dönə-dönə tapşırmışdı ki, düz vaxtında, bir dəqiqə belə gecikmədən, miniyə iki saat qalmış aeroportda olaq...

O, birdən-birə, gözlənilmədən peyda oldu – ana və uşaq otağından çıxıb, narazı bir görkəmlə bizə yaxınlaşdı.

– Neyləyirsiniz burda? – Acıqlı səslə soruşdu.

– Bilyard oynayırıq, partiyası üç manatdan, üstəlik – uduzanın hesabına marker piməsi, – sözlər Seymurun ağzından güllə kimi çıxırdı.

Bu yerdə onun cəsarətinə heyran qaldım, hərçənd, o, sözü həmişə "yumora büküb" deyər, fərqi yoxdu, amma məncə, bu dəfə yumora ehtiyac da yox idi...

...Seymurdan fərqli olaraq, məndə zarafatlıq hal nə gəzirdi. Elə bil indicə bütün aydınlığı ilə hiss elədim ki, mən bu qastrola necə böyük ümid bağlayıram.

– Elana qulaq asmaq lazımdı! – Tağıyev yoldaş dodaqaltı mızıldandı; mən də ürəyimdə ona haqq qazandırdım. Doğrudan da elana qulaq asmağa nə varmış ki... Eşidərsən – özünə xeyir olar! – Beş dəfə dedilər! Getdik. – Biz onun arxasınca düşdük. – Mən təkəm, siz çox!..

– Siz deyən də çox deyilik, – Seymur "düzəliş" verdi, – solistlə bir yerdə səkkiz adamıq.

– Bax, siz, orkestrin rəhbəri kimi, hamını deputat otağına yığa bilərdiniz! – Tağıyev yoldaş hirsini gizlədə bilmədi. – Sizin baqaja görə mən gecikdim, instrumentlərinizi təyyarəyə yükləməyə icazə almaq üçün pilotdan xahiş eləmək lazım gəldi. – Birdən dayandı, barmağını yuxarı qaldırdı. – Buyurun, altıncı dəfədi elan verirlər!

"Flaminqo" estrada qrupundan xahiş olunur ki, ikinci mərtəbəyə, deputat otağına qalxsınlar. Təkrar edirik...".

Səssizcə bir-birimizə baxdıq...

Tağıyev yoldaşın hirsinin soyuması üçün elə bil bircə bu kifayət imiş... İndi onun üzündə utancaqlıq vardı, alnının tərini silib günahkarcasına gülümsündü.

– Bağışlayın, – dedi, özü də, nə üçünsə, üzünü mənə tutdu. – Bağışlayın. Yadımdan çıxıb sizə deyəm, orkestrinizə rəsmi ad verilib: “Flaminqo” qrupu... Necə unutmuşam! Hə, ad xoşunuza gəlirmi?

Təyyarəyə minmək üçün biz, doğrudan da, deputat otağından keçib getdik. Nə üçünsə, fikirləşirdim ki, bizi qapıdan geri qaytaracaqlar, başımıza çox gəlmişdi, amma elə olmadı... Palmalı, fəvvarəli iri, sərin otaqda rahat, yumşaq kreslolar qoyulmuşdu, üstünə də qəzet-jurnal düzülmüşdü. Bir neçə kişi və qadın stolun arxasında əyləşib söhbət eləyirdilər, gözucu bizə baxıb üzlərini çevirdilər.

Tağıyev yoldaş tapşırdı ki, o gələnə kimi burdan tərpənməyək. Dedi, özü də yox oldu. Pəncərədən bizim təyyarəyə baxıram, sərnişinlər trapın yanına toplaşıblar, hələ minik başlanmayıb.

Qapının ağzında mavi geyimli qız göründü və bizə sarı addımladı.

Qalaq-qalağa vurulmuş çamadanların, futlyarların yanında ayaq saxladı, dinməzcə baxdı, nə üçünsə başını buladı, yaxınlaşıb sərt, amiranə səslə soruşdu:

– “Flaminqo” qrupu sizsiniz?

Heç birimiz cavab vermədik, özü də nahaq yerə, çünki qonşu stolun arxasında əyləşənlər söhbətlərinə ara verib, hamısı birdən bizə sarı boylandılar.

Biz Seymura baxırdıq, onun cavabını gözləyirdik, o da, eləmədi tənbəllik, növbətçi qıza göz vurdu. Qız yaman heyrətləndi, təkcə o yox, biz hamımız məəttəl qaldıq, elə Seymurun özü də...

– Bəli, “Flaminqo” qrupu bizik, – Adil bunu deyib ayağa qalxdı.

Axır ki, qız qəzəbli baxışlarını Seymurun üzündən yayındırdı.

Bizimlə söhbət eləyəndə də hərdən beləcə qəzəblə Seymura baxırdı və hər dəfə də bu zırrama ona göz vururdu. Sonralar Seymur, bu həngaməsini, özü demiş, “nəzəri cəhətdən əsaslandırmağa” çalışsa da, məndən başqa hamı ona inansa da, dəxli yox idi; bircə mən bilirdim ki, o, birinci dəfə qorxudan göz vurub – elə bilib qız bizi burdan çıxarmağa gəlib, sonra da, ətalət qanununa əsasən, gözü sözünə baxmayıb...

– Mən gəlmişəm sizi təyyarəyə ötürəm. Götürün şeylərinizi, arxamca gəlin!

Biz sərnişinlərin arasından keçib təyyarəyə birinci mindik.

Qapının ağzında bizi Tağıyev yoldaş qarşıladı...

Tapşırdı ki, şeylərimizi tez yerbəyer eləyək, sonra da hamımızı təyyarənin komandiri və şturmanı ilə tanış elədi. Onlara nə demişdisə, ikisi də bizimlə çox hörmətlə danışırdılar. Komandir İL-18-də ilk dəfə uçduğumuzu bilib, təyyarə havaya qalxandan sonra bizi kabinəyə dəvət elədi, biz də borclu qalmadıq – onları konsertlərimizə dəvət elədik...

Tağıyev yoldaş biletlərimizi, pasportlarımızı özümüzə verdi, üstəlik, hərəmizə bir ağzıbağlı zərf də “bağışladı”.

Biz öz yerlərimizi tutandan sonra sərnişinləri təyyarəyə buraxdılar.

Zərfi əlüstü açdım; kağız pul, xırda pul, bir də dümağ kağız...

cəmi yüz iyirmi manat 40 qəpik... Adilin zərfindən cəmi doxsan beş manat çıxdı. Sonra Tağıyev yoldaş bizə aydınlaşdırdı ki, bu, gələcək qazancımızın avansıdı. Elə bil yuxu görürdük, nağıla düşmüşdük!

Yuxuda olduğu kimi fikirləşirdim ki, bunun axırı yoxdu. Onun yeri mənimlə yanaşı idi, oturan kimi soruşdum: ekipajın bizə belə qayğı göstərməsi nə ilə bağlıdı? Üzümə diqqətlə baxdı, dedim indicə gülümsəyəcək, yox, gülümsəmədi, ciddi tərzdə dedi:

– Hamınız birdəfəlik bilin ki, sizin gözəl musiqiçi olmağınıza söz yoxdu. İndiyə kimi kölgədə qalmağınız təsadüfidi. Darıxmayın, hər şey yavaş-yavaş yoluna düşəcək. İnanmırsınız? – Gah mənə baxdı, gah da Adilə.

Mən razılıqla başımı tərpətdim, axı bilmirdim zarafat eləyir, yoxsa ciddi danışır.

Simferopolda, aeroportda bizi filarmoniyanın nümayəndəsi, cavan bir oğlan qarşıladı, dedi ki, "turnemiz" Yaltadan başlayacaq.

Tağıyev yoldaşla – ona adı və atasının adı ilə, Davud Balayeviç deyə müraciət elədi – Valera çox hörmətlə danışırdı, bir sözlə, nəzakətli, qayğıkeş adama oxşayırdı. Sonra aydın oldu ki, Valeranı bizə Tağıyev yoldaşın xahişi ilə təhkim eləyiblər, sən demə, onlar çoxdan, əvvəlki qastrol səfərlərindən tanış imişlər. Biz şeylərimizi "Latviyaya" yükləyəndə onlar bir neçə dəqiqəliyə kənara çəkildilər, Tağıyev yoldaş qayıdanda kefi daha da kökəlmişdi. Bakıda proqramı məşq elədiyimiz günlərdə hiss eləmişdik ki, o, nə yolla kefini duruldur. Düzdür, biz onu heç vaxt içkili görməmişdik, təkcə gözlərinin işıltısından hiss eləmişdik ki, Seymur demişkən, "bu yoldaş çaxır – meyvə sarıdan" korluq çəkmir. "Korluq çəkmədiyini" onda duymuşdum ki, Tağıyev yoldaş filarmoniyanın bufetində piştaxtaya yaxınlaşıb bufetçiyə salam verən kimi o, bir stəkan konyak süzüb, yanına da para duzlu xiyar qoymuşdu... O, Seymuru görsə də, salam verməmişdi, konyakı başına çəkəndən sonra, üstündən bir neçə dəqiqə keçmiş zalda əyləşib bizim məşqimizə tamaşa eləmişdi. Cəmi bir-iki irad tutmuşdu, həm də yerli-yerində...

Musiqiçilərə nə iradını bildirərdi, nə məsləhət verərdi, fasilədə, ya da məşqdən sonra səhnəyə qalxıb Seymura yaxınlaşardı, özü də elə yaxınlaşardı, elə danışardı ki, guya qarşısındakı "Yekəpər" ayamalı Seymur yox, ən azı Eddi Rozner, ya da Maks Qreqerdi "Maestro, sizə elə gəlmədi ki..." Əvvəllər Seymur "maestro" sözündən diksinərdi, ona, həm də bizə birtəhər baxardı, bizə də elə gələrdi ki, Tağıyev yoldaş yaxşıca ələ salmaq yolu tapıb; "maestro" sözündə ironiya olub-olmadığına şübhə ilə yanaşsa da, sonra yavaş-yavaş alışdı. Onun tapşırığı ilə Seymurun hazırladığı konsert proqramını da, iki-üç musiqi nömrəsi əlavə etməklə bəyəndi. Seymur mübahisə eləmək istədi, Tağıyev yoldaş ona elə baxdı ki, mübahisəyə yer qalmadı; dedi ki, Seymurun etirazları ilə razıdı, amma düzəlişə mütləq ehtiyac var, çünki orkestrin konsertləri vakuumda, yaxud fil sümüyündən tikilmiş qəsrdə yox, camaatın arasında olacaq, onun tələblərinə, arzularına cavab vermək hamımızın borcudu...

Biz, dənizin lap qırağındakı "Oreanda" mehmanxanasında yerləşdik.

Valera açarları gətirəndə aydın oldu ki, üç nəfərə təkadamlıq nömrə verilib – Tağıyev yoldaşa, Seymura, bir də mənə. Qalanları iki-iki qalacaq. Valeraya yaxınlaşıb, Adil eşitməsin deyə lap

yavaşcadan xahiş elədim ki, ikimizə – Adillə mənə bir nömrə versin. Valera gülümsündü, dedi ki, gecdi, onsuz da ikiadamlıq nömrəmiz çatışmır...

Tağıyev yoldaş saatına baxıb elan elədi ki, nömrələrdə yerlərimizi tutmağa və yeməyə cəmi əlli dəqiqə vaxt verilir, sonra hamı onun nömrəsinə yığışmalıdı.

Görüşdüyümüz ilk gündən hiss eləmişdim ki, Tağıyev yoldaş xoşagələn, ürəkaçan nə varsa, hamısını gözlənilmədən eləyir. Otağın bütün pəncərələrindən tünd-mavi sinəsində orda-burda yelkənli qayıqlar ağarışan dəniz görünürdü. İlk baxışda adama elə gəlirdi ki, nə mehmanxananın qabağındakı sahil var, nə də dənizin üstündəki gəzinti meydançası, sanki dənizin sərin suyu ürəkaçan şırıltı ilə binanın pəncərələrini döyəcləyirdi...

Otağımızın mənzərəsindən baxanda dəniz gözümüzü oxşadığından, rahat yar-yaraşıqlı mebellə bəzədilmiş geniş qonaq otağının küncündəki royalı da görmədim. Özü də bu, bəzi yerlərdə olduğu kimi işım-işım işıldasa da, dekorasiya rolunu oynayanlardan deyildi, səslənməsinə görə seçilən qədimi “Simmerman” idi. Bir neçə akkord vuran kimi, bir-iki passaj çalan kimi buna inandım.

Mən əyləşib nə isə çalırdım, amma fikrim royalda deyildi, səhərdən bəri Adilin hərəkətlərində çox şeylər müşahidə eləmişdim...

Vanna otağından gələn su şırıltısından bilinirdi ki, Adil duşxanadadı.

Oxumadan, fıştırıq çalmadan, bir dəfə də olsun məni dindirmədən!..

Bu – bir! On dəqiqə bundan əvvəl yataq otağında şeylərini yerbəyer eləyirdi. Yenə də dinib-danışmırdı. Təyyarədə əlüstü mənim gözümə yuxu getdi, amma indi xatırlayıram ki, aeroportda da, mən uşaqlarla deyib-güləndə də onun burnu yer süpürürdü.

Bu iki, bu da üç!..

– Burax başını, boşla! – Adilə məsləhət verirdim. Mənim fikrim budu: o sənə layiq deyil. Eşidirsənmi, layiq deyil! – Hiss eləyəndə ki, Adil etiraz eləmək istəyir, özüm də bilmədən bağırdım. – Qıraqdan hər şey aydınca görünür. Tüpür hər şeyə, boşla getsin! – Mən təsəlli verməyin “klassik formasına” keçmişdim, səsimdə, baxışımda inam, qətiyyət vardı, amma ürəyimdə – yox!..

– Qız mənə dedi ki, indiyə kimi xoşuna gələn, elə indi də xoşuna gələn bircə sənsən! Sən! – Adil hirslənmişdi.

– İndi gördün ki, onun adamlığı yoxdu? Özündən söz quraşdırıb ki, sən qısqanasan.

– Mənim qısqanmağım onun nəyinə lazımdı? – Başını bulayıb tənbəl-tənbəl gülümsündü Adil. – O düz deyir. Telefonla o gecəki danışığınızı da mənə dedi. – Köntöy-köntöy mənə baxanda ona yazığım gəldi. – Bəs onunla danışdığını sən niyə mənnən gizlədirdin?

Bilsəydim onun zəng vurduğunu, bəlkə də heç dünən görüşməzdim.

– Gedək! – dedim, kreslodan onu qaldırıb əlindən tutdum, qapıya sarı apardım. – İstəyirsən inci, istəyirsən incimə, sözümü deyəcəyəm: o alçaq, yaramaz adamdı! Kütün, daşürəklinin biridi!

Sənin kimi insanı tanıya bilmirsə, onun ağlına, zövqünə də şübhə P a s s a j – musiqi əsərinin virtuoz xarakterli parçası eləyirəm. – Ancaq Adili yaxşı tanıyanlar – məni, ata-anasını da saymaqla cəmi üçcə adam! – onun indiki vəziyyətini təsəvvür eləyə bilərdilər, hələ bunun sonrasını demirəm. “Yaşıl geyimli qız”a kimi Adil heç kəsi bəyənməmişdi. Hə, iki il bundan əvvəl, xam torpaqlarda olanda da nə isə baş vermişdi.

O yay, əsgərliyimizi başa vurandan sonra, evə getməzdən əvvəl, özümüzün razılığımızla polk musiqiçilərinin bir neçə nəfərini Aktyubinsk vilayətinin Dombarovka kəndindəki “Severnı” sovxozuna ezamiyyətə yolladılar. Adi geyimdə bir neçə konsert verdik, onda Adil klarnetini saksafona dəyişmişdi, repertuarımız da çox məhdud idi – “Buhenvald harayı”, “Ruslar müharibə istəmirlər”, bir də beş-altı mahnı... Bir həftədən sonra bizi qonşu sovxoza göndərdilər, orda tələbələr və mexanizatorlar üçün iki-üç konsert verməli idik. Biz ora axşam düşəndə gəldik, “QAZ-23” markalı, motoru gücləndirilmiş yeni yük maşınında. Maşını Baltik flotunun keçmiş dənizçisi, bizim dostumuz, havadarımız Jora sürürdü.

Ola bilsin, hələ neçə-neçə il bundan sonra da mən bu fikirdə qalacağam ki, avqustun o iki həftəsi Bakıya gələnə kimi mənim ömrümün ən yaddaqalan, unudulmaz günləridir.

Dediyim sovxozda üç kombaynın və üç traktorun işıqlandırdığı rəqs meydançasında axır ki, neçə ildən sonra bir qız Adilin xoşuna gəldi. Konsertdən sonra onları bir yerdə görəndə ürəyimə damdı...

Növbəti rəqs musiqisi çalınana kimi Adil o qızla – mütənasib bədənli, suyuşirin, Leninqrad Tibb İnstitutunun tələbəsi ilə söhbət elədi. Tələbə yoldaşlarından fərqli olaraq o qız boyca Adildən gödək olduğundan, nədənsə, daha qəşəng, daha yaraşıqlı görünürdü.

Adil göyün yeddinci qatındaydı, o, qızla rəqs elədi. Fasilədə onu kimsə qırağa çağırdı.

– Bura gəl görüm saksafon! – O, amiranə səslə həm də əlilə Adili çağırırdı.

– Getməyin! – Qız Adilin qolundan tutdu. – O, xuliqanın yekəsidir!

Elə hey kiməsə sataşır, ağzına gələni deyir. Getməyin! Burda hamı ondan qorxur.

– Mən saksafon deyiləm! – Adil ikinci dəfə ona sakitcə etiraz eləyirdi.

– Düz deyirsən, – xuliqan gözlənilmədən razılaşdı. – Səndən heç "saksafon" olar?! Sən – heç nəsən, bildin? Cırtdanın biri, cırtdan!

Amma gəlmə qızları nə yolla olur-olsun, qapazlamaq istəyən "yerli xuliqanın" sözündə bir balaca həqiqət var idi – mətləbə heç dəxli olmasa da! – Adil quş kimi yüngüldü...

Jora ilə özümüzü ora yetirəndə, Adil başını elə hey rəqibinin üzünə çırpırdı...

Adili ondan qoparıb rəqs meydançasından aralayanda aydın oldu ki, "yerli xuliqan" "kişi" adamdı. O, dəsmalını burnuna tutmaqla – özünə ilk tibbi yardım göstərməklə bərabər, açıqca vəd elədi ki, yaxın günlərdə Adilə əlini qatıb cinayət törədəcək, onu o dünyalıq eləyəcək...

Adil aradan çıxmışdı.

Bütün gecəni Jora ilə çöllərdə maşın sürüb axır ki, onu tapmışıq.

Bizə birinci sözü bu oldu: "Bu dəqiqə burdan getməliyik!" Elə də elədik. Səhər "Severnı" sovxozuna, bir neçə gündən sonra – Bakıya.

Leninqradlı tələbə ilə sağollaşmadı – dedi ki, utanır...

Ehtiyatlı adam olduğuma görə özümdən razı qalmışdım; nə yaxşı ki, onu tək qoymadım, nə yaxşı ki, bir nömrədəyik... Fikirləşdim ki, onu daha heç vaxt tək qoymaq olmaz... Mənim nömrəm Tağıyev yoldaşın qaldığı nömrəyə çox oxşayırdı, amma ikicə cəhətdən fərqlənirdi: royalın olmamasına, bir də onunku qədər axar-baxarlı olmamasına görə, bizim yığışdığımız otağın pəncərəsi küçəyə açılırdı.

Valera radionu açan kimi öz səsimi eşitdim. Veriliş "Xeyirxahlıq çiçəkləri" mahnısı ilə başladı. Sonra bir qadın orkestrimiz haqqında danışdı. Özümü itirdiyimdən – ilk dəfə idi ki, radioda öz səsimi eşidirdim – diktorun nədən danışdığını yaxşı tuta bilmirdim. Hətta onu da hiss eləmədim ki, biz Bakıdan yola düşməzdən əvvəl hazırlanmış lent yazısıdı...

Veriliş on beş dəqiqə çəkdi. Tağıyev yoldaşın üzündə narazılıq vardı, axırda dedi ki, keyfiyyətsiz yazıblar, solo çalğılarına qulaq asmaq olmur...

İlk dəfə o qədər də böyük olmayan yay kinokonsert zalında çıxış elədik. Maraqlı radio verilişinə, şəhərin hər yerinə vurulmuş şəkilli afişalara baxmayaraq, adam az idi, zalın üçdə biri dolmuşdu. Özümüz bir saat əvvəl gəlmişdik, konsertin başlanmasına yarım saat qalana kimi kinokonsert binasında – zalda, məşq otağında və səhnədə – bizdən və gözətçidən başqa heç kəs yox idi. Başlamağa bircə dəqiqə qalanda Davud Balayeviç sonuncu kərə (bəlkə də onuncu, on beşinci dəfə idi!) qapının gözlüyündən zala boylandı, sonra üzümüzə baxdı, qastrolun başlanmasına görə zərrə qədər sevinmədiyimizi görüb dodaqlarını çeynədi, üzünü bizə tutub konsertqabağı nitq söylədi:

– Darıxmayın, hər şey qaydasında gedir. Siz mənə inanın! – Seymur olmasaydı, bəlkə də Davud Balayeviç nitqini burdaca qurtaracaqdı; Davud Balayeviçə elə gəldi ki, Seymur pıqqıldadı, amma fasilədə Seymur dedi ki, sadəcə olaraq köks ötürüb... – Burda gülməli bir şey yoxdur! – Davud Balayeviç hirslənmişdi. – Siz nə bilirdiniz?

Elə bilirdiniz camaat işini-gücünü buraxıb sizin konsertə axışacaq? Axı sizi heç kəs tanımır. Əgər beşinci konsertdən sonra kassada bircə dənə bilet qalsa, onda mənə nə istəyirsiniz deyin!

Onda nə mənim, nə sizin bir qəpiklik qiymətiniz var...

O, pərdə arxasına keçib mənimlə yanaşı oturdu. Uşaqlar da pərdə arxasında, səhnədə öz yerlərini tutmuşdular. Seymur, başını qaldırmadan, hər iki əli ilə asta-asta royalın dillərini basmaqla səssiz akkordlar vururdu, hansı notları götürdüyünü mənim dayandığım yerdən təyin eləmək çətin olsa

da, heç nə eşitməsəm də inanırdım ki, o, Motsartın “Rekviyem”ini çalır. Bizim uşaqlar ona baxırdılar. Gözləyirdilər. Davud Balayeviç də nə üçünsə ona sarı döndü, halbuki, konsertin aparıcısı royalın yanında idi, o da səssizsəmirsiz Seymura baxırdı.

Yekəpər (Seymurun çoxdankı ləqəbi idi) klaviaturadan başını qaldırdı, rəngi ağappaq ağarmışdı, harda olduğunu unutmuş kimi heyrətlə, küt nəzərlərlə bizə sarı boylandı və soruşdu:

– Başlayırıq? – Heç kəs cavab vermədi. – Hə, başladıq!

Seymur həmişəki kimi cəld başını tərpətdi...

* * * “Oreanda”nın ikinci mərtəbəsində, kafedə nahar eləyirdik.

Günün işığı yandırmasa da, par-par parıldayırdı, dəniz yuxuluyuxulu yırğalanırdı, ağappaq qağayıların sevinc dolu qışqırtısı aləmi başına götürmüşdü, qranit döşənmiş sahildə camaat qayğısız-qayğısız gəzinirdi, gülərüz, mehriban ofisiantlar isə stolların arasında vurnuxurdular.

Müdirin (o, iki dəfə konsertimizdə olmuşdu) tapşırığı ilə birləşdirilmiş stollar arxasında əyləşmiş Davud Balayeviç asta-asta, tələsmədən “musiqi və aşpazlıq sənətindən” danışırdı. Dörd saat çəkən səhər məşqindən sonra yaman acmışdıq, odur ki, hamımız iştahla girişmişdik yeməyə. Elə bu vaxt hardansa Valera gəlib çıxdı. Həmişə əyləşdiyi stolun, daha doğrusu, bizim yanımızdan keçib Davud Balayeviçə yaxınlaşdı. O, söhbətinə ara verib Valeraya baxdı, sonra kağızla dodaqlarını silib yenə baxdı. Valera yerində donub qalmışdı.

– Anşlaq! – Bir neçə anlıq sükut içində onun səsi birdən-birə guruldadı.

– Əzizim! – Davud Balayeviç ofisiant qızı çağırdı. Sonra üzünü Valeraya tutub: – Əşi bunu de də! Heykəl kimi dayanıb durursan...

Mən nə demişdim?!

– Siz demişdiniz anşlaq beşinci konsertdə olacaq, amma indi yeddincidi...

– Kaş ki, elə belə səhv eləyim! – Davud Balayeviç ofisiant qızın əlindən stəkanları ehtiyatla ala-ala dilləndi. – Bu münasibətlə mən... – Heç kəsə müraciət eləmədən dodaqaltı mızıldandı; mənə elə gəldi ki, onun səsində üzrxahlıq intonasiyası da vardı, bəlkə bu, ondan irəli gəlirdi ki, Davud Balayeviçin içdiyini birinci dəfə görürdüm. – Uşaqlar! – dedi. Mən sizi təbrik edirəm. Bu gün sizin gözəl gününüzdü. – O, üz-gözünü turşutmadan, yavaş-yavaş içdikcə ətim ürpəşirdi, boşalmış stəkanı stolun üstünə qoydu, ağzına bir şey almadan, sözünə davam elədi: – Hər şey yaxşı olacaq, ürəyinizcə olacaq, təki... Gözlənilməz bir şey olmasın...

Yeməkdən sonra sahilə gəzməyə getdik. Hiss eləyirdik ki, üzümüzə diqqətlə baxanlar var – demək, bizi Yaltada tanımağa başlayırdılar.

– O da bala-bala özünə fikir verir, – Adil bağçada skamyada əyləşmiş Davud Balayeviçə baxa-baxa dedi. Doğrudan da geyimi pis deyildi; əynində modda olan boz kostyum, ayağında çəhrayı tuflilər, başında – yüngül, enli şlyapa... Onun diribaşlığına məəttəl qalmışdıq; hamıdan tez yuxudan oyanar, biz gözümüzü açmamış idarəyə baş çəkərdi – mehmanxanadan ora piyada on beş dəqiqəlik yoldu – bütün məşqlərdə olardı, hələ üstəlik, bizim nömrəyə gəlib mənim necə oxumağıma da qulaq asardı. Bu səhər dedi ki, məni Nikolay Fyodoroviç deyilən bir nəfərlə – Leninqrad konservatoriyasında onunla bir yerdə oxumuş dostu ilə tanış eləmək istəyir, istəyir ki, o, mənim oxumağımı eşitsin.

– Sənə ancaq xeyri olar! – Davud Balayev cümləni xüsusi vurğu ilə dedi. Kollektivin yeganə üzvüyəm ki, “sən” deyə müraciət edir.

– Nikolay Fyodoroviç musiqini gözəl bilir, özü də nüfuzlu adamdı.

Onun skamyasına çatmağa bir neçə addım qalmış, Davud Balayeviç ayağa qalxdı. İki tanışı – qadınla kişi – ona yaxınlaşdı. Onların səsini aşkarca eşidirdik. – O-o! Təsadüfə bax! Gör harda görüşdük!

Çox şadam! – Davud Balayeviç sevincək dilləndi.

Onun üzünü görməsəm də, səsini tanıdım. Əvvəllər heç nə haqda fikirləşə bilmədiyim günlərdə düşünürdüm ki, görəsən, onu bir də görəndə nələr çəkəcəyəm, nə deyə biləcəyəm görəsən...

Amma indi... O zaman mən belə bir görüşü heç xəyalıma də gətirməmişdim.

İndi o bilmir ki, bir neçə addımlığında dayanmışam, bütün dediyi sözləri də eşidirəm. Bu görüş lap ürəyimdən oldu. Heyif ki, barmaqlarımın ucu birdən-birə buza döndü, boğazım da quruyan kimi oldu; yəqin bu da təbiidi, orqanizm bu gözlənilməzlik qarşısında "öz sözünü" deməlidi, ya yox?!

Adil heyrətlə mənə baxdı.

– Bəlkə qayıdaq? – dedi.

– Niyə qayıtmalıyıq? – Özümü ələ alıb sakitcə cavab verdim. – Biz gəzməyə çıxmışıq, gedək öz yolumuzla. Qorxma, sən narahat olma, Adil!

– Əlbəttə, narahat olmalı nə var ki... – xiyabanla bir neçə addım atandan sonra Adil köksünü ötürdü. – Gör, aradan neçə il keçib!..

* * * Doğrudan elədi, gör neçə il keçib, amma hardan, hansı gündən hesablayasan? Bəlkə, ixtisasdan imtahan vermək üçün konservatoriyaya getdiyim gündən, həmin günün səhərindən başlayaq? Nə gözəl səhər idi! Yada düşəndə adamın qanı qaynayır... Yadımdadı, mən ütünü mətbəxə apardım, Mənzər xanım orda idi, səhər yeməyi hazırlayırdı.

– Ütülədin? Nə tez?!

Özünü saxlaya bilməyib otağa gəldi, stulun başına keçirdiyim köynəyi götürüb baxdı, söz tapmayıb başını buladı...

Gələn dəfə gərək elə ütüləyəm ki, baxanda danlamaq üçün bir şey tapsın... Adamın yazığı gəlir, o yana, bu yana çevirir, deməyə söz tapmır; köynək elə bil ağappaq metaldı, nə bürüşüyü, nə ləkəsi var, özüm lilə vurmuşam, kraxmallamışam, sonrası – nəm köynəyi ütüləmək adama ləzzət verir. Çesuça şalvarımı da geymək istəyirdim, hər halda, yay sessiyasının əsas imtahanını verəcəkdim, özü də ixtisasdan, həm də ürəyimə dammışdı ki, yaxşı qiymət alacağam.

Əvvəlcədən bilirdim ki, harmoniya fənnindən batacağam, odur ki, imtahana gedəndə parusin şalvarda idim. Onsuz da "çesuçanı" azaz geyməyə çalışırdım, iki il idi daha "münasib" şalvarda gəzirdim.

Əynimdəki köynəyə, şalvara baxa-baxa, əmidostum dedi:

– Görkəmin pis deyil, – o, ancaq görkəmimə – geyimimə işarə vururdu, vəssalam. – İmtahanı verə biləcəksən?

Mən başımı tərpətdim. O, şifonerə yaxınlaşdı, pul götürüb mənə uzatdı: – Götür, əmin sənə cibxərcliyi qoyub. Həftənin axırınacan...

Qismətə bax! Gör necə yerinə düşdü! Həftənin axırını deyə bilmərəm, amma bu gün iki manat vacib lazım idi, – Adillə danışmışıq, mən imtahan verəndən sonra bulvara çıxacağıq, deyirlər axşam orda nə isə keçiriləcək, konsert veriləcək. Adil öz dostu ilə gələcək, dostunun da adı bilmirəm Seymurdur, yoxsa Teymur. İkisi də hansı klubunsa orkestrinin üzvüdür. Adil dedi ki, yaxşı, məzəli oğlandı, deyib-güləndi, amma danışığının da yerini biləndi, Deyir çəkisi doxsan kiloqramdı, özü də büsbütün əzələdi... Mərclə mis məftili sağ yumruğu ilə iki bölür. Yəqin bulvara İçərişəhərdən də çox uşaq axışıb gələcək, onun dostunun üzünə bircə dəfə baxan – öz payını götürəcək...

“Dörd” aldım, buna da şükür! Düzü, “beş” almaq ümidində idim – Listin li-bemol konsertini lap gözüyumulu da çalaram. Kadensiyadabir az ilişdim, neyləyim, gətirmədi mənimki; axı, mən onu on dəfə çalmışdım, təkrar eləmişdim, Rozaliya da çox razı qalmışdı, amma on birincidə... Özü də imtahanda, nə isə... Elə bil sol əlim Kadensiya – musiqi frazasına tamamlayıcı və ya fasilə xarakteri verən harmonik ifadə sözümə baxmırdı. Babamın xatirinə “beş” də verə bilərdilər, əslində “beş” mənə heç lazım deyildi, çünki harmoniyanın ucbatından onsuz da təqaüd almaq batdı... Mən aşağı, zala düşdüm, Rozaliya Naumovnanın yanında oturdum, pıçıltı ilə dedi:

– Necə gətirmədi sənin bəxtin! Gör ey! Deyəsən, yaman ürəyinə salırsan?

Mən köks ötürdüm, yalandan da olsa özümü məyus göstərməyə çalışdım.

– Eyibi yox, Rozaliya Naumovna, – dedim. Gələn il “beş” alaram.

– Nəzakət xatirinə bir az da yanında əyləşdim, sonra, heç onun xəbəri olmadan aradan çıxdım.

Evimizə yaxınlaşanda gördüm ki, Adil gözləyir. Şalvarının ayağını çırmalayıb sancaqlamışdı, velosiped sürmək istəyirdi.

– Seymur hələ gəlməyib. Bir dəqiqə məni gözlə.

– Yaxşı, eqoistlik eləmə, imtahandan təzə çıxmışam, qoy mən sürüm, fikrim dağılsın. Bağın başında bircə dəfə fırlanıb qayıdaram.

Cəmi səkkizcə dəqiqəyə...

– Yalan demirsən ki?.. Bircə dövrə, ha!

– Bu nə sözdü, inciyərəm...

Velosiped elə bir-iki dəfə pedalı hərləməyə bənd imiş – prospektlə götürüldü, nə götürüldü, təkcə asfaltla yağ kimi sürüşən təkərlərin səsini eşidirəm. Necə gözəldi! Sürətlə gedəndə – lap elə velosiped olmasın, sarsaq bir tramvay olsun, fərqi yoxdu – elə bil qanadlanıb uçursan, sevincdən ürəyin atlanır, mahnı oxumaq istəyirsən.

Tramvayda oxu görüm necə oxuyursan, amma burda... Nə qədər istəyirsən oxu, kimdi səni eşidən? Sürəti daha da artırıram, özözümə zümzümə eləyirəm...

Bax, elə bu yerdə o axmaq mənim yolumun üstünə çıxdı! Beşcə metr qalmış, necə bağırdımsa, məni gördü, yaman qorxdu, dovşan kimi büzüşdü, elə dovşandan sən deyən böyük deyil, on yaşı ancaq olar. Yoldan çıxmaq əvəzinə başladı yerindəcə irəli-geri hərəkət eləməyə. Velosipedin sükanını axıra kimi sağa burdum, qalanından heç xəbərim olmadı – qabaq təkər yolun kənarındakı qranit haşiyələrə necə toxundusa, velosiped mənimlə birlikdə iki-üç dəfə aşdı.

Yoldan keçənlə də toqquşub, bilmirəm mən, yoxsa velosiped...

Bir də onda ayıldım ki, asfalta yıxılmışam, onu birinci dəfə idi belə yaxından görürdüm. Başımı qaldırdım, xeyli adam yığışmışdı, elə bil, nədənsə, möhkəm qorxmuşdular. Ayağa durdum, ağzımda xoşagəlməz bir tam vardı; ürəyimi elə bulandırdı ki, bax, bu dəqiqə, hamının gözü qabağında qusacağımdan qorxurdum. Fikirləşdim ki, özümü yolun qırağındakı ağaca çatdıra bilsəydim, nə yaxşı olardı...

Elə də elədim; ağacı qucaqlayıb gözümü yumdum, deyəsən bir az özümə gəldim, sonra, gözümü açanda hiss elədim ki, alnımdan nə isə, isti bir şey axır...

Sanki yuxu görürdüm; qarşımda acıqlı bir kişi dayanıb, pencəyinin döş cibindən karton qutu çıxarır... O qutudan da yod ampulası, bir də pambıq çıxaranda yerimdə donub qaldım.

Bu kişi hardan peyda oldu görəsən? – Bunu soruşmaq əvəzinə deyirəm:

– Mənim bədənim yod götürmür, dərim səpir əlüstü!

Fikrindən daşındırmaq üçün tez-tələsik mızıldandım, amma kişi məni eşitmirdi, öz işində idi, ampulanı sındırıb pambığın üstünə yod tökürdü. Mənim dərmandan çoxdan zəhləm gedirdi, o da ola yod, nə bilim "qorçiçnik"...

– Qanını zəhərləməkdənsə, qoy dərin yansın! – Kişi də teztələsik dilləndi, yodlu pambığı alnıma sıxıb heç yayınmağa aman vermədi. Ağrıdan dişlərimi bir-birinə sıxdım, ağrı elə güclü idi ki, başımın hərlənməsi də öz-özünə keçdi.

Elə bu yerdə bir qadın da mənə yaxınlaşdı, onun da üzündən zəhrimar yağırdı. Əvvəlcə bu yaraşıqlı qadın mənə tanış gəldi, sonra...

gördüm ki, donu sağ çiynindən kəmər yerinə kimi cırılıb, əlilə tutatuta qalıb. Donun materialına fikir verəndə isə heyrətləndim, bədənimdən bir gizilti keçdi. Bu parça haqda çox şey bilirdim, onu da bilirdim ki, dünyanın nadir, həm də qiymətli parçasıdır. O qədər qiymətlidir ki, dərzinin yanında qoymaq olmaz, gözündən yayınan kimi ucundan-qulağından çırpışdırar... Cırılmış donu görəndə anladım ki, yaman ilişmişəm. Üç il bundan qabaq belə bir həşyəli parçadan Mənzər xanım özünə don tikmişdi.

– Bağışlayın, – dedim ona.

Ona görə üzr istəmirdim ki, bu cür donu korlamışdım – bu yerdə üzrxahlıqla yaxa qurtarmaq da olmazdı – ona görə üzr istəyirdim ki, velosipedlə onu yıxmışdım.

– Məni üzrlü sayın...

Qadın heç nə demədi, gülümsündü, sonra da çıxıb getdi.

Hardansa milisioner peyda oldu. Bir əli ilə velosipeddən yapışdı, bir əli ilə də mənim çiynimdən.

– Kimindi bu velosiped?

– Yoldaşımındı, – deyirəm, – mənim dostumun...

– Aydındı... – Gedək! Eşitmirsən? Yeri görüm!

Yaramı sarıyan kişi mənə kömək eləmək istədi, amma milisioner heç onun üzünə də baxmadı.

– Mane olmayın, vətəndaş, sizə dəxli yoxdu, – dedi, çiynimdən yapışıb məni sürüklədi. Velosiped olmasaydı, onun əlindən çıxıb qaçmağa nə vardı ki, bu cür çəkmələrlə, böyründə də tapançası, heç mənim tozuma da çata bilməzdi.

– Onunla işiniz olmasın! – bu, donu cırılmış qadının səsi idi. Sən demə, qayıdıb gəlib. Yavaşdan, çox arxayınlıqla dedi. Milisioner gözünü ona zilləyib qaldı, yəqin nə edəcəyini bilmirdi. Elə bu yerdə, milis geyimində bir nəfər də bizə yaxınlaşdı – baş leytenant...

– Nə olub? – deyə soruşdu.

Amma soruşmazdan qabaq o, əlini gicgahına qoyub təzim elədi.

Mənə yox, milisionerə yox, donu cırılmış qadına.

– Bu oğlan, – dedi milisioner, – kiminsə... – elə belə də dedi, – kiminsə velosipedində bu qadını vurub yıxıb.

– Bu oğlanın heç bir günahı yoxdu, – qadın üzünü baş leytenanta tutdu. – Mən öz gözümlə gördüm, bir uşaq qəfildən onun yoluna çıxdı, o da... – Baş leytenant qadına cavab verincə o, bu dəfə mənə sarı döndü: – Sən də üst-başını qaydaya sal! – dedi.

Üst-başıma baxdım, bir kökdə idi ki, əlimi hər şeydən üzdüm.

Gör nə kökə düşmüşəm! Köynəkdəki qan ləkəsini yumaq olar, soyuq su ilə isladarsan, çıxıb gedər... Təzə köynəyimin sağ qolu cırıqcırıq olubsa, çesuça şalvarımın cırıq yerindən sağ dizim görünürsə...

– Deyəsən halın yaxşı deyil, eləmi? Xahiş eləyirəm, kömək eləyin, – o, velosipedə işarə elədi. Qolumdan tutdu, – gedək...

– Mən apararam, – baş leytenant velosipedi milisionerdən aldı.

Onların evinin alaqapısı lap yaxında idi. Liftə yerləşmədiyindən baş leytenant velosipedi pilləkənlə qaldırası oldu, biz onu yuxarıda, qapının ağzında gözləyirdik.

– Bağışlayın, – dedi qadın. – Sizə yaman əziyyət verdik.

Nə danışırsınız? – Baş leytenant sevincək dilləndi. – Boş şeydi.

Bəlkə bir kömək lazımdı? Mən sizin qulluğunuzda hazıram.

– Yox... Çox sağ olun, çox razıyam.

– İnciməyin. Bizim bu milisioner, necə deyim... özünü göstərmək istəyənlərdəndi...

– Narahat olmayın, hər şey öz qaydasındadı – qadın razılıqla gülümsünüb açarla qapını açdı. – Velosipedi bura qoyun. Çox sağ olun. Çox razıyam. Sən niyə qapının ağzında dayanıbsan? – Heyrətlə üzümə baxdı. – Keç içəri!

Mən içəri keçdim.

Girəcəkdə divarlara afişalar vurulmuşdu, döşəmədən tavana kimi: “Otello”, “Çio-Çio-San”, “Perikola”... Bu ki... Məryəm Qədridi!.. Mən onun səsini radioda eşitmişdim, vallarına qulaq asmışdım... Mesto-soprano, respublikanın xalq artisti...

– Bir dəqiqə burda əyləş, mən paltarımı dəyişim Bu royal mənə necə tanış gəlir! Qapağını qaldırdım, özüdür ki, var – “Mülbax!” Konsert royalı! Bilirəm. necə gözəl səsləndiyini çoxdan bilirəm... Lap çoxdan...

Mən yaxşıca bələd olduğum o royalın sağ küncündə moderator üçün deşik açılmışdı... Məktəbdən gələndə nə görsəm yaxşıdı?!

Gördüm, onun yerinə pianino qoyulub. Eh, bunun adı pianinodu, – özü donuza oxşayır... elə bil yeşiyin içinə neçə-neçə zəngli saat doldurublar. Birinci akkordu vuran kimi ətim ürpəşdi.

– Bir buna bax! – dedi Validə xala. – Xoşuna gəlmir! – Gözümüz aydın! O, təkcə konsert royalında çala bilər, vay-vay, müztrestin xəbəri yox imiş! Gör burnunu necə sallayıb?!

– O mənim babamın royalı idi!..

– Bəli, bəli! Babanın royalı. Baban özü pul qazanıb o royalı almışdı, özü də çalırdı. Amma, bilmək olmur, səndən bir şey çıxacaq, ya yox?! Adam kimi oxusaydın, bəlkə də satmazdılar royalı. O “üç”ləri ki, sən alırsan, elə bu pianino da bəsindi! Sənin müəlliminə verilən pulların nə müsibətlə qazanıldığını bilsəydin...

Not kağızları royalın üstünə səpələnmişdi. Debüssinin “Elegiya” sı... Adı xoşuma gəlməsə də, fikirləşdim ki, bu, nə isə, yaxşı bir melodiyadı...

Moderator – musiqi alətlərində səsin qüvvəsini nizama salan qurğu * * * – Al bu xalatı geyin, vanna otağında üst-başını nizama sal, – o, əynini dəyişmişdi, el bil boyu bir az balacalaşmışdı.

Vanna otağından eşidirdim, qadın harasa zəng vurub deyirdi ki, onu gözləməsinlər.

Qadının cırılmış donu bürmələnib küncə atılmışdı.

Qaldırıb baxdım, ondan zərif ətir iyi gəlirdi. Götürüb yenə də öz yerinə – kafelli vanna otağının küncünə tulladım, sonra köynəyimi, şalvarımı soyunub xalatı geydim. Bir az da dayanıb ətir şüşələrini, bankaları, kremli tübikləri gözdən keçirdim. Heç istəməzdim ki, kimsə məni bu xalatda görsün, iki mən boyda idi bu xalat.

Qadın məni bu yöndəmsiz xalatda görüb gülümsündü.

– Xahiş eləyirəm, varsa, mənə iynə, sap verin. – Nə qədər ki, qadın cırılmış donundan söz salmamışdı, şalvarımı tikib tezcə əkilmək istəyirdim.

– Əlbəttə, var, – dedi. – İynə də, sap da... Başın hərlənmir ki?..

Yaxşı ki, hərlənmir, demək, beynin zədələnməyib. Otur, bu dəqiqə gətirərəm.

Məcməyi ilə qayıdıb gəldi – çaynik, yanında stəkan-nəlbəki, bir az da piroq... Çaydan bir qurtum alanda gördüm ki, şalvarı götürdü, tez ayağa qalxıb əlindən aldım.

– Bağışlayın, özüm tikəcəm...

O, diksinən kimi oldu.

– Şalvarın üstündə belə əsməyi birinci dəfə görürəm, – dedi.

– Yox... elə deyil... Öz paltarımı gərək özüm tikəm. Belə yaxşıdı.

İynəni saplayıb işə başladım. “Vah-vay, batdım! Şalvar zay oldu. Burdan evə qədər geyinə bilərəm, vəssalam. Bütün yayı parusin şalvarda keçirməliyəm”. Şalvarı necə sırımağıma sakitcə tamaşa eləyirdi. – Ustalığa bax! Mən belə yamaya bilməzdim. Dərzisən? – Soruşdu.

İşimi qurtarıb, sapı dişimlə qopardım.

– Yox, dərzi deyiləm. Mənim familim – Məmmədbəylidi.

– Məmmədbəyli? Bu nə deməkdir? – Belə peşə də var?

Onun nə demək istədiyini, söhbətin nədən getdiyini başa düşdüm.

– Yox... elə peşə yoxdu. Bu mənim, həm də babamın – böyük bəstəkarın familidi.

– Böyük bəstəkarın?

Heyrətləndim. Bu, mənim babamı böyük bəstəkar saymayan yeganə adam idi... Özümü itirən kimi oldum:

– Əlbəttə... Böyük bəstəkarın... Onun adına Bakıda küçə də var, musiqi məktəbi də. Bilirsiniz, o nə yazıb?

– Niyə bilmirəm?! – O, babamın bütün yazdıqlarını laqeydliklə saymağa başladı: – operasının, iki simfoniyasının, hətta romanslarının da adını çəkdi. – Nə olsun ki, bunları yazıb? Böyük bəstəkar!..

Yaxşı pedaqoq idi, bəstəkarlığı da pis deyildi...

Heyrətlə ona baxdım – bu nə danışır belə?

– Yaxşı, – gülümsündü, – sənin babandan çox danışdıq deyəsən...

Bu arada köynəyimin də üzülmüş yerlərini yamayıb qurtardım.

– Bəlkə sən piroqu yeyəsən!

Piroqu yeməkdənsə getmək istəyirdim, amma bu da hörmətsizlik olardı. Axı hər nə isə, mən onu velosipedlə vurmuşdum... Ancaq özünü elə aparırdı ki, guya aramızda heç nə olmamışdı; bir az babamın dalınca deyindi, onu da, mən bilən, qəsdən demədi, bəlkə həqiqətən elə fikirləşir? Piroqu tələm-tələsik yeyib qurtardım, çayımı içə-içə düşünürdüm, tezcə sağollaşım, çıxıb gedim. Mənimlə üzbəüz əyləşib o da sakitcə çay içir, yaman fikirlidir. Birdən mənə elə sual verdi ki, udquna-udquna qaldım, çeçədim:

– Sən oxuyansan?

– Necə? Başa düşmədim.

– İşə düşdük... soruşuram səsin varmı? Heç oxuyursanmı?

– Hə... hərdən-birdən...

– Bura gəl görüm! – royalın arxasında əyləşib qapağını qaldırdı.

– Gəl, gəl, nə oxumaq istəyirsən? – “Məhəbbət tanqosu”? – O, heyrətlə başını buladı. – Gör nə tonallıq ürəyincədi?..

Mən oxuyub qurtardım, o susub, royalın qapağına dirsəklənib, yerindəcə quruyub qalıb.

Birdən mənə sarı çevrilib elə qəhqəhə çəkdi ki...

Mən dönüb qapıya sarı addımladım.

– Dayan, – dedi, – səsin var, tembri də gözəldi, obertonu da, amma bir de görüm, sözləri bu kökə salmağı hardan öyrənibsən?

Hmm... sözlərin bura nə dəxli var.

– Necə bəyəm? – Soruşuram.

– Necə? Hələ bir soruşursan da... Çox köntöy, bayağı... Dözmək olmur. Xətrinə dəyməsin. Bura bax, bəyəm sən bilmirsən ki, dünyada “ye” deyilən bir səs də var?

– Əlbəttə...

– Bəs niyə onu “g” kimi tələffüz eləyirsən? Məsələn, “sgrdüe” yaxşıdı, yoxsa “serdüe?” Bizim həyətdə, hətta küçəmizdə belə, mənim oxuduğum “Məhəbbət tanqosu” hamının xoşuna gəlir. Mən özümdən heç nə əlavə eləməmişəm, Bakı dəniz limanında birinci dəfə necə eşitmişəmsə – o axşam mahnını Yevgeniya Devis ifa edirdi – elə də oxuyuram.

Arif Kerefov da elə oxuyur.

O, elə hey qəhqəhə çəkib gülür, heç cür dayana bilmir. Axır məni də gülmək tutdu. O ki var güldüm, nədənsə, elə bil bir az yüngülləşdim.

– Siz hardan bildiniz ki, mən oxuyuram?

– Heç hardan... Elə belə hiss elədim; axı, sənin səsin elə bil boğazını deşib çıxır, hətta babanı tərifləyəndə də... Yaxşı, yaxşı, burnunu sallama, babandan daha bir kəlmə də demərəm. Sənin baban böyük bəstəkar olub. Razılaşdıq?

Bax, elə o anda, mən qapının astanasında dayanıb eşiyə çıxmaq istəyəndə, birdən-birə onun necə gözəl olduğunu gördüm. İstədim ona cavab verəm, təşəkkür eləyəm, sağollaşam onunla, amma elə bil dilim-ağzım bağlanmışdı. Axı bura qədər üz-üzə əyləşib arxayınca söhbət eləyirdik. Ürəyimdən qəribə bir hiss keçdi; (sonralar mənə aydın oldu ki, bu hiss iliyimə, qanıma hopubmuş) sən demə, mənə heç nə lazım deyilmiş – kaş o, həmişə beləcə yanımda dayanaydı, onun saçlarının ətrini duyaydım, dodaqlarını, mənə mehribanlıqla baxıb gülümsəyən gözlərini görəydim, cəsarət eləyib əlimi uzatsam, ona toxuna biləydim...

...Bizi səhnədən buraxmaq istəmirdilər. Uzun sürən alqışlar altında iki dəfə səhnəyə qayıtdıq, çalıb, oxuduq, axır ki, pərdə salındı.

Məncə, konsertlərdə Davud Balayeviç bizdən çox yorulurdu, hansı nömrə elan olunur-olunsun, o, pərdə arxasından bir anlığa da aralanmaz, gözünü orkestrdən çəkməzdi. Bu gün, pərdə salınan kimi irəli cumub hamımızın əlini sıxdı: “Təbrik, bax, bu əsl qələbədi!” Bircə şeydən məyus olmuşdu: birinci cərgədə iki yer boş qalmışdı, onun “nüfuzlu dostu” gəlib çıxmamışdı.

Qapının çıxacağında yenə xeyli adam dayanıb, bizi gözləyirlər, – indi, Yaltada o qədər tanışlarımız var ki... Elələri var, bütün konsertlərə gəlir. Davud Balayeviç onları “əsl incəsənət həvəskarı” adlandırır. Düzdür, Seymur yenə özünü saxlaya bilmədi, atmacasını atdı; dedi ki, onları başa düşməyə nə var, yazıqlar, kurortda işsizgücsüz darıxırlar, bilmirlər nə etsinlər: ya restorana gedirlər, ya çıxıb sahildə gəzişirlər, ya da bizim kapellanın konsertlərinə bilet alırlar... Amma Seymurun sözünə əhəmiyyət verən olmadı, hamı bilir ki, o hər şeyə inanandı, qorxur ki, bizə göz dəyər. Uşaqlarımız yerdən göyəcən razıdırlar – onların işi heç vaxt belə yaxşı getməyib.

Seymurla yanaşı getdiyimiz yerdə birdən ayaq saxladı, pıçıltı ilə soruşdu:

– Bəri bax, bəlkə mənə elə gəldi, bilmirəm, deyəsən, bu gün səsin yaxşı çıxmırdı...

Adillə bir-birimizə baxdıq, Seymur havadan söz danışan deyil, amma o biri tərəfdən, axı, gərək özüm də hiss eləyəydim. Yaman pərt oldum, qaşqabağımı salladım. Adil Seymura üzünü tutdu:

– Məncə, səhv eləyirsən, hər şey yerli-yerində idi.

– Allaha şükür, – Seymur əl çəkmir, – amma, hər halda, səhər oxuyanda bir özünü yaxşı-yaxşı yoxla! Necə hiss eləyirsən özünü, konsertlər səni yormur ki?..

– Yox, – sözün düzünü deyirəm, – heç bir gilə də yorulmuram.

– Bu nə hoqqadır çıxarırsan, Seymur? – Adil acıqlandı. – Yenə uğuruna kim çıxıb belə?

Seymur başını aşağı salıb hırıldadı, yaman mərdimazar tipdi...

– Qəribə adamlarsınız, – deyir. – Sizdən ötrü narahat olanda da inciyirsiniz. – Nə biləsən, bəlkə o, doğrudan da narahat olur. – Gecəniz xeyrə qalsın.

Yox bir, “Yuxunuz şirin olsun!” Nömrəyə girən kimi özümü royalın üstünə saldım, başladım çalıb-oxumağa.

Davud Balayeviç tez-tələsik qapını açıb başını içəri uzatdı, heyrətlə mənə baxdı: gecənin bu vaxtı... Heç nə demədi, içəri girib qapını arxadan bağladı, bir az qulaq asıb dedi:

– Səsinə söz yoxdu! Əla formadasan!

Bu sözdən sonra bir az özümə gəldim. Amma narahatlığım keçməmişdi.

Səsin korlanmağının nə demək olduğunu gözəl bilirdim, başıma gəlmişdi. Allah heç düşmənimə də göstərməsin – hərçənd, mənim bu yaşda düşmənim də yox idi...

Davud Balayeviç harasa zəng vurdu.

– Nə oldu, niyə gəlmədin? – Başa düşdüm ki, dostu Nikolay Fyodorovla danışır. – Üzr istəməyə dəyməz, başa düşdüm. Mən çox istərdim ki, gedənə kimi bizim uşaqlara, bir dəfə də olsa, qulaq asasan... Birisi gün yaradıcılıq evində çıxış edəcəyik. – Davud Balayeviç gülümsündü. – Bəli, bəli, düz tutubsan, pulsuz konsert verəcəyik, hamı kimi... Amma bunun bizim cavanlara dəxli yoxdu, necə lazımdı – elə çıxış eləyəcəklər. Özün görəcəksən!

Dördüncü fəsil ...Mən stola dirsəklənib oturmuşdum, əmidostumla Validənin bahar bayramına şirniyyat hazırlamasına tamaşa eləyirdim. Darçının, cevizin ətrindən məst olmuşdum. Mənzər xanım iri şüşə vazı azca aşağı əyib, badam, şirni qarışığını xörək qaşığı ilə çıxarır, şəkərbura üçün hazırlanmış xəmirin arasına qoyub bükür, bir-bir Validəyə ötürürdü, o da alan kimi cəld üzünü naxışlayırdı. Darçın, ceviz, vanil ətri bütün otağı bürümüşdü.

Mən arxayınca əyləşib onların nə vaxt otaqdan çıxacaqlarını gözləyirdim.

– Validə xanım, – dedi Mənzər xanım, – zəhmət olmasa, mənə kömək elə, tavanı duxovkadan çıxarım.

Onlar mətbəxdən qayıdana kimi badam-şirni qarışığından dördcə qaşıq ötürdüm! Mənzər xanım dinməzcə qaşığı mənim əlimdən aldı, iyrəndiyindən barmağı arasında sallaya-sallaya mətbəxə apardı, bir andaca yanağını qırmızı ləkələr bürüdü.

– Səndən heç vaxt adam olmayacaq, – dedi. – Yaxşı adam....

Keç öz otağına!

Mən öz otağıma keçdim.

– Təsəvvür eləyirəm, təsəvvür eləyirəm sən nələr çəkirsən. – Bu, Validə xanımın səsi idi.

Elmira gələndə özümü elə göstərdim ki, guya bayaqdan oturub tapşırılmış etüdü çalıb-öyrənməklə məşğulam Yüngül geyinmişdi, donunun üstündən təkcə jaket, vəssalam...

Gözümün qabağına gətirirəm, o, qonaq otağından keçəndə arvadlar necə him-cimlə baxışıblar...

– Yaxşı, yaxşı, – dedi Elmira, – indi mən inandım ki, sən doğrudan da, gecə-gündüz məşğul olursan.

O gələn kimi elə bil otaq işıqlandı, bayaqkı pərtlik də keçib getdi. Yamanca qızdı bu Elmira! Bir qovluq da gətirmişdi özüylə...

– Səncə, nə olar burda! Bilmirsən? – Elmira qovluğun iplərini açdı – qovluqda not kağızları görünür. – Üz-gözünü turşutma görək, yetər! Görürsən ki?.. Bethovenin əsərləridi. Kimdi Bethoven?

– Lüdviq Van... Anadan olub... Almaniyada...

– Düzdü. – O, örtüyü qaldırdı. – Bax, gör o nələr yaradıb.

– "Sonata".

– Gözün yaman itidi, ha! Hələ qulağını demirəm...

– Düzdü, sonatadı. İndi bir asan sualıma da cavab ver: niyə bu sonatanı şəhərin o başından bu başına gətirmişəm?

– Mən nə bilim...

– Təkcə birinci səhifəyə boylandım, "dördmərtəbəli" cərgələrlə not yazısı, bolluca diyezlər, bemollar... Sual verməyə, maraqlanmağa həvəsim qalmadı.

– Başa düşdün deyəsən. – Elmira stul gətirdi, royalın yanına qoydu, sonra hər iki əlimdən yapışdı, həmişə olduğu kimi canımdan yenə xoş bir gizilti keçdi. – Bura bax, qulağını aç, iki aydan sonra tətil başlayır. Sən ki, bilirsən, dərslər qurtaran günü bütün siniflər konsert verəcəklər. Elə deyilmi? De görüm, o gün sən nə çalacaqsan?

– Qedikenin etüdünü...

– Sən invalidsən? – Elmira yumşaq səslə soruşdu. – Gizlətmə, de?! Onda niyə Qedikeni çalmalısan? Bir də, səndən başqa on beş uşağın oxuduğu bir sinifdə, sən niyə hamıdan geri qalan sayılmalısan?

– Bu nə sözdü? – hirsləndim. – Hamıdan geri qalanlar Vasif Məmmədov, bir də Gülya Əlibəylidi.

– Ola bilər... Amma qadası, səni də zəif, perspektivsiz sayırlar.

– Kim?

– Müəllimlər. İnan, özümdən demirəm ki... Deyirlər, pis uşaq deyil, az-çox dərk eləyir, amma qabiliyyəti yoxdu...

Hiss elədim ki, o, düz deyir, məyus oldum.

– Bilirsən, mən nə cavab verdim?.. Heç nə demədim, susdum...

Axı nə deyə bilərəm. Amma, ağlıma bir fikir gəldi. – O, püpitrin üstünə notu qoydu, royalın arxasında əyləşib sonatanı çaldı. Qurtarıb, gözünü üzümə zillədi.

– Xoşuna gəldi?

– Çoox!

– Sən o konsertdə bu sonatanı çalacaqsan!

Hım... ona nə olub bu gün?! Güldüm.

– Təsəvvür eləyirsənmi, – indi o, xəyalpərvər kimi danışırdı, – əynində frak çıxırsan səhnəyə... Yaxşı, frak olmasın, – mən hırıldayan kimi Elmira beləcə sözünü dəyişdi. – Hamı səni gözləyir,

amma... səndən heç gözləmirlər. Hamı bu fikirdədir ki, səhnəyə çıxacaqsan, iki ay əzbərlədiyin Qedikeni də qolunu-qıçını sındırıb pis günə salacaqsan... Elə bu yerdə sən çıxıb royala yaxınlaşırsan, əyləşib başlayırsan çalmağa. – O, barmaqlarını royalın dillərinə çırpdı. – Təsəvvür eləyirsənmi? Hamısı donub qalacaq. Hamısı! – Elmira qonşu otağa sarı boylanıb göz vurdu.

Mən heyranlıqla ona baxırdım. Nələr deyirdi Elmira!

– Afərin! – Elmira məni tərifləyirdi. – Gör məni necə yaxşı başa düşdün! Çalacaqsan?

Mən yenə nota sarı boylandım.

– Yox, bacarmaram. İnan mənə...

– Əfəlsən, əfəl! Axı mən... mən beşinci sinifdə oxuyanda bunu çalmışam! Özüm də “beş” almışam!

– Beşinci sinifdə? – Sevincək dilləndim. – Axı mən hələ dördüncüyəm.

– Bura gəl! – o, yenə əlimdən yapışdı. – Qulaq as, gör nə deyirəm...

Söz ver ki, heç kəsə demiyəcəksən! Söz verirsənmi? Mən onu beşinci sinifdə çalmışam, düzdü... Amma... sən məndən bacarıqlısan, axı. Eşidirsənmi? İnan mənə, düz deyirəm. Sən məndən bacarıqlısan, bütün sinif yoldaşlarından, bütün müəllimlərindən bacarıqlısan.

Mən başa düşdüm ki, indi o, pedaqoq kimi danışır...

– Sənin mənliyin yoxdu, – Elmira acıqlı danışırdı. – Sən musiqini gözəl duyursan, musiqi yaddaşına söz ola bilməz, – o, sağ əlimin barmaqlarını ora-bura dartışdırırdı, – bax, yaxşı bax! Daha sən tam oktavanı götürə bilirsən.

– Bəs niyə pis çalıram?

– Ona görə ki, musiqidən zəhlən gedir, daha doğrusu, oxumaqdan, heç cür başa düşə bilmirəm səni. Sən qəddarsan? Hamıya nifrət eləyirsən! Şükür... bircə məndən başqa... Bəlkə düz demirəm? Sonatanı başlayaq?..

– Dedim ki, bir şey çıxmayacaq... Ora bax, gör sol əllə nələr çalınmalıdı, mən onu heç iki ilə də öyrənə bilmərəm.

– Elə bilirdim, mənə az-çox hörmətin var. Məni sevindirə bilərdin – bu sonata ən böyük hədiyyən olardı... Özü də birinci, həm də axırıncı...

– Axırıncı? – Nə dediyini yaxşı başa düşmədiyimdən heyrətləndim.

– Hə, hə! Apreldə məşğələmiz qurtarır. Sən ki bilirsən, mənim nişanlım var, apreldə toyumuz olacaq. Səni toyuma dəvət eləyirəm, sən də gərək məni sevindirəsən. İstəyirəm imtahanda hamıdan yaxşı çıxış eləyəsən.

– Bəs sonra? Daha məşğul olmayacaqsan?

– Sənə müəllim, repetitor lazım deyil, eşidirsən? Bircə tənbəlliyin daşını at! – O, gülümsəyə-gülümsəyə danışırdı, mənsə... bu söhbətdən sonra daha ona qulaq asmırdım.

– Bəs mən neyləyəcəyəm?

– Sən? – Mehribanlıqla məni qucaqlamaq istəyəndə əlini kənara itələdim, üzümü çevirdim. Heç onunla danışmaq belə istəmirdim...

İmtahana iki ay qalmışdı, bu iki ayda möhkəm hazırlaşdım.

Bu neçə ildə ilk dəfə idi ki, ixtisasdan “beş” alırdım.

Şam yeməyinin nə vaxt qurtaracağını səbirsizliklə gözləyirdim.

Mənzər xanım çay gətirən kimi qiymət cədvəlini əmimə uzatdım.

– Afərin! – O, qiymət cədvəlini Mənzər xanıma verdi. – Bura bax, bir dənə də “üç”ü yoxdu!

Mənzər xanım qiymətlərə diqqətlə baxırdı.

Mən dedim ki, gedib anama baş çəkmək istəyirəm. Qiymət cədvəlini unudub ikisi də duruxa-duruxa gözünü mənə zillədi.

– Mən anamı görmək istəyirəm! – dedim.

Əmim başını aşağı saldı, heç üzümə də baxmadı, vazdan mürəbbə götürüb çay içməyə başladı.

– Razılıq verməsəniz, buraxmasanız, özüm gedəcəyəm!

– Əgər sən ona lazım olsaydın, – Mənzər xanım dedi, – iki yaşında səni atmazdı.

– Dayan görək, elə danışma! – Əmim ona acıqlandı. – Sonra üzünü mənə tutdu: – İkinci dəfədi mənə belə deyirsən. Doğrudanmı, anana baş çəkmək istəyirsən?

– O heç yana getməyəcək! – Mənzər xanım hirslənsə də, əmim onun sözünə əhəmiyyət vermədi, hiss elədim ki, mənim cavabımı gözləyir. Başımı ehmalca tərpətdim.

Bazar günü əmimlə vağzala getdik. O, beşinci vaqonun bələdçisinə yaxınlaşıb salamlaşdı, sən demə, tanışı imiş, bileti ona verib xahiş elədi ki, məndə gözü olsun. Kupedə xeyli vaxt yanaşı oturduq, o, dinməz-söyləməz fikrə getmişdi, amma hirsli deyildi; sonra xəbərdarlıq zəngi vurulanda ayağa qalxdı, başımı sığalladı, kurtkamın döş cibinə zərf qoydu, “anana çatdırarsan” – deyib, kupedən çıxdı.

Vaqonun pəncərəsindən baxırdım, qatarın tərpənməyini gözləmədi.

Zərfi çıxartdım, ağzı açıq idi, pul qoymuşdu ora.

Qatar səhər Rostova çatdı. Biz, bələdçi ilə mən perrona çıxanda anamla üz-üzə gəldik. O məni əlüstü tanıdı, qucaqlayıb dedi ki, yaman böyümüsən, əvvəlcə gülümsündü, sonra ağladı – əlbəttə, sevincindən ağlayırdı. Yanında bir kişi dayanmışdı, məni görən kimi göz vurdu, əlini uzadıb tanış oldu. Bu, Viktor əmi idi. Anamın əri...

Gülərüz, mehriban adamdı.

Rostovda olduğum müddətdə Viktor əmi hər gün məni özlərinin teatrına aparırdı. Orda hamı ilə tezcə tanış oldum. Özümü orkestrin yanına verib, Viktor əminin oynadığı bütün tamaşalara baxırdım, “Səməndər quşu”, “Əs, külək”, “Anjelo” daha çox xoşuma gəlirdi.

Teatrda hamı deyirdi ki, anam çox yaxşı aktrisadı, heyif ki, onu səhnədə görə bilmədim. Bir ay bundan qabaq uşağı – qızı olub.

Vağzaldan evə çatan kimi onu gördüm. Anam məni qarşılamağa gələndə uşağı rəfiqəsinə – teatrda bir yerdə işlədiyi Vera Stepanovnaya tapşırıbmış. Anam dedi ki, qızın adını Lena qoymuşuq, mən onu sevib-əzizləməliyəm, çünki bacımdı...

Mənim yerimi özüaçılan çarpayıda saldılar, Viktor əminin gətirdiyi bu çarpayıda yatmaq lap ürəyimdən idi.

Hamımız bir otaqda qalırdıq, Viktor əmi dedi ki, bu yaxınlarda teatrın aktyorlarına evlər veriləcək, onda bizə də çatacaq...

Rostovda bir həftə qaldım.

Ayrılanda anam dedi ki, mənsiz ürəyi əsir, cəmi bir-iki il qalıb, hamımızın bir yerdə yaşayacağımız günü səbirsizliklə gözləyir. Mən yola düşəndə yaman həyəcanlı idi, elə hey ağlayırdı, onu sakitləşdirməyə çalışsam da, axırda, bir az sonra, qatar tərpənəndə kupedə özüm də göz yaşımı saxlaya bilmədim...

Beşinci fəsil Hər hansı məktubu oxuyanda, məzmunundan, xəttin, yazılışın necəliyindən asılı olmadan, onu göndərənə paxıllığım tutur. Neçə dəfə özüm də məktub yazmaq istəmişəm, amma təkcə başlanğıcından savayı heç nə alınmayıb: “Salam, əziz filankəs”... Vəssalam. Az qala bir saat vaxt sərf eləyib beş-altı cümləni yazandan sonra, saxtakarlığına görə hər notu qulağımı deşən bu kasıb “uvertüranı” gözdən keçirmək üçün mən mütləq dayanmalı idim; sonra onu “ifa eləməyə”

başlayırdım, ifanın forması da, ritmi, üsulu da partituranın məzmununa tamamilə uyğun gəlirdi – belə ki, kağızı əvvəlcə bir neçə dəfə səliqə ilə qatlayıb yavaş-yavaş, ləzzətlə cırıq-cırıq eləyirdim...

Beləcə, mən ömrüm boyu bir dənə də olsun, məktub yazıb başa çatdıra bilmədim. Amma onu da deyim ki, yaza bilmədiyimə görə heç vaxt məyus olmamışam, mənimlə məktublaşacaq adamların sayı o qədər də çox deyildi, odur ki, telefonla, teleqramla birtəhər keçinmişəm.

Əmim xırda-xırda yazsa da, onun məktubu dörd şagird dəftəri vərəqinə güclə yerləşmişdi. Əmimin məktubları, bir növ, gündəliyi xatırladır; nə dərəcədə vacib olub-olmamasına baxmayaraq, bütün hadisələr xronoloji ardıcıllıqla şərh edilir.

Birinci səhifədə Mənzər xanımın soyuqdəyməsindən, bu soyuqdəymənin sətəlcəmə keçmək təhlükəsindən uzun-uzadı danışılırdı.

Sonra onun əzab-əziyyəti təsvir olunurdu, amma soyuqdəymənin nə ilə nəticələnməsi bilinmirdi, çünki söhbətin ən şirin yerində birdən-birə, gözlənilmədən "bağ əhvalatı" başlayırdı; sən demə, əmimin bağında, evin lap qabaq-qənşərində mayda öz əlilə saldığı iki üzüm tənəyi bitibmiş. Əmidostunun soyuqdəyməsinin "aqibəti" üçüncü səhifənin başlanğıcında verilirdi; o, sağalıb, həkimlərin qadağasına və zəifləməsinə baxmayaraq, hərdən ayağa durub otaqda gəzinir...

* * * İki il bundan əvvəl, Tbilisidəki bircə gün qaldığım ev elə bil gözümün qabağındadı. Əsgərlikdən qayıdanda onlara baş çəkdim.

Yadımdadır, aeroportda hərbiçilərin kassasında biletimi beşcə dəqiqəyə qeydiyyatdan keçirib şəhərə yollandım.

Sən demə, onların evi şəhərin lap mərkəzində imiş. Hay-küylü prospektdən dönüb iki-üç kvartal gedəndən sonra gözlənilmədən sakit, kölgəli Napareuli küçəsinə çıxdım. Darvaza qapısı açıq idi, o qədər də böyük olmayan daş evə sarı kərpic qırıntısı döşənmiş cığır uzanıb gedirdi. Eyvana qalxanda Mənzər xanımı gördüm.

O, əvvəlcə məni tanımadı. "Salam, Mənzər xanım" – deyəndə cavab vermədi, gözlərini iri-iri açıb diqqətlə baxdı, sonra yaxınlaşıb məni qucaqladı. Bir neçə anlığa elə beləcə qaldı. Mənə elə gəldi ki, onun boyu balacalanıb, özü də yaman arıqlayıb; heç cür inanmırdım ki, Mənzər xanım onu görmədiyim bu illər ərzində belə qocala bilər. Gözünü məndən çəkmirdi, əmimin iş yerinə də zəng vuranda ikicə kəlmə dedi:

– O gəldi...

Dəstəyi ondan aldım, əmimlə salamlaşıb, hal-əhval tutdum.

Əmim dedi:

– Mən gələnə kimi heç yana tərpənmə! Eşidirsənmi? Onca dəqiqədən sonra evdəyəm, – bu sözləri pıçıltı ilə dedi...

Axşam üçümüz eyvanda oturub xeyli söhbətləşdik. Əmim səhərisi işə getmədi, sonra aydın oldu ki, nahaq getmədi; səhər yeməyindən başlamış təxminən günortaya kimi ancaq məni işə düzəltmək yollarından danışdı, ona görə "təxminən" deyirəm ki, günortaya qədər dayanmağa nə hövsələm çatdı, nə həvəsim qaldı.

O, ara verdi, mən fürsətdən istifadə eləyib bağa düşdüm, bir az gəzib dolaşdım, amma yenə də özümə gələ bilmədim. Küçəyə çıxdım.

Geri dönüb onlarla sağollaşmadan çıxıb getdim.

...Üçüncü səhifənin ikinci yarısında öz işlərindən, "rəsmi xəbərlərdən" söz salırdı. Öyrəndim ki, Bakıda əmim işləyən nazirlikdə, respublikadan kənardakı filialların işlərinin qaydaya düşməsinə illərlə əməlli-başlı əngəl törədən bir şöbə axır ki, bağlanıb. Filialların işindən heç nə yazılmamışdı, yəqin əmim belə başa düşüb ki, onun əvvəlki məktublarını oxumaqla mən hər şeyi öyrənmişəm.

Dördüncü səhifədəki məlumat mənim beynimi yerindən oynatdı, üstəlik qonşu çarpayıda uzanıb mürgüləyən Adili də silkələdi.

Özüm də məəttəl qaldım; məktubun o yerinə çatanda Adil gözünü açdı, qalxıb çarpayıda oturdu, gözünü üzümə zillədi – elə bil o gözlər nəyisə öyrənməkdən ötrü alışıb yanırdı.

Əmim yazırdı ki, İrkutskdan bacım Lena gəlib, neçə gündür onlarda qonaq qalır. Özü də, bircə məqsədlə gəlib: məni – yeganə qardaşını görmək üçün... Onun sözündən belə çıxırdı ki, Lena neçə il bu arzu ilə yaşayıb, Tbilisiyə gəlmək imkanı tapanda fürsəti fövtə verməyib. Əmimin Tbilisidə, nazirliyin filialında işləməsini, ailəsinin də orda yaşamasını, ev ünvanını Lena Bakıya, nazirliyə məktub yazmaqla öyrənib. Yazırdı ki, Lena çox diqqətcil, həssas adam imiş; mən əlüstü başa

düşdüm ki, Lena Mənzər xanımın qayğısına qaldığına, həyət-bacada ona əl-ayaq verdiyinə görə əmim belə yazır – hərçənd, məktubda bu haqda heç nə deyilmirdi...

Mən məktubu Adilə uzatdım ki, oxusun. O oxuyunca, Lena ilə bağlı bildiklərimi xəyalımda götür-qoy eləməyə çalışdım.

– Bax, buna sevinməyə dəyər, – dedi Adil. – Təsəvvür eləyirsənmi, demək, sənin bacın var imiş!

– Təsəvvür eləyirəm... Nə olsun ki?.. Çoxdan bilirdim ki, ikinci ərindən anamın uşağı var, onun adının Lena olduğunu indi bildim, hərçənd, vaxtilə anam mənə demişdi...

– Tez ol, get teleqram vur, qoy bacın Yaltaya gəlsin!

– Niyə? – deyə heyrətləndim. – Axı mən onu tanımıram, üzünü görməmişəm, heç qanım da qaynamır ona... Qoy bir az yaşasın Tbilisidə, məktubdan bilinir ki, bacım onların xoşuna gəlib, sonra da, məzuniyyəti qurtaranda çıxıb gedər İrkutska...

Adil mənim dediklərimi heç eşitmək istəmirdi, itkin bacısını tapan qardaş roluna girmişdi.

– Bilsəydim ki, mənim hardasa bacım yaşayır... – romantik səslə dedi və fikrə getdi.

– Bilsəydin neylərdin? – maraq xatirinə sual verdim.

– Heç bir dəqiqə də dayanmazdım, axtarardım. Zarafat deyil, hardasa doğma, əziz adamın yaşayır, sənin də onu görmək imkanın yoxdu. Heç belə də zülm olar?

– Belə ah-uflar sənə yaraşmır. Saksafonçu belə sentimental ola bilməz, bu gec-tez sənin çalğına da təsir eləyər. Əgər skripkaçı, ya da fleytaçı olsaydın – başqa məsələ! Sızıldamaq onların elə bil boyuna biçilib.

– Bura bax. – Adil üzümə baxdı. – Gedək poçta, konsertə kimi hələ vaxtımız var, gedək teleqram vuraq Tiflisə.

– Əl çək məndən! – hirslə əlimi yellədim.

Qəribədir bütün bu söz-söhbətlər nə üçünsə məni əsəbiləşdirirdi.

Həm də ona görə pərt olmuşdum ki, Adil bunu hiss elədi.

O, pəncərənin qabağında dayanıb gözünü dənizə zilləmişdi. Mən ona yaxınlaşdım, yanaşı dayandıq.

– Bağışla, – dedim.

– Gəl, teleqram vur!

– Yenə başladın? – Əl çək deyirəm. Heç üzr istəmirəm!

Gündüz saat ikidə konsert vermək üçün yaradıcılıq evinə getdik. Valera dedi ki, yaradıcılıq evi şəhərdən qıraqdadı, Yalta ilə "Artek" arasında. Saat yarım yol getdik, əvvəlcə şose yolla, sonra isə ensiz, hər iki tərəfdən qayalarla əhatə olunmuş asfalt yolla irəlilədik; axırda dənizə endikcə, bu yola serpentin – rəngli daşlar döşənmişdi. Seymur yol boyu elə hey deyinirdi; axşam çəkəcəyi zülmü əvvəlcədən bilə-bilə, bu qədər əziyyət çəkə-çəkə gedib pulsuz, "şef" konserti verməyin nə mənası var? – deyirdi.

Gözləyirdim ki, Seymurla yanaşı oturan Davud Balayeviç indicə dillənəcək, amma, o, ağzına su alıb susurdu, yaman fikrə getmişdi, qayğılı, kədərli görünürdü.

Konsert verəcəyimiz zal çox xoşuma gəldi; o qədər də böyük deyildi, antresollar, qaralmış bürünc çilçıraq, rəngli parket – hamısı yerli-yerində... Divarlar döşəmədən tavana kimi çəhrayı şəbəkələrlə işlənmişdi, amma yaqut və tünd-yaşıl rəngə çalan nəhəng vitrajlar hesabına zal işıqlı idi.

Ömrümdə ayağım bura dəyməmişdi, ancaq içəri girən kimi mənə elə gəldi ki, nə zamansa burda olmuşam, kim bilir, bəlkə də yuxuda görmüşəm.

Seymur qayğılı-qayğılı zalı gözdən keçirib dedi ki, akustikasından xəbərimiz olmayan bu binada bu gün səs ucaldansız çıxış edəcəyik; mikrofonsuz çıxışa yadırğadığımız üçün özümüz də bilmirik bir şey alınacaq, ya yox...

Evin üstündə yarımmərtəbə və ya binanın içində yuxarıda balkon şəklində Səhnədə antresollara qalxan taxta pilləkənin altında alətlərimiz çoxdan sıralanmışdı.

Valeranın dediyindən aydın oldu ki, camaat nahar eləyir, on beş dəqiqədən sonra gələcəklər. Seymur, yenə həmişəki kimi gileygüzar üstündə köklənmişdi; bu "dilsiz-ağızsız, dözümlü" artistlərə yuxarıdan baxanları, ümumiyyətlə, "kimsəsiz, yiyəsiz sənət fədailərinə" az qala nifrət bəsləyənləri o ki var qamçıladı, bizi süfrə arxasına dəvət etməyən ev sahiblərinin "huşsuzluğundan" da dedi...

Davud Balayeviç göründü, direktorun onları nahara dəvət elədiyini bildirdi, ancaq, çıxışa görə imtina etmək lazım gəldiyini söylədi. Doğrudan da, yarım saatdan sonra səhnəyə çıxacağımızı bilə-bilə, boğazımızdan çörək ötməzdi... Davud Balayeviç bu "tarixi valdan" danışdı, sən demə, son iki yüz ildə burada, ən yüksək mərhələdə dünyanın taleyini həll eləyən görüşlər olub. O, nə isə, yaman fikirli idi, danışa-danışa elə hey çıxış qapısına sarı boylanırdı və... birdən sözünü ağzında qoyub zaldan çıxdı.

Beləcə, sirli-sirli səbəblər üzündən keçmişin böyük şəxsiyyətlərinin bu salonda nədən danışdıqlarını hərtərəfli öyrənə bilmədik...

Davud Balayeviç beş dəqiqədən sonra qayıtdı; kişi yamanca dəyişmişdi, onu tanımaq olmurdu. O, həyəcanlı idi, əsəbiliklə əlini əlinə sürtdü; demək, əslində kefi kök idi, özü qarşımızda dayansa da, sevincindən fikri-xəyalı göyün yeddinci qatında idi.

– Uşaqlar, – Davud Balayeviç elə bil nitq söyləyirdi. – O gəldi!

– Diqqətlə üzümə baxdı, istədiyini görmədiyindən pərt oldu. – Nikolay Fyodoroviçi deyirəm, tələbəlik dostumdu mənim! Çox nüfuzlu adamdı, həm nüfuzlu, həm də xeyirxah... Ondan çox şey asılıdı.

– Onun "nüfuzlu adam" olduğunu sizdən eşitmişdik. – Seymur özünü saxlaya bilməyib gülümsəyə-gülümsəyə dedi.

– Siz nahaq gülümsəyirsiniz, maestro, – Davud Balayeviç soyuq, təkəbbürlü səslə dilləndi. – Çox nahaq elə fikirləşirsiniz.

Məni tanıyanlardan biri də deyə bilməz ki, məndə nə vaxtsa, kiməsə yarınmağa meyl olub. Bəli, bəli! Siz indicə bunu fikirləşirdiniz.

– "Nikolay Fyodoroviç nüfuzlu adamdı" – deyəndə, mən onu nəzərdə tuturam ki, belə mövqeyi ola-ola, yəni bizim incəsənət aləmində ən böyük vəzifələrdən birini daşıya-daşıya, o, musiqini çox həssaslıqla duyur, onu ən yüksək səviyyədən qiymətləndirir, bu xoşbəxtlik də hər adama qismət olmur. Bir də onu demək istəyirəm ki, əgər o, bu gün bizim kollektivi layiqincə qiymətləndirsə, – sözsüz, bu qiymətə layiqsiniz – bəxt ulduzunuz parlaya bilər...

– Məsələn, nə ola bilər? – Seymur yenə gülümsünürdü.

– Məsələn, Moskvanın konsert zallarının birində, yaxud Mərkəzi televiziya ilə çıxışınız... – o, özündən razı halda bizə baxdı, ancaq bu dəfə hamının üzündə ümid və sevinc işığı gördü. – Düzü, mən inanmırdım, onun gələcəyinə şübhə eləyirdim... Axır ki, gəldi!.. Qalanı bizdən asılıdır. Vəssalam...

Onun sözləri uşaqların hamısına, hətta Seymura da təsir elədi...

Konsert başlayan kimi bu, aşkar hiss olundu. Düzü, bu qastrol konsertlərinin heç birində onlar xalturaya yol verməmişdilər, amma bu gün ilk akkordlardan başlamış qeyri-adi həvəslə, ehtiramla çalırdılar. Seymur ilk nömrədə uşaqların əl-qol açması üçün nə lazımdı elədi. Oturub gözlədiyim balaca otaqdan zal görünmürdü, amma Adillə Borisin solo çalğılarının doğurduğu əks-səda onu göstərirdi ki, ora yığışanlar təsadüfi adamlar deyil. Hərçənd Seymur səhər-səhər hamını qorxutmuşdu ki, yazıçılar, bəstəkarlar və aktyorlar qarşısında çıxış eləmək müşkül işdi...

Mənim növbəm gəlib çatdı. Zal ağzınacan dolmuşdu, birinci cərgə bizim ikicə addımlığımızda idi, axırıncı cərgədən o yana – açıq qapıların arasına kreslolar qoyulmuşdu.

Seymur "Sədaqət" mahnısının girişini ustalıqla, zərif-zərif "toxuduğu" bir vaxtda, mən zala göz gəzdirdim. Elə bilirdim Davud Balayeviç hansı cərgədə öz dostu ilə yanaşı oturub, mən də axır ki, Nikolay Fyodoroviçi görəcəyəm, nədənsə, o, zalda yox idi. Onun əvəzində Məryəmi gördüm. O, ikinci cərgədə oturmuşdu.

Məryəmi sahildə görəndən sonra inanırdım ki, Yaltada, günlərin bir günündə ona rast gələcəyəm. Nömrədən çıxan kimi hər gün, hər dəqiqə gözləyirdim, amma bir dəfə də rast gəlmədim ona...

Mənə elə gəldi ki, bu üç ildə o heç dəyişməyib. Otuz beş yaşında yenə də zərif, cavanca qıza oxşayır.

İkinci cərgədə, düz mənimlə üzbəüz əyləşmişdi, üz-gözündə təbəssüm, mənə baxırdı. Biz axırıncı dəfə görüşəndə o gülümsünürdü...

O günlər yadıma düşürdü...

– ...sən mənə zülm eləyirsən. Heç cürə başa düşə bilmirəm, nə istəyirsən, başa düşmürəm, nə olub sənə?

O zaman heç nə deyə bilmədim, çünki deməyə söz tapmırdım...

Dodaqlarımı onun üzünə söykəyib gözlərimi yummuşdum, sevinc dolu bir həyəcan içində ona sözlər demək istəyirdim, elə sözlər ki, heç zaman nə onu bezdirə bilərdi, nə məni, elə sözlər ki, sonralar təkrar eləyəndə mənim qollarımın arasında, gözlərini yumub qulaq asa bilərdi, yorğun, soyuq dodaqlarını çiynimə söykəyib susardı...

Ona heç nə deyə bilmədim, çünki içimdə dilimi-dodağımı bağlayan bir nifrət və acıq baş qaldırmışdı, o, heyrətlə, vahimə dolu gözlərilə mənə baxırdı, mən onu ən ağır sözlərlə təhqir eləmək istəyirdim, var gücümlə üzünə sillə çəkmək istəyirdim.

– O mənim ərimdi, başa düşürsənmi? Səni görəndən on il əvvəl tanış olmuşduq.

– Axı sən məni sevirsən! – sözlər güclə dilimdən çıxırdı. – Necə ola bilər ki, sən həm onunla, həm də mənimlə bir yastığa baş qoyursan? Heç belə də məhəbbət olar? Mən bütün bunlardan iyrənmişəm. Sən ondan uzaqlaşacaqsan, ya yox?

O, başını buladı.

– Yox.

– Nə qədər ki, onunlasan, səni heç görmək belə istəmirəm, eşidirsənmi? Axırıncı dəfə deyirəm...

O vaxtdan bəri üz-üzə gəlməmişdik. Mən hər gün, hər saat gecə-gündüz onun haqqında fikirləşirdim. Olub-keçənlər yadıma düşdükcə keyləşirdim, əlim-ayağım yerdən üzülürdü; birinci ili dəhşətə gəlirdim, gündüzlər əlim heç nəyə yatmırdı, gecə yarıyadək arxası üstə uzanırdım, gözümə yuxu getmirdi, bir yerdə olduğumuz bütün günləri bir-bir xatırlayırdım, qısqanclığın əlində qıvrılaqıvrıla qalırdım.

Elə birinci dəfə ərini gördüyüm gündən bu hiss mənə aman vermirdi. O günə kimi mən onun haqqında heç vaxt fikirləşmirdim, yada salmırdım onu, amma bilirdim ki, belə bir adam var – Məryəm özü danışmışdı – Bakı-Həştərxan arasında işləyən "Qroznı" sərnişin gəmisinin kapitanı. O, sahildə – Bakıda olanda gündüzlər görüşürdük; teatrdakı bütün məşqlərinə gəlirdim, hərdən otaqda ikilikdə olanda mən onunçün oxuyurdum, ya da bir yerdə təzə mahnılar öyrənirdik. Belə günlərdə bəzən axşamlar, onun tamaşalarında görüşərdik, "Çio-Çio-San"da, "Yevgeni Onegin"də oxuyardı. Onun gözəl, zəngin koloratur səsi vardı. Mən ona heyranlıqla qulaq asardım, həm də bilirdim ki, səhnədən də məni görür, elə oxuya-oxuya məni fikirləşir.

Ərini görəndə tamaşaya gəldiyimə görə çox məyus oldum.

Məryəm bizi tanış elədi, məni göstərib gülümsünə-gülümsünə dedi ki, cavan, istedadlı müğənnidi, özü də yaxşı uşaqdı. O, gözümün içinə diqqətlə baxıb əlimi möhkəm sıxdı. İkimiz də bir boyda idik, amma o mənim gözümə yekəpər, qorxunc vəhşi kimi göründü; başdan ayağa əzələdən tökülmüş ağır gövdəsi, sərt üzü, qalın qaşları, iri burnunun altındakı enli bığları qarşısıalınmaz, amansız güc kimi adamı əzirdi. Elə həmin anlarda ağlıma gəldi ki, (sonralar da bu fikir heç başımdan çıxmırdı) o, ancaq istədiyi vaxt Məryəmi oxşaya bilər, dodaqlarından öpə bilər. Həm də vahimə içində hiss elədim ki, arvadının aşnası olduğunu eşidə bilər... Bunu bir kəsə demək, açıb-ağartmaq olmazdı. Bunu nə özümə bağışlaya bildim, nə də Məryəmə...

Qəribədir, bu gün Məryəmə baxanda heyrətlə hiss elədim ki, ona nə nifrətim var, nə acığım; ürəyimdə bir boşluq yaranmışdı, o boşluğu doldurmağa xatirələrlə dolu ötən günlərin də gücü çatmırdı.

Həvəslə, ürəkdolusu oxuyurdum, elə bil azad nəfəs alırdım, bütün səs tellərimlə, bütün sinirlərimlə bunu duyurdum; bu anlarda səsim mənim ixtiyarımda idi, arxayınca, gərginliksiz-filansız öz işimi görməkdə idim... Alqış qopan vaxtı Seymura yaxınlaşdım, xahiş elədim ki, Tolyaferrinin "Məhəbbət bayramı" mahnısına royalda bir keçid eləsin. Seymurun üzündən oxudum ki, mahnının melodiyasını unudub. Təəccüblənmədim, çünki bunu sonuncu dəfə iki il bundan qabaq çalıb oxumuşduq. O vaxtdan bəri mahnını oxumağa məndə heç həvəs oyanmayıb.

O da yadımda qalıb ki, mahnını özüm üçün iki dəfə “təzələmişəm”, özü də ikinci dəfə Məryəmin rəhbərliyi ilə öyrənmişəm. Əvvəlcə eşidəndə heç xoşuna gəlmədi, dedi ki, düzgün oxumursan, səs tellərini beləcə zora salmaqla oxumaq olar, belə halda səs istənilən yüksəkliyə çata da bilər, ancaq təbiiliyini, gözəlliyini itirər. Oxuya-oxuya öz tembrimi bərpa elətdirməyincə, Məryəm əl çəkmədi...

...Hə, Seymur “Sədaqət” mahnısının girişini çala-çala, azca seziləcək bir tərzdə başını buladı, hiss elədim ki, bu melodiya məni əməlli-başlı tərpədib, yaman həyəcanlanmışdım. Məryəmə baxdım, deyəsən o gülümsünürdü. Mahnının ilk sözlərini, nədənsə, heç özü- mün xəbərim olmadan, pıçıltı ilə dedim; dedim ki, bu gün mənim ən böyük bayramımdır, dedim ki, bu, insana ömründə bircə dəfə qismət ola bilər; pıçıltı ilə dedim ki, bu dünyada belə xoşbəxtliyi nə pulla, nə güclə, nə sözlə qazanmaq olar, çünki bu mahnı elə bir sevincin şərəfinə qoşulub ki, o sevinc heç nə ilə müqayisəyə gəlməz...

Konsert çox uzandı, yenə bizdən əl çəkmək istəmirdilər.Konsert çox uzandı, yenə bizdən əl çəkmək istəmirdilər.

Davud Balayeviç üzdən qayğılı görünsə də, sevincini gizləyə bilmirdi, o, axşam konsertini başqa vaxta keçirtmək üçün bir neçə dəfə direktorun otağına baş vurdu. O axşam biz hamımız sevinirdik.

Konsertdən sonra yaradıcılıq evindəkilərin hamısı – hətta aşpazlar və sürücülər belə – bir-bir bizə yaxınlaşır, əlimizi sıxıb gözəlgözəl sözlər deyirdilər. Məryəm də mənə yanaşıb əlimi sıxdı, indi yaxşı oxuduğumu sevincək dedi və tezcə də kənara çəkildi. Onun nə vaxt çıxıb getməsindən heç xəbərim olmadı, çünki elə həmin andaca Davud Balayeviç yaxınlaşıb dostunu – Nikolay Fyodoroviçlə arvadını mənimlə tanış elədi. Əslində Davud Balayeviç ağzını açmamış biz özümüz tanış olduq və Nikolay Fyodoroviçin arvadı məni öpdü, əri mənə baxa-baxa başını bulayırdı, elə hey deyirdi:

“Afərin sənə, afərin sənə! Sən lap qiyamət oxuyursanmış!” * * * Məryəmi daha görə bilmədim. Zala baxa-baxa elə hey onu axtarırdım, amma bir şey çıxmırdı. Seymur hərdən mənə ehtiyatla, narahatlıqla göz qoyurdu, biz “Latviya”ya keçəndən sonra bir az arxayınlaşdı...

Yerimizi rahatlayan kimi Davud Balayeviç dedi ki, çıxışlarımız hamını görünməmiş dərəcədə heyran qoyub, əgər lovğalanmasaq, bundan sonra daha böyük uğurlarımız olar. Adil mənim yanımda əyləşmişdi, ağzını açıb heyranlıqla, işım-işım işıldayan gözlərini döyə-döyə Davud Balayeviçə qulaq asırdı...

* * * Maşınımız ayın işıqlandırdığı yolla gedirdi, uşaqlar mürgüləyirdilər.

Adil də başını çiynimə qoyub yatmışdı. Elə bu orkestrlə “Selxoztexnika” klubunda işlədiyimiz günlər yadıma düşürdü. Onda da hər gün, beləcə mürgü döyə-döyə avtobusla rayonlara gedirdik, yüz, hərdən də yüz əlli kilometr qət eləyirdik; cəmi saat yarımlıq çıxışımız olardı, amma bütün günümüz yollarda keçərdi. O zaman mən evimizdən tamam uzaqlaşmışdım, heç yanda da oxumurdum.

Günlərin bir günü mənim səsim tamam batmasaydı, kim bilir, orda hələ nə qədər işləyəcəkdim. Seymur elə o gün klubun direktoruna bildirdi ki, biz onunla haqq-hesabı çürütmək fikrindəyik. Bu söhbət Adillə mənim yanımda oldu; klub müdiri bizdən iki həftə də işləməyi tələb eləyəndə Seymur hirsindən tir-tir əsirdi. O, artıq-əskik bir söz işlətmək istəməsə də klub müdirinin üstünə qışqıra-qışqıra dedi ki, məhz onun əclaflığı, xəsisliyi üzündən müğənni gül kimi səsini itirdi və hətta onu məhkəməyə verməklə hədələdi...

Seymurla Adil məni yaxşı bir mütəxəssis yanına apardılar, o da baxan kimi əsəb gərginliyi üzündən bu kökə düşdüyümü söylədi.

O mənə ürək-dirək versə də, səsimi itirməyim vecimə deyildi.

İynə sancmaqla müalicə olunmağımı məsləhət gördü. Adillə Seymur olmasaydı, müalicə kursunu axıra çatdıran deyildim, çünki o axmaq iynələrə heç inamım da yox idi, hər dəfə də səkkizini-onunu sancırdılar. Onlar hər gün mənə baş çəkirdilər, “iynəsancma seansı” qurtaranda gedirdilər. İki aydan sonra səsim tamam kəsildi.

Amma “Selxoztexnika” klubuna heç ayağımızı da basmadıq.

Nikolay Fyodoroviçlə arvadı bir həftə ərzində bütün konsertlərimizə gəldilər. Axşam, yola düşməzdən bir gün əvvəl, mehmanxanaya gəlib bildirdi ki, Mədəniyyət Nazirliyi ilə mənimlə bağlı hər şeyi danışıb. Bir ay sonra Macarıstanda keçiriləcək mahnı festivalına məni də göndərəcəklər. Söhbətin təkcə məndən getdiyini əvvəlcə başa düşmədim. Nikolay Fyodoroviç bildirdi ki, iki gündən sonra mən gərək Moskvaya gedəm, orda, iki ay ərzində təcrübəli konsertmeysterlərlə xüsusi proqram hazırlamalıyam.

Əvvəlcə özümü itirən kimi oldum, sonra, hiss eləyəndə ki, uşaqlar hamısı, həm də Davud Balayeviç mənim getməyimə ürəkdən sevinirlər – rahat nəfəs aldım. Üstəlik, Nikolay Fyodoroviç vəd elədi ki, bundan sonrakı qastrolların ləğv olunması üzündən orkestrin maddi cəhətdən zərər çəkməməsi üçün filarmoniyanın rəhbərliyi ilə danışacaq...

O gecə gözümə yuxu getmirdi...

Həmişə olduğu kimi, səhər tezdən oyandım. Beşə beş dəqiqə qalırdı, heç saata baxmasam da olardı! Elə bil uşaqlıqdan mənim ?

içimdə zəngli saat qurulmuşdu; nə qədər gec yatsam da, ala-torandan oyanmalı idim. Amma düzü, belə oyanmaqla heç könlüm açılmırdı; ala-toranlıqda ağlıma min cür xoşagəlməz fikir gəlirdi... İndi isə şikayətlənməyə haqqım yox idi, kefim də elə bil kökəlmişdi, bir sözlə, bu gün uğurlu bir gün idi...

Qalxıb açıq pəncərəyə yaxınlaşdım. Dənizin sakit, yuxulu üzünə, kimsəsiz sahilə zərif, qırmızımtıl işıq çiləyən günəşin ilıq şəfəqləri, bir də çiçək qoxulu tərtəmiz hava gözəl bir səhərin açılmasından xəbər verirdi.

Adil hələ oyanmamışdı. Həmişə narahat yatardı, yuxuda özözünə danışardı. İndi, sakit üzünə baxanda hiss eləyirdin ki, nə isə, xoşagələn bir yuxu görür. Nə bilmək olar, bəlkə də “sarı geyimli kadr”la görüşüb sahildə, “Oreanda”nın pəncərəsi qabağında gəzişirlər, ya da Xəzər qırağındakı evlərinin birinci mərtəbəsində əyləşib səhər yeməyi yeyirlər. Adilin bu evinin sorağı – gələcəkdə onu dənizin lap qırağında tikdirməyi arzulayırdı – bizim uşaqların hamısına çatmışdı... Adilin layihəsinə görə, ikinci mərtəbə bütövlükdə “yaxşı və əziz adamlar” üçün ayrılmışdı, birinci mərtəbə isə heç bir arakəsməsi olmayan nəhəng bir zal kimi nəzərdə tutulmuşdu. İkinci mərtəbədə qalanlar hər səhər bura, uzun bir stol arxasına yığışacaqdılar. Birinci mərtəbədə səhər yeməyinə Adil xüsusi əhəmiyyət verirdi; onun fikrincə, səhərsəhər hər cür zəhlətökənlərdən uzaq bir guşədə, ancaq ürəyinə yatan adamlarla üz-üzə oturmaq nəyə desən dəyərdi...

Mən paltarımı geyinib sakitcə otaqdan çıxdım.

Sahilboyu axıracan getdim, limana çatanda geri dönüb şəhərə üz tutdum, sakit küçələri gəzib-dolaşdım.

İki saatdan sonra, Nəbatat bağına çatanda qətiyyən yorulmamışdım.

Sərv ağacları xiyabanının sonunda, uzun bir şüşəbənd şitilliyin astanasında qoyulmuş skamyada yaşlı kişi əyləşmişdi, əynində göyümtül iş paltarı, başında həsir şlyapa vardı. Darvazadan içəri girən kimi məni gördü, amma belə ala-torandan, icazəsiz-filansız gəlməyimə qətiyyən fikir vermədi. Hətta ayağa qalxıb məni mehribanlıqla salamladı. Verdiyi sual da, nədənsə, parol kimi səsləndi:

– Siz kaktus aparmağa gəlibsiniz?

– Xeyr, – dedim, – mən elə-belə, baxmaq istəyirdim...

Dumduru göy gözlərini mənə zilləyib bir anlığa fikrə getdi, sonra sakitcə başını tərpətdi. Yenə girəcəkdəki skamyada yerini rahatladı, mənsə, cürbəcür görkəmi, ölçüsü-biçisi olan kaktuslarla dolu şitilliyə üz tutdum, heç cür inana bilməzdim ki, bu yamyaşıl tikanlı gonbulların işığı adamın gözünü-könlünü beləcə oxşayarmış...

Ətirli, təmiz havada məst ola-ola, azı bir saat kaktus cərgələrinin arası ilə gəzib dolaşdım; hərəsi haqqında yazıb vurulmuş qısaca məlumatları maraqla oxuya-oxuya, parıldayan soyuq, yumşaq budaqlarını sığallaya-sığallaya yepyekə, xoflu çiçəklərinə heyran qalmışdım.

Şüşəbənddən çıxıb ona razılığımı bildirdim.

– Çox sağ olun! Bilirsiniz necə xoşuma gəldi?!

O, heç nə demədi; nəyin xoşuma gəlib-gəlmədiyini, bura nə məqsədlə üz tutduğumu belə soruşmadı. Ayağa qalxdı, gülümsündü, əlimi sıxıb “istədiyiniz vaxt buyura bilərsiniz” – dedi...

Evə çatanda doqquza az qalırdı. Qapını döydüm, heç kəs cavab vermədi. Birinci mərtəbəyə endim, yeməkxanaya girdim. Nikolay Fyodoroviç girəcəkdə, ikinci stol arxasında öz arvadı ilə əyləşmişdi.

Məni görəndə deyəsən azca heyrətləndilər, ancaq özlərini o yerə qoymadılar. Gəlişimə sevindiklərini üzlərindən oxudum. İştahım yox idi, nə qədər yaxamı kənara çəksəm də alınmadı, onlarla bir yerdə çay-çörək yeyəsi oldum. Ordan-burdan, mətləbsiz-mənasız şeylərdən o ki var danışdıq, amma danışdıqca ürəyim açılırdı. Mən bir məqam axtarırdım ki, sözümü deyəm. Arvadı qalxıb getdi, yavaşyavaş yola hazırlıq görmək lazım idi. Elə bu yerdə dilim açıldı:

– Siz məni düzgün başa düşün... – deyib susdum.

Qaşları çatıldı, bir anlığa baxışlarını üzümə zillədi, heç nə demədiyimi görüb dilləndi:

– Buyur, deyəsən sözün var? Sən narahat olma, sözünü de!

Çalışaram... Nə olub ki?

– İş burasındadır ki, dünəndən bəri doğrudan da heç nə olmayıb.

Amma... elə bilməyin ki, mən üzlü adamam... yaxşılığı qanmayan adamam, yox... Axı siz mənə görə harasa zəng vurubsuz, xahiş eləyibsiniz...

– Boş şeydi! – o mənim sözümü kəsdi. – Olmaya peşmansan, getmək istəmirsən? Niyə?

– Nə danışırsınız, getmək istəyirəm, özü də ürəkdən! – bu mənim doğru sözüm idi. – Amma... gedə bilməyəcəyəm. Çox götür-qoy eləmişəm, görürəm ki, sentyabra kimi heç yana gedə bilməyəcəyəm.

– Yəni qastrol qurtarana kimi deyirsən? – Nikolay Fyodoroviç gülümsündü. Onun sifətinin belə tezcə dəyişməsinə məəttəl qaldım...

Bir az bundan əvvəl necə də qayğıkeş idi, indi isə onu tanımaq olmurdu – sərt, amansız gözlərlə baxırdı, özü də elə bil nədənsə çəkinirdi, ehtiyat eləyirdi. – Bəlkə uşaqlar sənin getməyini istəmirlər?

– Yox... hamısının ürəyindəndi...

– Qəribə adamsan! – deyib güldü – Mən ki, Davudla sənin yanında danışdım. Sənin getməyinə görə onlar heç bir qəpik də ziyana düşməyəcəklər.

– İş pulda deyil... İş burasındadır ki, onlar hamısı mənim neçə illik tanışlarımdı, bir yerdə işləyirik... Bir sözlə, hamısı mənim dostumdu...

Bunu deyib susdum, onun üzünə baxdım. Öz-özümə dedim:

“Başa düşün, mənim sizə bundan artıq deyiləsi sözüm yoxdu...

Ağıllı, yetkin adama oxşayırsınız, gözünüzdən xeyirxahlıq yağır.

Hiss eləmirsiniz ki, söhbət pulda deyil? Necə deyim ki, mən gedəndən sonra, qastrol qurtarandan sonra hər şey alt-üst olacaq, uşaqlar da, onların orkestri də yavaş-yavaş gözdən düşəcək. Bu, bəlkə də heç onların ağlına gəlmir. Amma mən bunu düşünürəm.

Az-çox da təcrübəm var... bir də onu bilirəm ki, çıxıb getsəm, heç vaxt mənim ömrümün belə səhəri olmayacaq...” – Sən nahaq elə fikirləşirsən ki, guya sizin uşaqları əməlli-başlı tanımamışam, həqiqətən hamısı yaxşı musiqiçidi. Düz eləyirsiniz – bir-birinizin qədrini bilməyiniz xoşuma gəlir. – O, nə üçünsə yenə gülümsündü. – Hə, gör nə deyirəm: sən çalış nə araq iç, nə də pivə...

İllah ki, səhərlər... Sən səsini nə yolla olursa olsun, yaxşı qorumalısan. Onu bil ki, səs böyük sərvətdi... Mənə də içmək olmaz, qətiyyən olmaz! – O, keçib gedən ofisiant qadını çağırdı, bir şüşə şampan şərabı gətirməsini xahiş elədi. – Təkcə bu gündən, bu səhərdən başqa! İndi biz... Sənin gələcəyinin şərəfinə söz deməliyik.

Çox oturduq, yeməkxanada bizdən başqa heç kəs qalmamışdı, durub getmək də istəmirdik...

* * * Otağımızın qapısını açıb içəri girdim, Adili pərt görən kimi astanada ayaq saxladım. O, stol arxasında əyləşib, harasa, boşluqlara, çox-çox uzaqlara baxırdı.

– Nə olub, gəmilərin dəryada batıb? – qəsdən mehriban, həlim səslə, dostyana soruşdum.

O, bircə anlığa üzünü mənə sarı döndərdi, elə bu bircə anın içində hiss elədim ki, qəfil gəlişim ürəyindən olmadı. Yataq otağına keçib əynimi dəyişməyə başladım, amma fikrim-zikrim Adilin yanında idi, onun məyusluğu məni açmırdı.

– Olmaya saksafonunu oğurlayıblar? – Hündürdən soruşdum, amma bu sualı özümə verdiyimdən özüm də cavabını tapdım:

– Yox əşi, budu ey, ütülənmiş köynəyimin üstündədi... Yəqin qalınqabırğa Seymur qızların yanında kimisə yekəxanalıqla, uşaq kimi siqaret almağa göndərmək istəyib – Adilin belə şeylərdən xoşu gəlmir, yaxşı tanıyıram onu... Elə də olub!

– Harda avaralanırsan? – yataq otağına keçə-keçə soruşdu. – Hələ bir yatıb dincəlmək də istəyir! Sən köhnənin eqoistisən!

Heyif, Adildən soruşa bilmədim ki, mən nə vaxtdan eqoist olmuşam, çünki qapı açıldı. Davud Balayeviçlə Seymur astanada göründü.

Seymur bic-bic gülümsünürdü. Davud Balayeviç isə yaman həyəcanlı idi.

– Uzan, uzan, işində ol! – Seymur canfəşanlıq elədi, əslində heç qalxmağa həvəsim də yox idi. – Bircə dəqiqəliyə gəldik, sənə baş çəkək. Gedirik, bağışla, narahat elədik! – O, ilan kimi zəhərini tökməkdə idi...

Davud Balayeviç mənə "siz" deyə müraciət eləyirdi, özü də çox nəzakətlə danışırdı. O dedi ki, heç vaxt az-çox dünyagörmüş adamların işinə qarışmaq fikrində olmayıb, amma elə elementar nəzakət qaydaları var ki, gərək kollektivdə onu gözləyəsən, bəli, bəli, bu qaydalara yuxarıdan baxmağa heç kəsin haqqı yoxdu. Əgər bir adam bir gecəliyə harasa gedirsə, mütləq əvvəlcədən xəbərdarlıq eləməlidir.

– Mən gecə heç yana getməmişəm! –Yataqda uzana-uzana izahat vermək o qədər də asan olmasa da, birtəhər öhdəsindən gəl- məyə çalışdım. – Bu kişi – mən barmağımı Adilə sarı tuşladım – sizi çaşbaş salıb, pis vəziyyətdə qoyub. Mən ala-torandan qalxıb gəzməyə çıxmışdım.

Hamısı bir-birinin üzünə baxdı, bircə anlığa heç nə demədən Adili baxışları ilə ittiham elədilər.

– Yəni heç növbətçi də səni görmədi? – Seymur şübhəli-şübhəli soruşdu.

– O da yatmışdı... Adil kimi...

– Qəribədi, – dedi Davud Balayeviç, – hamı yatmışdı, bircə sən oyaq idin. – O, yenə də "sən" deyirdi, bu o demək idi ki, bağışlayırdı məni.

Onlar gedəndən sonra Adil dilləndi:

– Davud Balayeviç bütün şəhəri ələk-vələk elədi, yaman narahat olmuşdu.

Daha yatmaq istəmirdim, qalxıb qonaq otağına keçdim.

– Hə, indi de görək, mən nə vaxtdan eqoist olmuşam?

– Bəs nəsən? – Adilin səsində sualdan çox istiqanlılıq vardı. – Bir həftədir doğma bacına teleqram vurmursan!

Bu, demaqoqluqdan başqa bir şey deyildi, əslində ona heç əhəmiyyət verməyə də dəyməzdi, amma mən, necə deyim, alicənab bir oğlan kimi Adilə bildirdim ki, Yaltadan teleqram vurmağın mənası yoxdu, çünki məktubun üstündəki möhürü gözüm almışdı.

Bacım Lena bir həftəliyə Tbilisiyə gəlmişdi, əmimin məktubu bizə çatandan bir-iki gün əvvəl bacım İrkutska qayıdıb. Ola bilsin, mənim sözüm Adilə çatmadı, amma səsimdəki inam öz işini görmüşdü.

– Yaxşı, – Adilin səsində bu dəfə laqeydlik duyulurdu, – əslində bu sənin şəxsi işindi... Mənə nə var? Mən getdim, səhərdən dilimə bir şey əyməyib...

Adil çıxandan sonra açıq-aşkar hiss elədim ki, bu şəhərin gözəlliyindən daha heç nə qalmadı. Özümə yer tapa bilmirdim, çoxdandır tənhalıq məni belə sıxmırdı. Aşağı düşdüm, restorana baxdım. – Adil orda yox idi, tezcə geri qayıtdım. Qapağını qaldırdığım royalın qarşısında dinməz-söyləməz xeyli oturdum, sonra balkona çıxdım. Sahilboyu topa-topa, dəstə-dəstə axışıb gedən adamlara baxanda elə bildim onlar bayram nümayişinə çıxıblar, birdən ağlıma gəldi ki, tək-tək, dəstə-dəstə axışan bu adamların hamısı bir-birini yaxşı tanıyır, hamısı da bir-biri ilə şirin-şirin söhbət eləyir. Hamısı – tək məndən başqa!

Adil gələndə mən stol arxasında əyləşib yenə də məktub yazmaq üçün söz axtarırdım. Cırılıb atılmış kağız parçalarını sakitcə döşəmədən yığıb zibil qabına atdı, qayıdıb mənimlə üzbəüz əyləşdi.

– Əziz əmi!.. – dedi Adil. – Yox, yaxşı çıxmır, belə olmaz...

Əvvəlcə elə bildim zarafat eləyir, sonra üzünə baxdım, gülümsünürdü, amma qayğılı, ciddi görkəm almışdı.

– Yaz! – dedi. – “Əziz əmim və əmidostum! Mən sizi çox sevirəm, odur ki, Sizi tez-tez yada salıram”. Yazdın? “Heyif ki, indiyə kimi bir-birimizdən uzaqda, ayrı-ayrı şəhərlərdə yaşayırıq, odur ki, nadir hallarda görüşürük. Bu dünyada mənim sizdən başqa kimim var?! Mənə elə gəlir ki, Bakıya, bizim köhnə evimizə qayıtmaq vaxtı çatıb...” Onun diktəsi ilə yazırdım, bu cümlələrin hamısı mənə yöndəmsiz və primitiv görünürdü. Adil sözünü deyib qurtaran kimi susdu. Mən yazdıqlarımı oxudum. Qəribədir, bu dəfə məktubu cırmaq istəmədim, heç ağlıma da gəlmədi. Onun baxışları altında yazı stoluna yaxınlaşdım, taxta qutudan zərf çıxartdım.

Mən zərfin ağzını bağlamaq istəyəndə:

– Dayan! – dedi. – Məktubda... məndən salam yazdın? Yazmadın!

Eqoist olmağına indi inandınmı?

Zarafat elədiyini bilsəm də, gülümsəməyi ürəyimdən oldu...